ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ NİZAMİ GƏNCƏVİ YARADICILIĞININ TƏDRİSİ MƏSƏLƏLƏRİ

**BAKI - 2023**

Kitab Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi Şurasının 06 aprel 2022-ci il tarixli (protokol №1) qərarı ilə nəşr olunur.

**Elmi redaktor və**
**nəşrə hazırlayanı:** **Piralı Əliyev,**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, Əməkdar müəllim*

**Rəyçi:** **Akif Abbasov,**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, Əməkdar müəllim*

**Ümumtəhsil məktəblərində Nizami Gəncəvi yaradıcılığının tədrisi məsələləri (metodik tövsiyə). Bakı: "CN POLİGRAFİYA", 2023, 96 səh.**

Kitabda dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin, həyat və yaradıcılığının ümumtəhsil məktəblərində tədrisi məsələlərindən bəhs olunur.

Kitabdan müəllimlər, metodistlər, təhsil mütəxəssisləri, tələbələr, doktorant və dissertantlar da istifadə edə bilər.

**©ARTİ, 2023**

**Mündəricat** **Səh**

**ÖN SÖZ**........................................................................................ 4

**I BÖLMƏ. NİZAMİ GƏNCƏVİ ƏSƏRLƏRİNİN TƏDRİSİ....................** 5

Ümumtəhsil məktəblərində Nizami Gəncəvinin həyat və yaradıcılığının tədrisi tarixindən *(Piralı Əliyev)*............................... 5

Nizami Gəncəvi söz haqqında və onun tədrisdə məktəblilərə aşılanması *(Ənvər Abbasov)*......................................................... 20

Azərbaycan tarixinin tədrisində Nizami Gəncəvi irsinin öyrədilməsi məsələləri *(İntiqam Cəbrayılov)*.................................................... 26

Azərbaycan dili təlimində Nizami yaradıcılığından istifadə imkanları *(Asif Hacıyev)*................................................................ 36

**II BÖLMƏ. NİZAMİ GƏNCƏVİ ƏSƏRLƏRİ TƏRBİYƏ VASİTƏSİ KİMİ..........................................................................................** 55

Nizami Gəncəvi əsərlərində dəyərlər və şagirdlərə aşılanması imkanları *(Piralı Əliyev)*................................................................ 55

Nizami Gəncəvi əsərlərində ailə dəyərləri və bunların şagirdlərə aşılanması *(Humay Alıkişiyeva)*...................................................... 71

Nizami Gəncəvi əsərləri vasitəsilə şagirdlərdə əxlaqi keyfiyyətlərin formalaşdırılması *(Bibixanım İbadova)*........................................... 78

Nizami Gəncəvi əsərləri vasitəsilə məktəblilərin estetik tərbiyəsi *(Vidadi Xəlilov)*.................................................... 89

# ÖN SÖZ

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 880 illiyi ilə əlaqədar Sərəncam imzalamışdır. Sərəncamda dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdən biri kimi qiymətləndirilir və xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsinin əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxladığı göstərilir.

Nizami Gəncəvini dünya ədəbiyyatında tanıdan və ona şöhrət qazandıran "Xəmsə"si yazıldığı dövrdən bu günə kimi təlim-tərbiyə vasitəsi kimi istifadə olunmuşdur. Ölkəmizdə Nizami Gəncəvi əsərlərinin ümumtəhsil məktəblərində tədrisi, uşaq və gənclərin tərbiyəsində bir mənbə kimi istifadəsi sahəsində xeyli iş görülmüşdür. Beynəlxalq və respublika səviyyəli konfranslar keçirilərək şairin əsərlərinin tədrisi və tərbiyəvi imkanları müəyyənləşdirilmişdir.

Sərəncamda ümummilli lider Heydər Əliyevin Nizami Gəncəvi irsinə xüsusi diqqət yetirdiyi göstərilmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley tədbirləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir. Dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Nizami Gəncəvi ili" ilə bağlı tədbirlər planına uyğun olaraq ARTİ-nin Elmi-pedaqoji tədqiqatlar mərkəzinin əməkdaşları tərəfindən "Ümumtəhsil məktəblərində Nizami Gəncəvi yaradıcılığının tədrisi məsələləri" adlı metodik vəsait hazırlanmışdır. Vəsaitdə ümumtəhsil məktəblərində Nizami Gəncəvi əsərlərinin tədrisi və şağirdlərin tərbiyəsi məsələləri işlənmişdir.

## I BÖLMƏ. NİZAMİ GƏNCƏVİ ƏSƏRLƏRİNİN TƏDRİSİ

# Ümumtəhsil məktəblərində Nizami Gəncəvinin həyat və yaradıcılığının tədrisi tarixindən

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə"si yazıya alındığı dövrdən bu günə kimi ictimai quruluşundan asılı olmayaraq, dəyərlərimizin daşıyıcısı olan Qurani-Kərim, Məhəmməd (s.ə.s.) peyğəmbərin hədisləri, Sədi Şirazinin "Gülüstan"ı, "Bustan"ı, C.Ruminin "Məsnəvi"si, M.Füzulinin "Divan"ı, "Kəlilə və Dimnə", "Qabusnamə" ilə yanaşı mədrəsələrdə uşaq və gənclərə öyrədilmişdir. Bu əsərlər XIX əsrə kimi dərslik rolu oynayaraq uşaqların mənəvi-əxlaqi dəyərlərinin formalaşmasında müstəsna rol oynamışdır. İlk dərsliklər yaradılanda Nizami Gəncəvi əsərlərindən və onun məzmunu əsasında yaradılmış başqa əsərlərdən müəyyən parçalar daxil edilmişdir. Lakin Nizami Gəncəvinin həyat və yaradıcılığı ümumtəhsil məktəblərində 1938-ci ildən sonra sistemli şəkildə tədris olunmağa başlamışdır. Araşdırma nəticəsində belə qənaətə gəlmək olur ki, Nizami Gəncəvinin həyatı, yaradıcılığı və "Xəmsə"sindən müəyyən poeması zamanın tələbinə görə tədris olunmuşdur. Hətta eyni əsərin ("Xosrov və Şirin") tədrisinə verilən tələblər dəyişərək müxtəlif illərdə məktəblərdə öyrədilmişdir. 1942-ci ildə orta məktəblərin VIII siniflərində "XVI əsrə qədər Azərbaycan ədəbiyyatı" bölümündə Nizami Gəncəvinin dövrü və həyatı, yaradıcılığının əsas mərhələləri, "Sirlər xəzinəsi" şairin didaktik əsəri kimi, eləcə də əsərdə Nizaminin irəli sürdüyü proqressiv fikirlər tədris olunmuşdur. Yaxud, "Xosrov və Şirin" poemasının sujeti, əsərdə Məhin Banu və Şirin obrazlarının şəxsində vətən məhəbbəti, Fərhad obrazı; "Leyli və Məcnun" mövzusunun Nizami tərəfindən yazılı ədəbiyyata gətirilməsi, Şirin ilə Leyli obrazlarının müqayisəsi, "Yeddi gözəl" poemasının əsas obrazları və onun kompozisiyası, Bəhram və Fitnə obrazlarının əsas xüsusiyyətləri, "İskəndərnamə" əsərinin süjeti, İskəndər və Nüşabə obrazları, eləcə də Nizaminin vətənpərvərliyi tədrisdə önə çəkilmişdir.

Bununla yanaşı, Nizami əsərlərində qəhrəmanlıq, sədaqət, vəfa və igidlik, aforizmlər, Nizami və xalq ədəbiyyatı, Nizami humanist bir sənətkar kimi,

onun müharibələrə münasibəti, Nizamidə təbiət təsviri, Nizami romantikasının xüsusiyyətləri, dünya ədəbiyyatında Nizaminin yeri kimi maraqlı məsələlər tədrisin məzmununa gətirilmişdir.

1951-ci ildə V sinifdə Nizaminin həyatı, Nizami haqqında müəllimin söhbəti, şairin həyatı və əsərləri haqqında ümumi məlumat, Nizaminin oğlu Məhəmmədə mükəmməl təhsil almağı tövsiyə etməsi vurğulanır.

Tədris üçün Nizaminin "Bərdənin tərifi" nəzərdə tutulur. Burada Azərbaycanın təbii gözəlliklərinə Nizaminin məhəbbəti, Bərdənin gözəlliklərindən danışarkən onun XII əsrdə xaraba qalmasına təəssüf etməsi və ölkənin gələcəkdə abad olacağına inamı nəzərdə tutulur.

Nizami Gəncəvi "Sultan Səncər və qarı" əsərində XII əsrdə hökmdarların əhaliyə zülm etdiklərini göstərir. Şairin bu zülmə etirazı və xalqın siyasi şüurunu oyatmağa çalışdığı göstərilir.

Nizami "Fitnə" əsərində insanpərvər şairin qadınlara müsbət münasibəti, onları ağıllı, qoçaq və şahlardan üstün bir şəkildə verməsi tədrisdə önə çəkilir.

VI sinifdə "Azərbaycan klassik ədəbiyyatı" bölməsində Nizami Gəncəvinin ağır həyat keçirməsi, öz ana dilində yazmaq arzusu ilə sarayın və zamanın tələbatı arasında ziddiyyət, Nizaminin dərin bilik sahibi olması və əsil şair olmaq üçün bunun əhəmiyyəti, Nizaminin başlıca əsərləri, bu əsərlərdə vətənpərvərlik, azadlıq, xalqlar dostluğu, əməyə məhəbbət, həqiqətpərəstlik kimi yüksək insani hissləri tərənnüm və təbliğ edilmişdir.

Nizami Gəncəvinin "Kərpic kəsən kişinin dastanı" əsərində əməyə məhəbbət ideyasının təbliği, qoca kərpic kəsən kişinin ona istehza edərək avara gəzən gənc oğlanı danlaması və gəncin öz hərəkətlərindən peşman olması tədrisdə vurğulanır.

VII sinifdə Nizaminin tərcümeyi-halı və "Xeyir və Şər" əsərinin öyrədilməsi tövsiyə olunur. "Xeyir və Şər" mənzum hekayəsində Nizaminin nəcib insani sifətləri təbliğ etməsi; xeyirli işlərə, yaxşılığa çağırması; zülmü, yalanı, pisliyi lənətləməsi tədrisə gətirilmişdir. Şair inanır ki, şər işlər görən adam bir zaman cəzalanacaqdır; yalnız xeyir işlə insan xoşbəxt olar.

1952-ci ildə VII sinifdə Nizami Gəncəvinin həyatı haqqında müəllimin söhbəti, əsərləri haqqında ümumi məlumatın verilməsi, Nizaminin oğlu Məhəmmədə mükəmməl təhsil almağı tövsiyə etməsi verilmişdir.

Yenə həmin sinifdə Nizaminin "Bərdənin tərifi" şeirində Azərbaycanın təbii gözəlliklərinə Nizaminin məhəbbətinin tərənnümü, Bərdənin gözəlliklərindən danışarkən onun XII əsrdə xaraba qalmasına təəssüf etməsi ifadə olunmuşdur.

Nizaminin "Sultan Səncər və qarı" mənzum hekəyəsinin tədrisində Nizaminin XII əsrdə hökmdarların əhaliyə zülm etdiklərin göstərməsi, şairin bu zülmə etiraz etməsi və xalqın siyasi şüurunu oyatmağa çalışması vürğulanır.

VI sinifdə (1952) "Azərbaycan klassik ədəbiyyatı" tədris vahidində Nizami Gəncəvinin "Kərpickəsən kişinin dastanı" tədris olunur. Əsərdə əməyə məhəbbət ideyasının təbliği, qoca Kərpickəsən kişinin onu istehza edərək avara gəzən gənc oğlanı danlaması, gəncin öz hərəkətlərindən peşman olması məsələsi önə çəkilir.

VII sinifdə "Azərbaycan klassik ədəbiyyatı" tədris vahidində Nizaminin həyatı, "Xeyir və Şər" mənzum hekayəsində Nizaminin nəcib insani sifətləri təbliğ etməsi; xeyirli işlərə, yaxşılığa çağırması; zülmü, yalanı, pisliyi lənətləməsi; şər işlər görən adamın bir zaman cəzalanacağını; yalnız xeyir işlə görən insanın xoşbəxt olacağı tədrisdə önə çəkilir.

1954-cü ildə V sinifdə Nizami Gəncəvinin həyatı və "Sirlər xəzinəsi"ndən "Sultan Səncər və qarı" mənzum hekayəsi tədris olunur. Burada Nizami haqqında müəllimin söhbəti, şairin həyatı və əsərləri haqqında ümumi məlumat, oğlu Məhəmmədə keyfiyyətli təhsil almağı tövsiyə etməsi tədrisə gətirilmişdir.

Əsərdə XII əsrdə hökmdarların əhaliyə zülm etdiklərinin göstərilməsi, şairin bu zülmə etirazı və xalqın siyasi şüurunu oyatmağa çalışması, Nizaminin ədalətsiz hökmdarlara qarşı fikrini poetik dillə ifadə etməsi məsələləri aydınlaşdırılır.

VI sinifdə Nizami Gəncəvinin "Kərpic kəsən kişinin dastanı" əsərində əməyə məhəbbət ideyasının təbliği, kərpickəsən qoca kişinin avara gəzən gənc oğlanı danlaması, gəncin öz hərəkətindən peşman olması, Nizaminin əməyə və əmək adamlarına münasibəti haqqında məlumat verilir.

VII sinifdə “Azərbaycan klassik ədəbiyyatı” bölümündə Nizaminin həyatı, “Xeyir və Şər” mənzum hekayəsində Nizaminin nəcib insani sifətləri təbliğ etməsi; xeyirli işlərə, yaxşılığa çağırması; zülmü, yalanı, pisliyi lənətləməsi; şairin şər işlər görən adamın bir zaman cəzalanması; yalnız xeyir işlər görən insanın xoşbəxt olması tədris olunur.

1959-cu ildə VI sinifdə Nizami Gəncəvinin “Kərpic kəsən kişinin dastanı” əsərində əməyə məhəbbət ideyasının təbliği, kərpic kəsən qoca kişinin, gənc oğlanı danlaması, gəncin öz hərəkətindən peşman olması, Nizaminin əməyə və əmək adamlarına münasibəti tədrisdə önə çəkilir.

1960-61-ci il tədris ilində VII sinifdə Nizami Gəncəvinin “Xeyir və Şər” əsərində xeyirxahlıq kimi nəcib insani sifətlərin təbliğ edilməsi; xeyirli işlərə, yaxşılığa çağrılması; zülmü, yalanı, pisliyi lənətləməsi verilmişdir.

VIII sinifdə Nizami Gəncəvinin qəzəllərindən nümunə, “Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Yeddi gözəl”, “İskəndərnamə” poemalarından müəyyən hissələrin öyrədilməsi verilmişdir. VIII sinifdə “XIII əsrə qədərki Azərbaycan ədəbiyyatı və mədəniyyəti haqqında ümumi məlumat”da ən qədim Azərbaycan tarixi və ədəbiyyatı haqqında məlumat verilərkən Nizami Gəncəvi XII əsr ədəbiyyatının ən böyük nümayəndəsi kimi təqdim olunur. Sonra Nizami Gəncəvinin “Sirlər xəzinəsi”, “Xosrov və Şirin” poemalarının tədrisi nəzərdə tutulur. Bu zaman Nizami Gəncəvinin dövrü, həyatı və yaradıcılığı, Nizami yaradıcılığının əsas dövrləri, “Xəmsə” haqqında ümumi məlumat, şairin lirikası, lirikasında sevgi və ictimai motivlər, şairin sözə, sənətə verdiyi qiymət, şeir və şair haqqında, poemalarından “Leyli və Məcnun”, “Yeddi gözəl” və “İskəndərnamə” haqqında məlumatın verilməsi irəli sürülür.

“Sirlər xəzinəsi” və “Xosrov və Şirin” poemaları təhlil olunur. “Sirlər xəzinəsi” əsərinin Nizami yaradıcılığında böyük ictimai mövzulara doğru bir dönüş mərhələsi olduğu, əsərin siyasi və tərbiyəvi əhəmiyyəti ilə yanaşı “Sultan Səncər və qarı”, “Zülmkar şah və doğru danışan qoca” mənzum hekayələrində feodal zülmünün tənqidi, Nizami yaradıcılığında zəhmətkeş insan surətləri (kərpickəsən qoca, əkinçi və s.), şairin əməyə və zəhmətkeş adamlara müsbət münasibəti, əsərin quruluşu və bədii ifadə vasitələrinin tədrisinə yer verilmişdir.

“Xosrov və Şirin” əsərinin mövzusu, məzmunu və ideyası, Xosrov surəti, Nizaminin Xosrova münasibəti, Xosrovun tərbiyəsində Şirinin rolu; Şirin surəti.

Şirin Şərq ədəbiyyatında ilk müsbət qadın surəti kimi, şairin məhəbbət və sədaqəti, ağıllığı və qoçaqlığı, sənəti və sənətkarları yüksək qiymətləndirməsi, Şirinin əməyə və əməkçi insanlara məhəbbəti. Nizaminin başqa qadın surətləri ilə Şirinin müqayisəsi; Fərhad surəti, Fərhadın zəhməti sevməsi, sevgidə sədaqətli, möhkəm iradəli olması, Xosrov və Fərhad surətlərinin müqayisəsi, Nizaminin Fərhada münasibəti verilməklə yanaşı, əsərin bədii xüsusiyyətləri: poemanın ədəbiyyat tarixindəki əhəmiyyəti sistemli şəkildə aydınlaşdırılır.

Nizami və xalq ədəbiyyatı, Nizami böyük vətənpərvər və humanist şair kimi, Nizami yaradıcılığının bədii xüsusiyyətləri: gözəl təbiət təsvirləri, insan portreti, surətlərin xarakterini və psixoloji halları yaratmaqdakı məharəti, lirik ricətlər, fəlsəfi ümumiləşdirmələr, Nizami yaradıcılığının dünyəvi əhəmiyyəti önə çəkilir. Ədəbiyyat nəzəriyyəsində portret, peyzaj, insan səciyyəsi yaratmaq, mənzum hekayə və təmsil, epik poema və əruzun məsnəvi şəkli haqqında məlumat verilir.

1963-cü ildə IX sinifdə Nizami Gəncəvinin “Sirlər xəzinəsi” (“Ayıqlığın şərti haqqında”, “Zalım padşahla Zahidin dastanı”, “İkiüzlüləri məzəmmət”), “Xosrov və Şirin” əsərlərinin tədrisi verilir.

Nizaminin dövrü, həyatı və yaradıcılığı; Nizami yaradıcılığının əsas dövrləri; “Xəmsə” haqqında ümumi məlumat; şairin lirikası; bu lirikada məhəbbət və ictimai motivlər; Nizami böyük söz ustası kimi: onun sözə, sənətə verdiyi qiymət; Nizami şeir və şair haqqında; “Leyli və Məcnun”, “Yeddi gözəl” və “İsgəndərnamə” poemaları haqqında qısa məlumat; bu əsərlərdə irəli sürülən qabaqcıl fikirlər tədris olunur.

“Sirlər xəzinəsi” əsərinin siyasi və tərbiyəvi əhəmiyyəti, “Sultan Səncər və qarı”, “Ənuşirəvan və bayquşların söhbəti”, “Ayıqlığın şərti”, “İkiüzlüləri məzəmmət” hekayələrinin təhlili, “Zalım padşahla Zahidin dastanı” hekayəsində feodal zülmünün tənqidi öyrədilir. Nizami yaradıcılığında zəhmətkeş insan surətləri (kərpickəsən qoca, əkinçi və s.), şairin əməyə və əməkçilərə münasibət məsələləri tədris olunur.

“Xosrov və Şirin” əsərinin mövzusu, məzmunu və ideyası, “Xosrov və Şirin” ilk Azərbaycan mənzum romanı kimi; Xosrov surəti, müəllifin ona münasibəti, Xosrovun əsər boyu inkişafı, onun tərbiyəsində Şirinin rolu; Şirin surəti, Şirin Şərq ədəbiyyatında ilk müsbət qadın surəti kimi, onun vəfalı, ağıllı və qoçaq

olması, sənətə və sənətkarlığa yüksək qiymət verməsi, Şirinin əməyə və əməkçi insanlara məhəbbəti, Nizaminin yaratdığı başqa qadın surətləri ilə Şirinin müqayisəsi; Fərhad surəti, Fərhadın şəxsində müəllifin əmək adamlarına müsbət münasibəti, əməyin tərənnümü sistemli şəkildə tədris olunur. Əsərin bədii xüsusiyyətlərindən kompozisiya, süjetin inkişafında əsas cəhətlər, lirik haşiyələr öyrədilir.

Nizami əsərlərində müdrik, hikmətli sözlər, Nizami və xalq ədəbiyyatı, Nizami qəhrəmanlarında sədaqət, vəfa və igidlik, humanizm, beynəlmiləlçilik və əməyə məhəbbət; Nizami romantikasının xüsusiyyətləri, Azərbaycan ədəbiyyatında, eləcə də dünya ədəbiyyatında Nizaminin mövqeyi, Nizami irsinin müasir əhəmiyyəti tədris olunur.

Ədəbiyyat nəzəriyyəsində epik əsər, poema və məsnəvi haqqında anlayışlar verilir.

1965-ci ildə IX sinifdə "XIII əsrə qədərki Azərbaycan ədəbiyyatı haqqında qısa məlumat" bölümündə Nizami Gəncəvi və Xaqani Şirvani XII əsr Azərbaycan ədəbiyyatının ən böyük nümayəndələri kimi təqdim olunur.

Nizami Gəncəvinin "Sirlər xəzinəsi" ("Ayıqlığın şərti haqqında", "Zalım padşahla Zahidin dastanı", "İkiüzlüləri məzəmmət") və "Xosrov və Şirin"poemalarının geniş şəkildə tədrisi nəzərdə tutulur.

Monoqrafik mövzuya: Nizami Gəncəvinin dövrü, həyatı, yaradıcılığının əsas dövrləri, "Xəmsə" haqqında ümumi məlumat, lirikasında əsas motivlər, sözə, sənətə verdiyi qiymət, şeir və şair haqqında fikirlərinin öyrədilməsi daxil edilmişdir.

"Leyli və Məcnun", "Yeddi gözəl" və "İskəndərnamə" poemaları haqqında qısa məlumatın verilməsi, bu əsərlərdə irəli sürülən qabaqcıl fikirlərə diqqət yetirilməsi vurğulanmışdır.

"Sirlər xəzinəsi" tədris olunarkən əsərin siyasi və tərbiyəvi əhəmiyyəti, "Sultan Səncər və qarı", "Ənuşirəvan və bayquşların söhbəti", "Ayıqlığın şərti", "İkiüzlüləri məzəmmət" hekayələrinin təhlilinə, "Zalım padşahla Zahidin dastanı" hekayəsində feodal zülmünün tənqidi, kərpickəsən qoca və əkinçinin timsalında şairin əməyə və əməkçilərə münasibəti məsələlərinə önəm verilmişdir.

“Xosrov və Şirin” əsərinin mövzusu, məzmunu və ideyası ilə bərabər mənzum roman olması xüsusi vurğulanmışdır. Ardınca Xosrov, Şirin və Fərhad surətləri və onların xarakterik xüsusiyyətlərinin təhlili ayrı-ayrılıqda verilmişdir. Əsərin bədii xüsusiyyətlərə daxil olan kompozisiya, süjetin inkişafında əsas cəhətlər, lirik haşiyələr və s. məsələlər də vurğulanmışdır.

Sonra Nizami Gəncəvi əsərlərində müdrik, hikmətli sözlər, Nizami və xalq ədəbiyyatı və s. məsələlərə yer verilir. Ədəbiyyat nəzəriyyəsindən epik əsər, poema və məsnəvi haqqında məlumat verilir.

1966-cı lidə IX sinifdə “XIII əsrə qədərki Azərbaycan ədəbiyyatı haqqında qısa məlumat” bölümündə Nizami Gəncəvi XII əsr Azərbaycan ədəbiyyatının ən böyük nümayəndəsi kimi qiymətləndirilir.

Monoqrafik mövzu kimi Nizami Gəncəvinin “Sirlər xəzinəsi” (“Zalım padşahla Zahidin dastanı”) və “Xosrov və Şirin” əsərləri tədris olunur.

Biblioqrafik məlumat kimi Nizami Gəncəvinin dövrü, həyatı və yaradıcılığı, Nizami yaradıcılığının əsas dövrləri, “Xəmsə” haqqında ümumi məlumat, şairin lirikası, bu lirikada məhəbbət və ictimai motivlər, Nizami böyük söz ustası kimi: onun sözə, sənətə verdiyi qiymət, Nizami şeir və şair haqqında, “Leyli və Məcnun”, “Yeddi gözəl” və “İsgəndərnamə” poemaları haqqında qısa məlumat, bu əsərlərdə irəli sürülən qabaqcıl fikirlər tədris olunur.

“Sirlər xəzinəsi” əsəri tədris olunarkən onun siyasi və tərbiyəvi əhəmiyyəti, “Zalım padşahla Zahidin dastanı” hekayəsində feodal zülmünün tənqidi, Nizami yaradıcılığında zəhmətkeş insan surətləri (kərpickəsən qoca, əkinçi və s.), şairin əməyə və əməkçilərə müsbət münasibəti məsələləri tədris olunur.

“Xosrov və Şirin” poemasının tədrisində əsərin mövzusu, məzmunu və ideyası, ilk Azərbaycan mənzum romanı olması, Xosrov surəti və müəllifin ona münasibəti, Xosrovun əsər boyu inkişafı, Şirinin ona müsbət təsiri; Şirin surəti və Şirinin Şərq ədəbiyyatında ilk müsbət qadın surəti olması, onun vəfalı, ağıllı və qoçaq olması, sənətə və sənətkara yüksək qiymət verməsi, Şirinin əməyə və əməkçi insanlara məhəbbəti, Nizaminin yaratdığı başqa qadın surətləri ilə Şirinin müqayisəsi; Fərhad surəti və Fərhadın şəxsində müəllifin əmək adamlarına müsbət münasibəti, əməyin tərənnümü məsələləri təlimin məzmununu təşkil edirdi. Əsərin bədii xüsusiyyətlərinə kompozisiya, süjetin inkişafında əsas cəhətlər və lirik haşiyələrin əhəmiyyəti vurğulanırdı.

Mövzunun sonunda Nizami Gəncəvi əsərlərində müdrik, hikmətli sözlər verilir. Burada Nizami və xalq ədəbiyyatı, Nizami qəhrəmanlarında sədaqət, vəfa və igidlik, Nizaminin feodal müharibələrinə mənfi münasibəti, humanizm, beynəlmiləlçilik və əməyə məhəbbət, Nizami romantikasının xüsusiyyətləri, Azərbaycan ədəbiyyatında, eləcə də dünya ədəbiyyatında Nizaminin mövqeyi, Nizami irsinin müasir əhəmiyyəti məsələləri aydınlaşdırılır.

Ədəbiyyat nəzəriyyəsinə aid anlayışlardan epik əsər, poema və məsnəvi haqqında məlumat verilir.

1967-ci tədris ili üçün IV sinifdə Nizami Gəncəvinin "Sultan Səncər və qarı" əsərinin məzmun və ideyası, Nizaminin ədalətsiz hökmdarlara qarşı etirazı; VII sinifdə Nizami Gəncəvinin "Xeyir və Şər" mənzum hekəyəsində xeyirxahlığın, cəmiyyətə xeyir vermənin təbliği, paxıllığın, dargözlüyün, şərin pislənməsi verilmişdir.

Müxtəsər ədəbiyyat tarixi kursu VIII sinifdə tədris olunduğundan Nizaminin dövrü, həyatı və yaradıcılığı, "Xəmsə" haqqında ümumi məlumat, şairin lirikası, lirikasında ictimai motivlər, məhəbbətin tərənnümü, böyük söz ustası kimi sözə, sənətə verdiyi qiymət, şeir və şair haqqında fikirlərinin tədrisə gətirilməsi  göstərilir.

"Xosrov və Şirin" poemasının tədrisində əsərin mövzusu, məzmunu və ideyası, Xosrov və Şirin surətləri, Fərhad surəti, Fərhad əmək və sənət adamı kimi, Fərhadın şəxsində yazıçının əmək adamlarına dərin rəğbəti, Fərhadın məhəbbəti və  əsərin bədii xüsusiyyətləri: kompozisiya, süjetin inkişafında əsas cəhətlər, lirik səhnələr və s. verilir.

Burada diqqəti çəkən məsələlərdən biri də "İskəndərnamə" poemasının tədrisinə xüsusi yer verilməsidir. Bu zaman əsərin mövzusu, məzmunu və ideyası, İskəndər sərkərdə və hökmdar kimi, onun elm, sənət və fəlsəfə haqqındakı fikirləri dövrünün qabaqcıl alimləri ilə məsləhətləşməsi, Nizaminin İskəndərə münasibəti, Nüşabə surəti, Nüşabə və İskəndər surətlərinin müqayisəsi, əfsanəvi azadlıq və xoşbəxtlik ölkəsi haqqında Nizaminin fikirləri, əsərin bədii xüsusiyyətləri: onun humanizmi və vətənpərvərliyi, şairin başqa xalqlara və onların mədəniyyətinə müsbət münasibəti, Nizami və şifahi xalq ədəbiyyatı məsələləri tədrisə gətirilir.

Xüsusi olaraq şairin yaradıcılığının bədii xüsusiyyətləri: təbiət təsvirləri (Bərdənin təsviri), insan portretləri, surətlərin xarakterini və psixoloji xüsusiyyətlərini yaratmaq məharəti; lirik ricətlər, fəlsəfi ümumiləşdirmələr və s. verilir.

Azərbaycan ədəbiyyatında, eləcə də dünya ədəbiyyatında Nizaminin mövqeyi, Nizaminin zəngin irsinin müasir dövrdə əhəmiyyəti vurğulanır.

Ədəbiyyat nəzəriyyəsində poema haqqında məlumatın genişləndirilməsi, məsnəvi və epik şeir haqqında anlayışlar haqqında məlumatların verilməsi tövsiyə olunur.

1967-ci ildə IX sinifdə XIII əsrə qədərki Azərbaycan tarixi, ədəbiyyatı, mədəniyyəti haqqında qısa məlumat verilərkən Nizami Gəncəvi XII əsr Azərbaycan ədəbiyyatının ən böyük nümayəndələri kimi təqdim olunur. Həmin sinifdə monoqrofik mövzu kimi Nizami Gəncəvinin "Sirlər xəzinəsi" ("Zalım padşahla Zahidin dastanı"), "Xosrov və Şirin" əsərlərinin tədrisi verilir.

Nizami Gəncəvinin biblioqrafik məlumatına dövrü, həyatı və yaradıcılığı daxil edilir. Yaradıcılığının əsas dövrləri, "Xəmsə" haqqında ümumi məlumat, şairin lirikası, bu lirikada məhəbbət və ictimai motivlər, sözə, sənətə verdiyi qiymət, Nizami şeir və şair haqqında, "Leyli və Məcnun","Yeddi gözəl" və "İskəndərnamə" poemaları haqqında qısa məlumat, bu əsərlərdə irəli sürülən qabaqcıl fikirlər tədris olunur.

"Sirlər xəzinəsi"nin tədrisində əsərin siyasi və tərbiyəvi əhəmiyyəti, "Zalım padşahla Zahidin dastanı" hekayəsində feodal zülmünün tənqidi, Nizami yaradıcılığında zəhmətkeş insan surətləri (kərpickəsən qoca, əkinçi və s.), şairin əməyə və əməkçilərə müsbət münasibəti öyrədilir.

Nizami əsərlərində müdrik, hikmətli sözlər, Nizami qəhrəmanlarında sədaqət, vəfa və igidlik, humanizm, beynəlmiləlçilik və əməyə məhəbbət, romantikasının xüsusiyyətləri və s. məsələlər tədrisdə önə çəkilir.

Ədəbiyyat nəzəriyyəsindən epik əsər, poema və məsnəvi haqqında anlayışlar genişləndirilir.

1967-ci tədris ilində IX sinifdə "XII əsrə qədərki Azərbaycan ədəbiyyatı haqqında qısa məlumat" bölməsində Nizami Gəncəvinin dövrü, həyat və yaradıcılığının əsas dövrləri, lirikası və "Xəmsə"si haqqında, lirikasında məhəbbət və ictimai motivlərin əksi məsələsinə yer verilmişdir.

“Yeddi gözəl” və “İskəndərnamə” poemalarında irəli sürülən qabaqcıl fikirlər; “Sirlər xəzinəsi”nin təhlili, əsərin siyasi və tərbiyəvi əhəmiyyəti, “Zalım padşahla Zahidin dastanı” hekayəsi, zəhmətkeş insan surətləri (kərpickəsən qoca, əkinçi və s.), şairin əməyə, əməkçilərə münasibəti və s. problemlərin tədrisdə aydınlaşdırılması göstərilmişdir.

Üzərində geniş dayanılan və tədrisinə ən çox saat ayrılan “Xosrov və Şirin” poemasıdır. Burada əsərin mövzusu, məzmunu və ideyası, “Xosrov və Şirin” Azərbaycan mənzum romanı kimi, Xosrov surəti, müəllifin ona münasibəti, Xosrovun əsər boyu inkişafı, onun tərbiyəsində Şirinin rolunun tədrisdə aydınlaşdırılması göstərilir. Şirin Şərq ədəbiyyatında qadın surətlərindən biridir. Onun vəfalı, ağıllı və qoçaq olması, sənətə və sənətkarlığa yüksək qiymət verməsi, əməyə və əməkçi insanlara məhəbbəti və başqa qadın surətləri ilə Şirinin müqayisəsi verilir.

Fərhad surəti verilərkən, onun şəxsində müəllifin əmək adamlarına müsbət münasibəti önə çəkilir. Əsərin bədii xüsusiyyətləri: kompozisiya, süjetin inkişafında əsas cəhətlər, lirik haşiyələrin və s. aydınlaşdırılması bir tələb kimi ifadə olunur.

Sonda Nizami Gəncəvi əsərlərində hikmətli sözlər, xalq ədəbiyyatı, Nizami qəhrəmanlarında sədaqət, vəfa və igidlik. Azərbaycan ədəbiyyatında, eləcə də dünya ədəbiyyatında Nizaminin mövqeyi və Nizami irsinin müasir əhəmiyyəti tədris olunması tövsiyə edilir.

1968-1981-ci illərdə ümumtəhsil məktəblərinin V-IX (X) siniflərində yuxarıda adları göstərilən əsərlərinə verilən tələblərdə cüzi dəyişiklik olmaqla tədris olunmuşlar.

1982-ci ildə IV sinifdə Nizami Gəncəvinin “Şahın dostluğu” (“Leyli və Məcnun” əsərindən) mənzum hekayəsinin məzmunu, şahın sadə adamlara münasibəti, qəddarlığı, cəza tədbiri; şairin şaha münasibəti, əsərdən çıxan nəticə, əsərin ifadəli oxusu verilir.

N.Gəncəvinin “Fitnə” (“Yeddi gözəl” əsərindən) mənzum hekayəsinin məzmunu, Fitnənin tədbirli, ağıllı bir qız olması, onun qələbəsi, şairin məqsədi tədrisdə önə çəkilir.

V sinifdə Nizami Gəncəvinin “Sultan Səncər və qarı” əsərinin mövzusu, məzmunu, Qarı surəti, Sultan Səncər simasında ədalətsizliyin tənqidi, hekayədəki surətlərə şairin münasibəti ifadə olunmuşdur.

VI sinifdə Nizami Gəncəvinin “Kərpickəsən kişinin dastanı” şairin yaradıcılığı haqqında aşağı sinifdə öyrədilənlərin möhkəmləndirilməsi; “Sirlər xəzinəsi”nin quruluşu; “Kərpickəsən kişinin dastanı” hekayəsində əməyə məhəbbət ideyası; əsərdə qoca və cavan oğlan surətləri, zəhmətsevən qocanın gənci məzəmmət etməsi, gəncin peşmanlığı, Nizami Gəncəvinin əmək adamlarına münasibəti tədris edilmişdir.

Ədəbiyyat nəzəriyyəsində mənzum hekayə haqqında biliyin dərinləşdirilməsi verilir.

VII sinifdə Nizami Gəncəvinin “Xeyir və şər” (“Yeddi gözəl” poemasından) mənzum hekayəsinin məzmunu,  Xeyir və Şər surətləri, əsərdə xeyirxahlığın təbliği, paxıllığın, dargözlüyün, şərin pislənməsi, əsərin ideyası, tərbiyəvi əhəmiyyəti tədrisə gətirilir.

Ədəbiyyat nəzəriyyəsindən hekayə (mənzum hekayə) haqqında məlumatın dərinləşdirilməsi, təhkiyə, məsnəvi haqqında məlumat verilir.

VIII sinifdə monoqrafik mövzu kimi Nizami Gəncəvinin həyatı və yaradıcılığı, “Xosrov və Şirin” əsəri tədris edilir.

Biblioqrafik məlumatlar verilərkən Nizami Gəncəvinin dövrü, həyatı və yaradıcılığı, lirikasında sevgi və ictimai motivlər, məhəbbətin tərənnümü; “Xəmsə” haqqında ümumi məlumat verilir. Nizaminin  böyük söz sənətkarı kimi sözə, sənətə verdiyi qiymət önə çəkilir.

“Xosrov və Şirin” poemasının mövzusu, şairin bu mövzuya müraciət etməsinin səbəbi, əsərin qısa məzmunu veriləndən sonra poemadan: “Məhinbanunun Şirinə öyüd verməsi”, “Bahar çağı Xosrov və Şirinin gəzməyə çıxması” (bir parça), “Fərhad və Şirin macərası”, “Xosrovla Fərhadın deyişməsi”, “Şirinin Fərhadın yanına getməsi”, “Şirinin Xosrova öyüd verməsi”, “Xosrovun öldürülməsi”, “Şirinin özünü öldürməsi” parçaları tədris olunur.

Şirin, Xosrov və Fərhad surətlərinin təhlili verilir. Bu zaman Şirin Şərq ədəbiyyatında ilk müsbət qadın obrazı kimi, onun əməyə və əmək adamlarına verdiyi yüksək qiymət, poemanın ideyası, əsərin kompozisiyası və süjet xətti tədris üçün tövsiyə olunur.

Nizami yaradıcılığının əsas xüsusiyyətlərindən humanizm və vətənpərvərlik, mütərəqqi ideyalar önə çəkilir. Nizami və Azərbaycan şifahi xalq ədəbiyyatına tədrisdə xüsusi yer verilir.

Şairin yaradıcılığının bədii xüsusiyyətlərinə insan portretləri, surətlərin xarakteri və psixoloji hallar yaratmaqda məharəti aydınlaşdırılır.

Azərbaycan ədəbiyyatında, eləcə də dünya ədəbiyyatında Nizaminin mövqeyi, Nizaminin zəngin irsinin müasir dövrdə əhəmiyyəti məsələlərinə də ayrıca yer verilir.

Ədəbiyyat nəzəriyyəsindən bədii əsərlərdə növ və janr anlayışları, epik növ, klassik şeirin növləri: rübai, məsnəvi, fəxriyyə, mədhiyyə haqqında məlumatın verilməsi tövsiyə olunur.

1999-cu ildə VI sinifdə Nizami Gəncəvinin "Oğluma nəsihət" mənzum hekəyəsində ata nəsihətinin bu gün də öz əhəmiyyətini saxlaması tədrisdə önə çəkilir.

VII sinifdə Nizami Gəncəvinin "Rübailər"i tədrisə tövsiyə olunur, şairin həyatı, yaradıcılığının əsas xüsusiyyətləri, rübailərindəki fəlsəfi fikirlərin təbliği vurğulanır.

Nizami Gəncəvinin lirikası, poema yaradıcılığı haqqında məlumat, "Xeyir və Şər" mənzum hekəyəsində Xeyirlə Şərin həmişə yanaşı olması, mübarizəsi, son nəticədə haqqın, ədalətin, düzgünlüyün qələbə çalması ideyası tədris üçün məqsədəuyğun sayılmışdır.

IX sinifdə Nizami Gəncəvinin dövrü və həyatı, lirikası, qəzəllərində məhəbbət və onun ideya-fəlsəfi mənası, "Xəmsə"yə daxil olan poemaların ("Sirlər xəzinəsi", "Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə") mövzusu, ideyası, surətlər aləmi verilmişdir.

"Xosrov və Şirin" poeması tədris olunarkən, əsərin mövzusu, ideyası, əsərdə eşq və insanın əxlaqi-mənəvi təkamülü probleminə diqqət yetirilir, sonra Xosrov, Şirin və Fərhad surətləri, poemanın bədii xüsusiyyətləri əsas kimi qəbul olunur.

Nizami yaradıcılığının mütərəqqi xüsusiyyətləri; Nizami və şifahi xalq ədəbiyyatı; Nizaminin Azərbaycan və dünya ədəbiyyatında yeri məsələlərinə də aydınlıq gətirilir.

2003-cü ildə V sinifdə “Mərhəmətə çağırış” bölümündə Nizami Gəncəvinin “Minacat”, “Peyğəmbərin tərifi” (“Xosrov və Şirin” poemasından) tədris olunarkən əsərdə xeyirxahlığa, mərhəmətə çağırış motivləri əsas kimi götürülür.
“Yaradıcı əmək insanın cövhəri və şərəfidir” bölümündə Nizami Gəncəvinin “Kərpickəsən kişinin dastanı” mənzum dastanında halal zəhmətlə dolanan məğrur qoca ilə təkəbbürlü gənc obrazları; dialoqdan çıxan əxlaqi nəticə verilmişdir.

Ədəbiyyat nəzəriyyəsində dialoq (mükalimə) anlayışının şagirdlərə aşılanması verilmişdir.

Sinifdənxaric oxu üçün Nizami Gəncəvinin “Fitnə və Şah” mənzum hekayəsi tövsiyə olunur.

VI sinifdə “Həmişəyaşar hikmətlər” bölümündən Nizami Gəncəvi “Oğlum Məhəmmədə nəsihət” (“Leyli və Məcnun” poemasından) nəsihətdəki müdriklik, uzaqgörənlik; atanın öz övladını ləyaqətli insan görmək arzusunun bədii ifadəsi əsas yer tutur.

Sinifdənxaric oxu üçün Nizami Gəncəvinin “Az danışmağın gözəlliyi” seiri tövsiyə olunmuşdur.

X sinifdə tədrisə Nizami Gəncəvinin həyatı, yaradıcılığı, “Divan”ından bizə gəlib çatmış şeirləri, qəzəllərində məhəbbətin tərənnümü; “Xəmsə” anlayışı, “Xəmsə”yə toplanmış epik əsərlər haqqında məlumat, “Xəmsə”nin yenilikləri verilmişdir.

Monoqrafik mövzuda “Xosrov və Şirin”in eşq dastanı olması, əsərin mövzusu, ideyası, konflikti və onun həlli yolları, Xosrov və Şirin surətləri, Xosrov-Fərhad konfliktinin dramatizmi, əsərin bədii xüsusiyyətləri tədris olunur.

Nizami Gəncəvi və dünya ədəbiyyatı; Nizami ədəbi məktəbi də monoqrafik mövzunun məzmununa daxil edilmişdir.

2008-ci ildən hal-hazıra kimi ümumtəhsil məktəblərində ədəbiyyat fənn kurikulumları əsasında dərsliklər hazırlanır. Fənn kurikulumlarında şair və yazıçıların həyat və yaradıcılığının öyrədilməsi məqsəd deyildir. Siniflər üzrə dərsliklər nəzərdən keçirilərkən məlum oldu ki, Nizami Gəncəvinin əsərlərindən müəyyən nümunələr tədris olunur. Belə ki,:

V sinifdə Nizami Gəncəvinin “Əməyə məhəbbət, zəhmətə çağırış” bölümündə Nizami Gəncəvinin “Kərpickəsən kişinin dastanı” mənzum hekəyəsi tədris edilir.

VI sinifdə sinifdənxaric oxu kimi Nizami Gəncəvinin “Ovcu, it və tülkünün hekayəti” tövsiyə olunur.

VIII sinifdə Nizami Gəncəvinin “Sultan Səncər və qarı” (“Sirlər xəzinəsi” poemasından) mənzum hekayəsi tədris olunur.

X sinifdə Nizami Gəncəvinin dovrü, həyatı və yaradıcılığı, lirik şeirləri, “Xəmsə”sinə daxil olan “Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Leyli və Məcnun”, “Yeddi gözəl” haqqında monoqrofik məlumat mövzunun icərisində verilir.

Sonra Nizami Gəncəvinin “İskəndərnamə” poemasından müəyyən hissələr üzərində işin təşkili verilir. Burada “İskəndərnamə”nin yazılma səbəbləri, mövzusu və ideyası, İskəndər obrazının təhlili, yazıçının qəhrəmanına münasibəti, əsərin kompozisiyasındakı mükəmməllik və s. məsələlər öyrədilir.

Azərbaycan ümumtəhsil məktəblərinin X siniflərində təmayülləşmədən asılı olaraq ədəbiyyat fənni bir saatdan on saata qədər fərqli tədris olunur. O cümlədən Nizami Gəncəvinin həyat və yaradıcılığı, lirik şeirləri və “Xəmsə”si də təmayülə uyğun olaraq öyrənilir.

Beləliklə, dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərləri orta ümumtəhsil məktəblərində həmişə tədris olunub, bu gün də öz aktuallığını saxlayaraq öyrədilir.

## İstifadə olunmuş ədəbiyyat

1. Orta məktəb proqramları. Azərbaycan dili və ədəbiyyat. VIII sinif. Bakı: Azərnəşr Tədris-Pedaqoji şöbəsi. 1942.

2. Orta məktəb proqramları. Azərbaycan dili və ədəbi qiraət (V-VIII siniflər üçün) Bakı: Azərnəşr, 1951.

3. Orta məktəb proqramları. Azərbaycan dili və ədəbi qiraət (V-VII siniflər üçün). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1952.

4. Orta məktəb proqramları. Azərbaycan dili və ədəbi qiraət (V-VII siniflər üçün). Bakı: Birləşmiş Nəşriyyat, 1954.

5. Orta məktəb proqramları. Azərbaycan dili və ədəbi qiraət (V-VII siniflər üçün).  Bakı: Birləşmiş Nəşriyyat, 1959.

6. Orta məktəb proqramları. Azərbaycan dili və ədəbi qiraət (VII sinif üçün). Bakı: Azərbaycan Dövlət Tədris Pedaqoji Ədəbiyyatı Nəşriyyatı, 1960-1961.

7. İstehsalat verən orta məktəb proqramları Ədəbiyyat (IX-XI siniflər üçün). Bakı: Azərbaycan Dövlət Tədris Pedaqoji Ədəbiyyatı Nəşriyyatı, 1963.

8. Orta məktəb proqramları. Ədəbiyyat (IX-X siniflər). Bakı: “Maarif”, 1965.

9. Orta məktəb proqramları. Ədəbiyyat (IV-X siniflər üçün). Bakı: “Maarif”, 1966.

10. Orta məktəb proqramları. Ədəbiyyat. (IV-X siniflər). Bakı: “Maarif”, 1967.

11. Orta məktəb proqramları. Ədəbiyyat. (V-VIII siniflər üçün). Bakı: “Maarif”, 1968-1981.

12. Orta məktəb proqramları. Ədəbiyyat (IX-X siniflər üçün). Bakı: “Maarif”, 1968-1981.

13. Səkkizillik və orta məktəb proqramları. Ədəbiyyat (IV-X siniflər üçün). Bakı:“Maarif”, 1982.

14. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ədəbiyyat proqramı. Təhsil Nazirliyinin 558 saylı 09.07. 1999-cu il tarixli əmri ilə təsdiq edilmişdir.

15. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ədəbiyyat proqramı. Təhsil Nazirliyinin 17.07. 2003-cü il tarixli 716 nömrəli əmri ilə təsdiq edilmişdir.

16. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı: 2013

# Nizami Gəncəvi söz haqqında və onun tədrisdə məktəblilərə aşılanması (Esse)

Dahi Nizami Gəncəvi sözü ruha bənzədir. Onun nə qədər pak və təmiz olması fikrini söyləyir. İnsanın daxili aləmində bərqərar olduğunu, onun daxili mənini ifadə etdiyini göstərir. Şairə görə, bədən insanın daxili aləminə gedən yolda eyvandır:

Söz eşqin lüğətində öz canımızdır bizim,
Biz sözük, bu bədənsə eyvanımızdır bizim.

Şair sözü həm də dünyanın naxışı hesab edir. Onu gözəlliklərin yaradıcısı, varlığın əsrarəngiz bənzərsizliklərinin yaraşığı kimi dəyərləndirir. Həmçinin onun köhnə qızıldan daha qiymətli olduğunu söyləyir. "Sözdən incə, kəsərli heç nə yoxdur həyatda" – deyir.

İnsan maddi dünyanın varlıqları içərisində özünün mükəmməlliyi ilə fərqlənir. O daha çox ağılın və sözün gücü ilə pərvəriş tapır. Varlıqların içərisində bənzərsizliyi ilə nüfuz qazanır. Elə ona görə də Nizami Gəncəvi düşüncəsində insan dünyanın əşrəfi adını alır. Ən qiymətli varlıq kimi təqdim olunur.

İnsan həm də varlıqların əşrəfi kimi ona görə daha çox şöhrət qazanır ki, o, özünün mahiyyətində həm də Yaradana məxsus olan əlamətlərdən birini gəzdirir. Həmin bu əlamətlə özünün daxilindəki sirləri aça bilir, başqaları ilə təmasda olur. Ona özünün düşüncəsindən pay verir. Bu, sözdür. Sirli, sehirli bir aləm olan söz.

## Yoxdan var olan söz

Yoxdan var olan sözdə bir qeyri-adilik vardır. Söz görünmür, söz təsir edir, söz dəyişdirir. Söz yoxdan var ola bilir. Bütün bu özünəməxsusluqlar sözə yaraşıq verməklə, həm də ona bir qeyri-adilik, müqəddəslik bəxş edir. Sözü qüdsiyyəti olan təmiz, pak mənəvi varlığa çevirir. Sözlər çox olsa da, onların bir kəlmə kimi vahidliyi - ünsiyyət aləmini yarada bilməsi ecazkardır.

Dünyada hər şey - bütün maddi aləm, onun ən kiçik hissələrinə qədər olanlar sözlə adlandırılır, sözlə var olur. Onu mənasız yerə işlətmək yasaq hesab edilir. Çünki hər sözü çox dedikdə onun təsir gücü azalır. Söz ucuzlaşır. Tutduğu zirvədən aşağı enir. Ona görə də dahi Nizami Gəncəvi bu lətif

gözəlliyi məhəbbətlə vəsf edir, onu az söyləməklə şərəfləndirməyi məsləhət görür.

Sözün də su kimi lətafəti var ,
Hər sözü az demək daha xoş olar.
İnci tək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin.

Çünki sözdən zaman-zaman bəhs edənlər belə qənaətə gəlmişlər ki, "sözdür həm təzə şey, həm də köhnə şey". Varlığın anası ondan gözəl övlad dünyaya gətirməmişdir.

## İlahi varlığın poetik obrazı

Nizami Gəncəvi sözə ilkin varlıq kimi baxır. Onu dünya yarandığı vaxtdan bu günə qələmin yazdığı birinci söz adlandırır. Həm də cilvələnən bir gözəl kimi dəyərləndirir. Sirli dünyanın yaranışında ilkin gözəl kimi kəşf edir.

Qələmin sehiri onun sözlə münis olmasındadır. Söz yoxdursa, qələm də yoxdur. Dünyanı incilərlə bəzəyən, qələmin qeyri-adiliyində bir heyrətamiz gözəllik var. O. incə və saf duyğuları tərənnüm etməkdən yorulmur. İnsanların əxlaqi-mənəvi dünyasını zənginləşdirərək, onların bəsirət gözünü açmaq üçün sözlə ülfət bağlayır. Nizami Gəncəvi bu ilahi birliyin poetik obrazını yaratmaqla onun daha şərəfli olmasını qeyd edir. Onların hər ikisində bir eyniyyət görür:

Yer üzündə incini sözlə seçibdir qələm,
Kainatın gözünü sözlə açıbdır qələm,
Dünyaya sözdü şərəf, gör ki, nədir qiyməti.
Danışmaqla, yazmaqla itməz qədir-qiyməti.
Tacidar tac sahibi sözü sanıb cahanda,
Ariflər söz qədrini sözlə anıb cahanda.

## Düşüncənin munisi

Söz hər şeydən üstündür. Bütün qiymətlilərin qiymətlisidir. Ariflər də ona möhtacdır. Onlar hər zaman özlərinin mükəmməl məntiqini, ağıllı düşüncələrini onunla bəyan edirlər.

Nizami Gəncəvi də sözü düşüncənin munisi, sirdaşı hesab edir:

Düşüncənin munisi, gözəl sirdaşı sözdür,
Unutma ki, insanın əzəl sirdaşı sözdür.

## “Söz dünyadan gözəldir...”

İnsanla birgə şərəflənən söz həm də əbədi, əzəli sirdaşıdır. İnsanlar özlərini sözlərlə gizlədə, həm də ifadə edə bilirlər. Sözlərin mənalar aləminə qapanır, onun gözəlliklərindən zövq alırlar.

Söz dünyadan gözəldi, söz həyatdan gözəldi,
Qövsi-qüzehli göydən, kainatdan gözəldi,
Yer üzündə tapılmaz sözün rəngi-boyası,
Dilə gəlməz tərifi, dili aciz qoyası.

Dahi Nizamiyə görə, sözün təsvirə gəlməz, bənzərsiz gözəlliyi vardır. O, həyatdan, dünyadan gözəldir. Hətta ulu göylərin al-əlvan gövsi-quzehindən belə gözəldir. Onda ilahi bir qüdrət, yaradana məxsus bir təravət vardır. Solmazlıq, parlaqlıq, mənalılıq onunla birgə var olmuşdur. İnsanlar bu qüdsiyyətin haləsində pərvanə kimi dolaşırlar, onun məhəbbəti ilə yaşayırlar.

Yer üzündə sözün gözəlliyinin bərabəri yoxdur. Bu gözəlliyi tərif eləməkdə dil acizdir.

Söz hər yerdə hakimdir, hamıdan baş da odur,
Dünyanın sərvətidir, inci daş-qaş da odur.

Sözü dünyanın naxışı hesab edən şair həm də onu dünyanın misilsiz sərvəti adlandırır. Bu sərvət insan övladının şəxsində özünü göstərməklə bitməzlik, tükənməzlik nümunəsi kimi insanla təmasdadır. Əsl inci, daş-qaş kimi qənirsizliyi ilə daha aydın görünür.

Söz həm də hökmü-fərmandır, hakimi-mütləqdir. Hamıdan birinci odur. Yığcamdır, lakonikdir, həm başlanğıcı, həm də sonluğu təmsil edəndir. Söz əməllərə rəvac verəndir, irəliləyişlərə dəstək olandır. İnsanlığa töhfə verəndir.

## İsmət pərdəsinə bürünən gözəl

Söz məna dolu mübhəm gözəlliyini gizlədə bilir. İsmət pərdəsinə bürünərək cahillərin gözündə görünməz olur. Rübəndini açaraq kamil insanlara məna bəxş edir. Onların sevinc hisslərini coşdurur.Yaşamaq, yaratmaq həvəsini artırır. Məhz dahi Nizami Gəncəvi bu səbəbdən

“Camalını gizlədir, hicabı var sözün də,
Xəyaldır köləsinin, qullarının gözündə”.-deyir

O özünü sözü sevən, sözün aşiqi adlandırır. Həmçinin “onun ölüsü”, “aşiqi” olduğunu fəxarət hissi ilə nəzmə çəkir. Həm də “onunla da diriyik”- deyə

sözün canlılığına işarə edir:

Biz ki, söz aşiqiyik, söz sevənin biriyik,
Onun ölüsüyük ki, onunla da diriyik.

Söz həmişə diridir. Söz həmişə canlıdır. İnsanlar onunla canlanır, özünü ifadə edir. Varlığını göstərir.

## Söz ilkindir

Söz haqqında Nizaminin poetik düşüncələrində bir mühüm əzəli-əbədi məna vardır. Söz ilkindir, söz birincidir, söz başlanğıcdır. Əslində bu, ilahi bir düşüncənin məhsulu olan bir varlıqdır. Orada yaradılışın vahid bir düsturu görünür. Hər şey "ol" kəlməsindən yarandı. Həyat bir sözün təsiri ilə var oldu, mənalandı. Bu, Yaradanın insanlıq aləminə, bəşər övladına bir gözəl töhfəsi idi. Dünyanın varlıqları qiymətli bir üzük timsalında görünürsə, söz onun qiymətli bir üzük qaşıdır.

Söz misilsiz bir qüvvət mənbəyidir. Onda yaradıcı bir güc, qüdrət vardır. Paklıq, ülvilik, ilahi gözəllik bu yaradılışla bir olaraq dünyaya gəlmişdir. Ən böyük Həqiqətin, Haqqın ülfəti, qayğısı, sevgisi kimi yaranmışdır.

İlk dəfə tərpənəndə sözdən güc aldı qələm,
Sözdən doğuldu ilk hərf, şahiddir bütün aləm.
Xəlvəti pərdəsini qaldırdılar, atdılar,
Öncə söz cilvələndi, sözdən can yaratdılar.

Şairin misralarda sözün ilahi gücünü, ruhu, sözdən güc alan qələmi izləməsi, onlara rüsxət verməsi daha möhtəşəm görünür və söz haqqında düşünənlərin narahatlıqlarına bir rahatlıq gətirilir.

Danışa bilmək qabiliyyətdir. Onun böyük hikməti var. Bu hikmət insanlıq aləmində qiymətli bir xəzinə hesab edilir. İnsanlar öz sözləri ilə var olur, özünü göstərə bilirlər. Dahi Nizami insanlığa xas olan bu keyfiyyəti yüksək qiymətləndirirdi.

Hər söz düşüncəylə deyilsin gərək,
Xərcləməzdən əvvəl qızılı bir çək.

Yaxud

Ağzında o qədər saxla ki sözü,
Yaxşı ad qazansın deyənin özü.

## Gözəllik incisi

Söz bəlağət yaradan bir gözəllik incisidir. Ona böyük qayğı və diqqətlə yanaşmaq müdriklik və kamillik əlamətidir. Dahi Nizami bu cəhəti həmişə təqdir etmişdir.

Mən sözü ölçməmiş demirəm əsla,
Sən də söyləyəndə söylə qiyasla.

Söz məqamında gözəl olur, təsir edir. Seçilib misralara düzüləndə, qafiyələnəndə özünün füsunkar gözəlliyini daha da artırır. Poetik bir mənzərənin ormanına çevrilir.

## "Çalış ədəbli ol..."

Gözəl söz tapa bilmək ustalıqdır. İnsanlar seçdikləri sözlərində, ifadə etdikləri münasibətlərində görünürlər. Ona görə də dahi Nizami "Çalış ədəbli ol hər sözündə sən"- deyə belə bir qənaətə gəlir. Əgər sən ədəblə danışırsansa, o zaman səni dinləyən də ədəblə danışar. Şair yumşaq danışmağı aqillik, ağıllı bir iş, kobud danışmağı isə axmaqlıq hesab edir. Hər kəs özünü acı sözləri ilə alçaldır, başqalarının qarşısında üzr istəyən edir.

Çalış ədəbli ol hər sözündə sən,
Ədəblə danışsın səni dinləyən.
Hər kəslə qaydasız danışma ki, sən,
Axırda utanıb üzr istəyərsən.

Nizami söz mülkünün sultanıdır. Sözün incə mənalarını görən və ona valeh olan bir sənətkardır. O, söz aləmində gərdiş etdikcə təsirlənir, sözün misilsiz gözəlliklərindən ruhlanır, onun nəzm dilində al-əlvan guşələrini yaradır. Bu guşələrin hər biri sirli-sehrli bir aləmdir. Böyük yaradanın insanlara bəxş etdiyi ecazkar bir aləm. Bu aləm təcəllə aləmidir. Mənaların təsəllisi olan bir aləm. Bütün varlıq bu aləmin məna bağlarında görünür. Söz cilidinə girmiş bu məna bağlarında ilahi düşüncənin görsənişləri bərq vurur. Lakin insanların gözlərini qamaşdırmır, düşüncələrini dolaşdırmır. Əksinə, mənalarla zənginləşdirir. Onun mahiyyətinə, canına, ruhuna çevrilir.

## "Deyilməz sözləri danışma..."

Dahi Nizaminin bu sözlərindən – böyük bir əxlaq, sözə bağlı məhəbbət süzülür. İnsanlar mənəvi bütövlüyə, yüksək mədəniyyətə, incə yumşaq, mənalı söz axtarışına təşviq olunur. Doğrudur, dünyanın incisi olan söz

həqiqətlərin, çağırışların nidası, hiss və həyəcanların carçısıdır. Hər bir söz öz haləsində xoşa gələndir. Lakin onları fikirlərin, duyğuların carçısına çevirəndə bəzən sərtləşir, qəlb sındırır, acılaşır. Şair bu məqamda diqqətli və ehtiyatlı olmağı, fikirlərini "başqa bir dil ilə" söyləməyi tövsiyə edir.

Öylə söz vardır ki, yaramaz demək,
Başqa bir dil ilə söyləmək gərək.
Sözü incə-incə söylərkən bir-bir,
Ondan hər eşidən alar bir təsir.

Hətta şair

Bir söz ki, qaşlara düyün vuracaq,
Gözəl söz olsa da, söyləmə, burax. –

deməklə təəccüb doğuran, əhvalı pozan sözləri belə gözəl olsa da, işlətməməyi məsləhət görür.

Söz doğruluğun, həqiqətin carçısına çevriləndə qiymətli olur, dəyərləndirilir. Yalanı qanadlandıran, ona dəstək verən söz narazılıq, qəzəb və nifrət doğurur. Dahi Nizami demişkən

Doğruluq yolunu tutmayan sözlər
Ay qədər ucalsa, qiymətdən düşər.

Dahi Nizami həyatı boyu söz səltənətinin qonağı oldu. İlahi varlıq olan sözün ecazkar qüdrətinə sığındı. Və bu gün insanlar üçün ərməğan olan poetik söz çələngini yaratdı. Əsrlər keçəcək bu söz çələngi həmişə öz təravətini saxlayacaq, nəsillərin nəsillərə ərmağanı olacaqdır.

## Azərbaycan tarixinin tədrisində Nizami Gəncəvi irsinin öyrədilməsi məsələləri

Ümumtəhsil məktəblərində tədris olunan Azərbaycan tarixi fənni digər fənlərdən fərqli olaraq milli-mənəvi dəyərlərimizi, mədəniyyətimizi, böyük şəxsiyyətlərin yaratdıqları ideya irsini öyrənmək və öyrətmək baxımından daha çox imkanlara malikdir. Fənnin kurikulumunda tarixi zaman, tarixi məkan, dövlət, məzmun xətləri ilə bərabər şəxsiyyət və mədəniyyət anlayışları da vardır. Bu məzmun xətləri üzərində müəyyənləşdirilmiş əsas və alt standartlar, eyni zamanda şəxsiyyət və mədəniyyət məsələlərinin öyrənilməsinə xidmət edir.

Azərbaycan tarixində özünün fəaliyyəti, cəmiyyətə təsir gücü ilə yadda qalan böyük şəxsiyyətlər, onların yaratdıqları mənəvi irs də məhz həmin məzmun xətləri və standartların tələblərinə uyğun öyrənilir, onların xalq mədəniyyətinə verdikləri töhfələr təqdir olunur, yeni nəslin tərbiyəsində örnək, nümunə olaraq göstərilir.

Belə şəxsiyyətlərdən biri Azəbaycanla bərabər bütün dünyanın tarixinə adı qızıl hərflərlə yazılmış böyük mütəfəkkir şair Nizami Gəncəvidir.

Gəncə şəhərində doğulmuş və ömrünü bu şəhərdə başa vurmuş dahi şair Nizami Gəncəvinin (1141-1209) yaratdığı irs çox böyük mənəvi sərvətidir. Hələ sağlığında o, müasirləri tərəfindən dərin zəka sahibi, filosof şair, dünyəvi elmlərin bilicisi kimi yüksək qiymətləndirilmişdir. XII yüzillikdən bu günədək bu böyük mütəfəkkir haqqında yazılır, onun ideyaları aktuallığı ilə diqqəti cəlb edir.

Təqdirəlayiq haldır ki, Azərbaycanın böyük filosof şairi N.Gəncəvinin mütəmadi olaraq yubileyləri keçirilmiş, onun Azərbaycan və dünya mədəniyyət tarixindəki rolundan geniş bəhs olunmuşdur. Xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə və ondan sonrakı mərhələdə-respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi illərində həmişə N.Gəncəvi irsinə çox böyük hörmətlə, diqqət və qayğı ilə yanaşılmış, əsərləri yenidən nəşr olunmuş, dünyada bu irsin təbliğinə daha ciddi əhəmiyyət verilmiş, ayrı-ayrı vaxtlarda yubileyi keçirilmişdir [1].

Məlumdur ki, indi ümumtəhsil məktəblərində  tarix fənni konsentrik prinsip əsasında tədris olunur. 5-ci snifdə Azərbaycan tarixi ilkin, başlanğıc

kurs olmaqla burada tariximiz keçmişdən bu günədək əsasən epizodik hekayələr şəklində verilir [10]. 6-cı sinifdən isə tarixin bütün dövrlər üzrə sistemli, daha əhatəli tədrisi başlayır.

Tarixin tədrisinin birinci konsentri 6-9-cu, ikinci konsentri isə 10-11-ci sinifləri əhatə edir. Yəni 6-9-cu siniflərdə tarix ən qədim dövrdən bu günədək tədris olunsa da, 10-11-ci siniflərdə də ən qədim dövrdən bu günədək olan tarixi hadisə və proseslər ardıcıl olaraq öyrənilir. Lakin 2-ci konsertdə, yəni 10-11-ci siniflərdə tarixin daha dərindən öyrənilməsi imkanları yaranır.

Ümumtəhsil məktəblərində tarixin tədrisinə bu yanaşmalar təbii ki, mədəniyyət və şəxsiyyət məsələlərinin, o cümlədən N.Gəncəvi irsinin də daha dərindən tədrisi imkanlarını genişləndirir. Qeyd edək ki, N.Gəncəvi ilə bağlı həm 5-ci, həm 7-ci, həm də 9-cu sinif Azərbaycan tarixi dərsliyində məlumatlar verilmişdir [10, 11, 12]. Müvafiq dövrlə bağlı mədəniyyətə dair mövzularda N.Gəncəvinin yaratdığı irs barədə zəruri informasiyalar, bilik və bacarıqlar əldə etmək mümkündür.

Bundan əlavə 8-ci sinifdə tədris olunan Ortaq türk tarixi və 7-9-cu siniflərdə Ümumi tarix fənlərinin də N.Gəncəvi irsinin öyrənilməsi ilə bağlı müəyyən imkanları vardır [9].

Aydın məsələdir ki, hər bir fənn və siniflər üzrə təlim materialları standartlar əsasında hazırlanmış dərsliklərdə pedaqoji tələblərə uyğun daha sistemli şəkildə verilir. Bu baxımdan sinifdən-sinifə keçdikdə N.Gəncəvi haqqında, onun irsi barədə şagirdlərə daha geniş məlumatlar vermək üçün zəmin yaranır. Təlim prosesində "sadədən mürəkkəbə prinsipi" əsasında şagirdlər daha dərin bilik və bacarıqlar qazanmış olurlar.

Qeyd edək ki, 5-ci sinfin Azərbaycan tarixi dərsliyində N.Gəncəvi irsi ilə tanış olmaq üçün "Azərbaycan mədəniyyətinin oyanışı" [§18] mövzusu verilmişdir [10, s.69-72]. Bu yığcam mətndə N.Gəncəvi şəxsiyyəti və yaratdığı irsin əhəmiyyəti barədə ümumiləşdirilmiş məlumatlar verilmişdir [10, s.69-70]. Burada göstərilir ki, N.Gəncəvinin əsərləri Azərbaycan xalqının tarixi keçmişini öyrənmək üçün dəyərli mənbədir. Məsələn, Dərbənd, Bərdə və digər şəhərlər haqqında real tarixi hadisələri, həm də N.Gəncəvinin əsərlərindən öyrənmək mümkündür. N.Gəncəvinin əsərlərindən aydın olur ki, Dərbənd çox əhəmiyyətli, möhkəmləndirilmiş bir qala olmuşdur. Bu möhkəmlik də onunla

bağlı idi ki, qalanın divarları dəmir və qurğuşun vasitəsilə bir-birinə bərkidilmiş qaya parçalarından hörülmüşdür.

Bu paraqrafda "Azərbaycan mədəniyyətinin oyanışı" N.Gəncəvinin məlumat verdiyi digər tarixi hadisə - Bərdə faciəsindən də bəhs olunur. Məlumdur ki, 30 illik fasilədən sonra - 944-cü ildə slavyanlar "Arranın anası" adlandırılan Bərdəyə yenidən hücum etmiş və burada əhalini qırmışdılar. Bu, tarixdə Bərdə faciəsi kimi yadda qalmışdır.

Azərbaycan tarixi dərsliyində (5-ci sinif üçün) 18-ci paraqrafda Bərdə faciəsi ilə bağlı N.Gəncəvinin əsərindən şeir nümunəsi verilir:

Deyirlər, qədimdəm çox ölən varmış,
Həm qırıb-dağıtmış, həm də aparmış.
Heç bir şey qalmamış dolu anbarda,
Xəzinə boşalmış, yoxdur dinar da.
Gördüyün o Bərdə olmuşdur viran,
O zəngin şəhərdən qalmamış nişan [10,s.70].

Nümunədən göründüyü kimi, şeir parçasında Bərdənin qədim, zəngin şəhər olmasına işarə vurulur, həm də baş vermiş qırğının ağır nəticələri aydın ifadə olunur. Bu nümunələr N.Gəncəvi əsərlərinin tarixi mənbə kimi nə qədər əhəmiyyətli olduğunu bir daha təsdiq edir. N.Gəncəvinin əsərlərinə müraciət edilməsi şagirdlərin tarixi təfəkkürünü zənginləşdirməklə yanaşı, eyni zamanda, bu böyük mütəfəkkirin şəxsiyyətinə onların hörmət və ehtiramını artırır. Bu zəngin mənəvi xəzinəni -5-lik adlandırılan "Xəmsə"ni yaradan filosof şairin əsərlərinin təkcə poetik məzmun deyil, həm də tarixi məzmun daşıdığı şagirdlərə aydın olur. Təsadüfi deyil ki, 12-ci yüzillik intibah mədəniyyəti dövrü adlanır və bu mədəniyyətin zirvəsi, ən görkəmli nümayəndəsi məhz N.Gəncəvidir. Bu dövrdən bəhs edərkən N.Gəncəvinin adını çəkməmək, onun bəşəriyyətə verdiyi töhfələri qeyd etməmək həmin tarixi mərhələnin yanlış izahına gətirib çıxarar, dövr haqqında aydın təsəvvür yaratmaq mümkün olmazdı.

7-ci sinfin Azərbaycan tarixi dərsliyində 14-cü paraqrafda: "XI əsrin ortaları- XII əsrdə mədəniyyət" mövzusunda N.Gəncəvi haqqında, onun irsi barədə yeni biliklər əldə etmək imkanları yaranır [11, s. 65-70]. Burada Nizaminin humanist baxışları, insana verdiyi dəyər barədə söz açılır və qeyd edilir ki,

məhz bu xüsusiyyətlərinə görə N.Gəncəvi müasirlərini ötüb keçmiş, bütün dövrlər üçün aktual olan, möhtəşəm əsərlər yazıb yaratmışdır.

Tarix müəllimi, fənn standartlarının verdiyi imkanlardan istifadə edərək şagirdlərin yaş və inkişaf xüsusiyyətlərinə uyğun N.Gəncəvinin irsi barədə onlara geniş bilik və bacarıqlar qazanmaq şəraitini yarada bilər.

10-cu sinfin Azərbaycan tarixi dərslərində N.Gəncəvi irsinin öyrənilməsi imkanları digər siniflərlə müqayisədə daha çoxdur. Çünki ilk növbədə 5 və 7-ci sinif şagirdləri ilə müqayisədə 10-cu sinif şagirdlərinin hər hansı bir məsələni, problemi öyrənmək, qiymətləndirmək, hadisə və prosesləri müqayisə etmək və əlaqələndirmək bacarıqları daha yüksək olur. Bununla yanaşı 10-cu sinfə qədər şagirdlər N.Gəncəvi haqqında müəyyən biliklərə yiyələnirlər. 10-cu sinifdə şagirdlər baza bilikləri və bacarıqlarını dərinləşdirmək üçün çalışırlar. Həm də o zamana qədər qazanılan biliklər təkcə Azərbaycan tarixi fənni ilə məhdudlaşmır. Şagirdlərin N.Gəncəvi ilə bağlı ədəbiyyat, ümumi tarix fənlərindən və son illərdə 8-ci sinifdə tədris olunan Ortaq türk tarixi fənnindən [§9. Eldənizlər dövləti] də məlumatlar əldə etmək imkanları olur [ 9, s. 73-75]. Bu baxımdan 10-cu sinifdə N.Gəncəvi irsinin hərtərəfli öyrənilməsi imkanları yaranır. Qeyd edək ki, 10-cu sinifdə Azərbaycan tarixi dərsliyində N.Gəncəvi irsi ilə bağlı əyaniliyin təmin olunması şagirdlərin təlim marağını artırır, onların müstəqil işinin təşkilinə əlverişli zəmin yaradır. Belə ki, dərslikdə  N.Gəncəvinin, eyni zamanda onun beş böyük poemasının nəşr variantlarının şəkillərinin verilməsi mətn üzərində işin səmərəli təşkili imkanlarını genişləndirir.

Bu mövzunun mətnində ilk növbədə N.Gəncəvinin həyatı haqqında tarixi məlumat verilir. Qeyd olunur ki, N.Gəncəvi təhsilini Gəncədə mədrəsədə almış, sonra şəxsi mütaliə yolu ilə öz dövrünün elmlərini dərindən öyrənmişdir. Əsərlərinin məzmunundan da aydın olur ki, N.Gəncəvi ilk növbədə Yaxın Şərq xalqlarının şifahi və yazılı ədəbiyyatına dərindən bələd olmuşdur. Beləliklə, yaratdığı zəngin irslə N.Gəncəvi özü də hələ öz dövründə tarixi, mənəvi dəyərə çevrilmiş, əbədi olaraq əsrlərin yaddaşında qalmışdır. Şagirdlər mövzu ilə tanış olarkən N.Gəncəvinin ana dilindən başqa fars, ərəb, yunan dillərini də bilməsi, qədim yunan tarixinə, fəlsəfəsinə, astronomiya, tibb və həndəsə elmlərinə də yaxşı bələd olması faktını da öyrənir və bu məsələlərlə

bağlı fikir mübadiləsi, müzakirə aparmaq üçün zəruri ideyaları mənimsəyirlər. Bundan başqa Eldənizlər hökmdarları Məhəmməd Cahan Pəhləvanın (1175-1186), Qızıl Arslanın (1186-1191) N.Gəncəvi ilə əlaqələri, hökmdarın ona Həmidünya (Həmənli) kəndini bağışlaması faktı da, N.Gəncəvinin böyük tarixi şəxsiyyət, mütəfəkkir, filosof şair kimi xidmətlərini və bütövlükdə tarixi reallıqları dərk etməyə zəmin yaradır. Bu baxımdan dərslik mətni istiqamətləndirici təlim materialı kimi əhəmiyyətlidir [12, s.91;2;3].

Tədqiqatlardan məlumdur ki, Həmidünya kəndi N. Gəncəviyə verildikdən sonra Qızıl Arslanın göstərişilə bu kəndə 5 km uzunluğunda su xətti çəkilmişdir. Bu su kəmərinin ətrafı 12-ci yüzilliyə aid olan kərpiclərlə hörülmüşdür. Qeyd edək ki, Həmidünya kəndində əhalinin “Şirin bulaq ” adlandırdığı bulaq və həmin bulaqdan 150 metr aralıda 7 qəbirdən ibarət qəbristanlıq da olmuşdur. Tədqiqatlar nəticəsində həmin qəbirlərin də yeri müəyyənləşdirilmiş və beləliklə, N. Gəncəviyə hədiyyə edilmiş Həmidünya kəndinin ərazisi təsdiqlənmişdir. Bununla yanaşı arxeoloji tədqiqatlar nəticəsində bu ərazidə - qədim İpək yolunun üzərində karvansarayın tapılması da mühüm tarixi fakt kimi diqqəti cəlb edir [2]. Təcrübə göstərir ki, Azərbaycan tarixinin tədrisində N. Gəncəvi irsini öyrənərkən qeyd etdiyimiz məsələlərə diqqət yetirmək, böyük mütəfəkkir şairin həyatı, fəaliyyəti barədə məlumat əldə etməklə bərabər, zəruri tarixi faktları mənimsəmək üçün əlverişli zəmin yaradır.

N.Gəncəvinin əsərlərini oxuyarkən ayrı-ayrı tarixi şəxsiyyətlər, o cümlədən Makedoniyalı İskəndər (e.ə. 356-323), III Dara (e.ə.336-330 ), Xosrov Pərviz (591-628), Sultan Səncər (1086-1157) və digər hökmdarların fəaliyyətlərinin təhlili, bədilik və tarixilik baxımından müqayisələrin aparılması müəyyən gerçəkliklərin dərk olunması və üzə çıxarılmasında mühüm rol oynayır.

Ümumiyyətlə, 10-cu sinifdə Azərbaycan tarixi fənninin tədrisində N.Gəncəvi irsini daha dərindən öyrənmək üçün geniş imkanlar vardır. Belə ki, təlim prosesində N.Gəncəvinin ayrı-ayrı poemalarının yaranma tarixi, məzmunu, həmçinin “Divan”ı barədə danışmaq, bu əsərlərin başlıca ideyalarını təhlil etmək, müasir dövr, cəmiyyət üçün əhəmiyyətli xüsusiyyətlərini üzə çıxarmaq və s. kimi məsələlər üzərində dayanaraq şagirdləri tədqiqat xarakterli işlərə cəlb etmək vacibdir. Məsələn, “Sirlər xəzinəsi” poemasının (1174-1175-ci illərdə qələmə alınmışdır) yazıldığı tarixi şərait, əsərdə dövrün

ictimai-siyasi, əxlaqi məsələləri verildiyi, ədalətin, əməyə hörmətin cəmiyyətdə nə qədər əhəmiyyətli rol oynadığı barədə şagirdlərlə ciddi müzakirələr aparmaq mümkündür.

Bu gün məktəbin əsas vəzifələrindən biri cəmiyyət üçün ləyaqətli vətəndaşların yetişdirilməsidir. N.Gəncəvinin digər poemalarında olduğu kimi bu əsərində də kifayət qədər nümunələr, örnəklər vardır.

N.Gəncəvinin ikinci böyük poeması olan "Xosrov və Şirin" poemasında da zəngin tarixi faktlar vardır. 1180-cı ildə yazılan bu əsər Atabəy M.C.Pəhləvana həsr olunmuşdur. Bu əsərdən bəhs edərkən M.C.Pəhləvanla yanaşı Səlcuq sultanı III Toğrulun (1178-1194) və Qızıl Arslanın da adlarını çəkmək və əsərin yarandığı tarixi şərait barədə fikir söyləmək imkanı yaranır [5].

Böyük mütəfəkkir digər bir əsəri-1188-ci ildə qələmə aldığı "Leyli və Məcnun" poemasını 21-ci Şirvanşah I Axsitanın (1160-1196) sifarişi ilə yazmışdır [6]. Elmi tədqiqatlarda belə bir fikir də vardır ki, I Axsitan poemadan razı qalmamışdır. Tədqiqatçı alim A.E. Krımskiyə görə bu narazılıq əsərdəki türk obrazlılığından, yəni türk cizgilərindən, müəllifin türkə olan böyük rəğbətindən irəli gəlmişdir. Ona görə də I Axsitan şairi mükafatlandırmamışdır [13]. Əslində N.Gəncəvinin əsərlərində onun milli mənsubiyyəti aydın görünür. O, özünün türk oğlu olduğunu diqqətə çatdırır, türkün əzəmətini, böyük, qəhrəman xalq olduğunu açıq şəkildə ifadə edir.

Ümumiyyətlə, N.Gəncəvinin bütün əsərləri həm də böyük tarixi məzmun daşıyır. Əsərlərində bu və ya digər hökmdarların adları çəkilir, yaxud onlar baş qəhrəman kimi təqdim olunurlar. Bu əsərlər həm qədim, həm erkən və klassik orta əsrlər dövrü ilə bağlı tarixi hadisə və prosesləri dərk etməyə, ən zəruri informasiyaları öyrənməyə imkan verir. Adlarını qeyd etdiyimiz əsərlər sırasında "Yeddi gözəl" (1197-ci ildə yazılmışdır) və "İskəndərnamə" (1200-1203-cü illərdə yazılmışdır) poemaları da tarixi məzmun daşıyır, cəmiyyətdəki prosesləri öyrənmək baxımından əhəmiyyətlidir [7,8].

Azərbaycan tarixi dərslərində N.Gəncəvi irsi öyrənilərkən onun əsərlərində əksini tapmış dəyərlərin, tərbiyəvi fikirlərin də şagirdlərə çatdırılmasının vacibliyini xüsusi qeyd etmək lazımdır. Çünki təlim-tərbiyə prosesində şagird təkcə tarixi bilikləri əks etməklə kifayətlənməməli, eyni zamanda dəyərləri mənimsəməli, şəxsiyyət kimi formalaşmalıdır. Araşdırmalar da göstərir ki,

N.Gəncəvi irsində milli və bəşəri məzmun daşıyan dəyərlər, yetkin insana xas olan mənəvi keyfiyyətlərin ifadəsi olduqca poetik formada, ibrətamiz nümunələr əsasında əksini tapmışdır. Cəsarətlə qeyd etmək olar ki, N.Gəncəvinin irsi zəngin mənəvi əxlaqi, dəyərlər xəzinəsi, insan həyatının mənəvi konstitusiyasıdır. Bu da müdriklik konsepsiyası, son dərəcə aydın fəlsəfi baxışlar sistemi əsasında formalaşmışdır.

Onun əsərlərində həyatın insana ünvanladığı ən mürəkkəb sualların cavabları vardır. Həyatın mənası, insanın özünüdərketməsi, ağlın inkişaf zəruriliyi (əqli tərbiyə), doğuluş, diriliş, ölüm fəlsəfəsi, elm öyrənməyin, özünütəhsillə məşğul olmağın əhəmiyyəti, torpaq, xalq vətən, valideyn məhəbbəti, dostluq, yoldaşlıq münasibətləri, musiqinin şəxsiyyətin formalaşmasında rolu və digər mənəvi məsələlər barədə diqqət çəkən ideyalar, fikirlər vardır. Azərbaycan tarixinin tədrisində müvafiq mövzulara uyğun qeyd olunan məsələlərdən geniş bəhs etməklə, şagirdlərin idrak fəallığını artırmaq, onlara N.Gəncəvi irsini dərindən mənimsətmək, eyni zamanda tarixi bilik və bacarıqlarını daha da zənginləşdirmək, milli ruhlu şəxsiyyət yetişdirmək mümkündür.

Mənəvi-əxlaqi dəyərlərin təcəssümü N.Gəncəvinin daha çox “Sirlər xəzinəsi” və “İskəndərnamə” poemalarında əksini tapmışdır. Şairin əsərlərində bu ideya əvvəldən sonadək, ilk qələm məhsullarından sonuncu poemasınadək yüksələn xətlə inkişaf etdirilmişdir. Bu da N.Gəncəvi irsini daha da zənginləşdirmiş, onu mükəmməl dəyərlər xəzinəsinə çevirmişdir.

Onun əsərlərində əksini tapmış dəyərlərdən, mənəvi keyfiyyətlərin tərbiyəsi ilə bağlı bəzi nümunələrə diqqət edək. Məsələn, “Sirlər xəzinəsi”ndə nəfs tərbiyəsindən bəhs edən N.Gəncəvi yazır:

Nəfsinin xırmanına od vur, elə bir od ki,
Nəfsin qoy yanıb sönsün suda təbaşir kimi [4, s.133].

Yaxud başqa nümunədə deyilən fikrə diqqət edək:

Nəfs, qərəz kirindən pak deyilsə bədənin,
Qızıl geysən də daşca dəyərin yoxdur sənin [4, s.167].

Böyük şairin əsərlərində sözə yüksək qiymət verilir, sözün də dəyərini bilmək tələb olunur:

Söz canımızdır. Eşqin lüğətinə baxsana!
Biz sözük, gövdəmizsə yalnız xarabaxana! [4, s.56]

Öz qüvvəsilə gedər söz qasidi...tövşüməz,
Söz qaldıran dağları qaldıra biməz heç kəs [4, s.59]
Heç kəs əlyəşə bilməz sözdən yuxarı qatda,
Dövlətimiz, mülkümüz yalnız sözdür həyatda [4, s.59]

Göründüyü kimi, insan həyatında sözün oynadığı rol, sözün qüdrəti, əhəmiyyəti aydın şəkldə poetik ifadələrlə diqqətə çatdırılmışdır. Yəni söz elə bir dəyərdir ki, o, insandan da yüksəkdə dayanır, hər deyilən sözü ilk növbədə düşünərək dilə gətirmək, onun mənasını, təsir gücünü nəzərə almaq lazımdır.

N.Gəncəvi insanlara yaxşılıq etməyi tövsiyə edir, pislikdən uzaq olmağı məsləhət bilir. Çünki hər kəsin əməli gec-tez onun qarşısına çıxır. Ona görə daim mərhəmətli, insanpərvər, xeyirxah olmaq, insanlara düzgün yol göstərmək vacibdir: N.Gəncəvi bunları poetik dillə belə ifadə edir:

Hər işin birər-birər gələcək öz yerinə,
Son günündə qəfildən çıxacaq qənşərinə [4, s.168].

N.Gəncəvi bilikli olmağın əhəmiyyətini də şəxsiyyətin vacib keyfiyyətlərindən sayır və belə deyir:

Yalnız idrak əhlinə yaraşır şərəf, ad-san,
İdrak üçün fərqi yox, cavansan, ya qocasan [4, s.171].

Doğrudan belədir. Yaşından asılı olmayaraq təfəkkürlü, bacarıqlı insanlara həmişə böyük rəğbət bəslənilir, bu da zəngin mənəvi keyfiyyət kimi təqdir olunur, nümunə göstərilir.

N.Gəncəvi insanı təkəbbürlü olmamağa, sadə, təvazökar olmağa, rəftar və münasibətlərdə bərabərliyi gözləməyə səsləyir. “İskəndərnamə” poemasında bu baxımdan yazdığı fikirlərə diqqət edək:

İnsansan, insana qatış hər zaman,
İnsanla yaşayır hər zaman insan.
Əlçatmaz xəzinə olsan da, ancaq
Çox belə xəzinə gizləmiş torpaq [8, s.34].

Nümunədən göründüyü kimi əsərdə insanın kollektivdə birgə çalışması, qarşılıqlı əməkdaşlıq şəraitində yaşaması təbliğ olunur. Poemada deyildiyi kimi insan nə qədər əlçatmaz xəzinə olsa belə, bir gün onun da sonu gəlir, torpağa qarışır.

Bu fikirlər orta əsrlərdə səsləndirilsə də bu gün də aktuallığını saxlayır və hər zaman tərbiyə ideyası, şəxsiyyətin formalaşdırılmasında mühüm şərtlərdən biri kimi qalacaqdır.

Yaxud övlad tərbiyəsinə aid bir nümunəyə [İskəndərin təlim alması 8, s.64-68] diqqət edək:

Ağıllı övladla ata fəxr edər,

Çünki mübarəkdir seçilmişdir gövhər.

Dünyada ataya varmışdır, gerçək,

Ağıllı oğuldan başqa bir istək [8, s.65].

Nümunədən də göründüyü kimi, N.Gəncəvi ağıllı övlad tərbiyəsini valideynin başlıca vəzifələrindən sayır. Ona görə də övlada bilik öyrətməyin, tərbiyə verməyin zəruriliyi qeyd edir. Günəş daşı qiymətli gövhərə çevirə bildiyi kimi təlim-tərbiyə də insanı yetkin şəxsiyyət səviyyəsinə yüksəldə bilir.

Qeyd etdiyimiz şeir nümunələri təkcə ədəbiyyat dərslərində deyil, eyni zamanda tarix dərslərində də şagirdlərin diqqətinə çatdırıla bilər. Xüsusilə, Azərbaycan tarixinin tədrisində N.Gəncəvi irsinə aid zəngin nümunələrdən istifadə etmək mümkündür. Azərbaycan intibah mədəniyyətinə aid mövzuların tədrisində şərh etdiyimiz məsələlərin hər biri ilə bağlı müəllim inteqrativliyi və interaktivliyi təmin edərək müzakirə açmaq, şagirdlərə müstəqil iş üçün tapşırıqlar vermək və s. kimi yollarla dərsin səmərəliliyini yüksəldə bilər. Bu proses təbii ki, ilk növbədə şagirdlərin Nizami Gəncəvi irsi haqqında, eyni zamanda bütövlükdə tarixi bilik və bacarıqlarının daha da dərinləşməsinə zəmin yaradır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli " elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 05 yanvar 2021-ci il. https://president.az/articles/49904

2. Arxeoloqlar Nizami Gəncəviyə hədiyyə edilmiş kəndi aşkarladılar. https://news.milli.az/society/209305.html

3. Bünyadov, Z.M. Azərbaycan Atabəylər dövləti / Z.M.Bünyadov.- Bakı: Şərq-Qərb,- 2007.-312 s.

4. Gəncəvi, N. Sirlər xəzinəsi / N.Gəncəvi.- Bakı: Lider,- 2004. -264 s. http://www.anl.az/el/n/ng_sx.pdf

5. Gəncəvi, N. / N.Gəncəvi.- Xosrov və Şirin.- Bakı: Lider,- 2004.-392 s. http://anl.az/el/n/ng_x&sh.pdf

6. Gəncəvi, N. / N.Gəncəvi. Leyli və Məcnun.- Bakı: Lider,- 2004.- 288 s.

7. Gəncəvi, N. / N.Gəncəvi. Yeddi gözəl. - Bakı: Lider,- 2004.- 336 s.

8.Gəncəvi, N. İskəndərnamə / N.Gəncəvi.- Bakı: Adiloğlu,-2011.-662s. http://anl.az/el/n/ng_i-sh.pdf

9. Kıdırəli, D. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün Ortaq türk tarixi fakültativ fənni üzrə dərslik ( ən qədim dövrdən XV əsrə qədər). / D. Kıdırəli, Q. Balayar - Bakı: Aspoliqraf LTD,- 2020.-160 s.

10. Mahmudlu, Y. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün Azərbaycan fənni üzrə dərslik./ Y.Mahmudlu, H. Cabbarov, L. Hüseynova - Bakı: Təhsil,- 2020. -211 s.

11. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Azərbaycan fənni üzrə dərslik/ Y.Mahmudlu, Q. Əliyev, L. Hüseynova [və b.] - Bakı: Təhsil,-2018.- 131 s.

12. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Azərbaycan fənni üzrə dərslik/ T. Əliyev T, P. Ağalarov P,N. Quliyev [və b.] - Bakı: Şərq-Qərb,-2018.- 204 s.

13. Крымский, А.Е. Низами и его изучение. В кн.: Выдающиеся русские ученые и писатели о Низами Гянджеви. –Баку: Язычы. С.237-304

## Azərbaycan dili təlimində Nizami yaradıcılığından istifadə imkanları

Ümumtəhsil məktəblərində Azərbaycan dili təlimi şagirdlərdə nitq mədəniyyəti ilə yanaşı, yüksək əxlaqi dəyərlər, bir fərd olaraq şəxsiyyəti səciyyələndirən mənəvi keyfiyyətlər formalaşdırmağa xidmət edir. Əgər mədəni nitq vərdişləri ədəbi dil normalarına dərindən yiyələnib praktikada tətbiq etmək yolu ilə qazanılırsa, əxlaqi keyfiyyətlər bədii və publisistik mətnlər, həmçinin ibrətamiz həyat hadisələri vasitəsilə aşılanır. Təhlil göstərir ki, bu iki istiqamət dil təlimində həmişə qarşılıqlı əlaqədə olmuş, biri digərini tamamlamışdır. Belə ki, məktəb kursu səviyyəsində dil qaydaları daha çox bədii nümunələrlə açıqlanmışsa, şagirdlərin bir şəxsiyyət kimi yetişməsinə xidmət edən bədii və publisistik mətnlər dil qaydalarının şüurlu mənimsənilməsinə zəmin yaratmışdır. Ona görə də Azərbaycan dilinə aid məktəb dərslikləri və didaktik materialları əhatə edən metodik vəsaitlərdə bədii söz sənətinin görkəmli simalarının əsərlərinə həmişə müraciət edilmiş, onların mövzu və ideya baxımından şagirdləri dərindən düşündürən kiçik mətn və hikmətli kəlamlarından seçmələrə geniş yer verilmişdir. Belə sənətkarlardan biri də xalqımızın dahi şairi Nizami Gəncəvidir ki, onun poetik fikir dünyasının Azərbaycan dili təlimində nə dərəcədə nəzərə alındığını araşdırıb potensial imkanlarını üzə çıxarmaq dərslərin səmərəli təşkili baxımından faydalı olardı.

Danılmaz faktdır ki, Nizami Gəncəvi təkcə Azərbaycan ədəbiyyatının deyil, bütün Şərq poeziyasının ən qüdrətli nümayəndələrindən biridir. Görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli şairi oxucularına bu şəkildə təqdim edir: “Onun kimi fəsih, rəvantəb və şirinzəban şair dünya üzünə az gəlibdir. Heç bir şair o lətafət və zəriflikdə söz deməyibdir” [14, s. 129]. Digər tanınmış alimimiz Məhəmmədəli Tərbiyət şairin yaradıcılığını təhlil edərək bu qənaətə gəlir: “Nizami Gəncəvi həm aşiqanə, həm də həmasi şeirdə misilsiz usta olmuş, döyüş meydanına, eləcə də şənlik məclisinə uyğun olan sözlər və ifadələr işlətməkdə; incə və zövqə yatan təşəbbüskar, bədii, mənalı, məzmunlu, gözəl və zövq verən istiarələr, təşbihlər yaratmaqda; hadisələri, eləcə də təbiət mənzərələrini öz incəlikləri ilə təsvir etməkdə həddən artıq məharətli olmuşdur” [20, s. 260-261].

Şairin bütün yaradıcılığı ilə bağlı çoxsaylı məqalələrin və sanballı monoqrafiyanın müəllifi olan Y.E.Bertelsin fikrincə, Nizami yalnız dünya ədəbiyyatına ölməz əsərlər bəxş edən böyük şair deyildi, həm də insana alovlu sevgi ilə alışıb yanan böyük mütəfəkkir idi [21, s.56]. "Nizami yaradıcılığının öyrənilməsinin bəzi məsələləri" adlı məqaləsində isə yazırdı: "Nizami özünəqədərki nəsillər tərəfindən yaradılmış bütün mədəniyyət nailiyyətlərinə istinad edirdi. Lakin o bunları təkrarlamırdı, onun nəzərləri bütün əsrləri yararaq həmişə irəliyə can atırdı" [21, s.27]. Şairin poetik düşüncələrinin mayasında insansevərlik ideyasının durduğunu vurğulayan tədqiqatçının aşağıdakı fikirləri xüsusilə əhəmiyyətlidir:

"Nizami üçün insan – hər şeyin əsasıdır, insanın səadəti һər şeyi һəll edir. Mümkün qədər çox adamın səadətini təmin edən şey – yaxşılıq, cəmiyyətdə insanın yaşayışını dözülməz hala salan hər şey – yamanlıqdır. Nizaminin, demək olar ki, bütün əsərlərində hər bir zülmə qarşı qüvvətlə ifadə edilən mənfi münasibət də buradan meydana gəlir. Lakin bununla bərabər, Nizamidə һeç bir һalda "zülmə qarşı müqavimət göstərməmək" görünmür. Əksinə, zülm zorla aradan qaldırıla bilər və qaldırılmalıdır, insan öz һaqqını müdafiə etməlidir" [1, s.156].

Məhz insana sevgi, onun tərbiyəsi, gələcək taleyi, həyatda tutmalı olduğu mövqeyi, başqalarına münasibəti və s. kimi bəşəri problemləri özündə əhatəli əks etdirdiyi üçün böyük mütəfəkkirin əsərlərinə ümumtəhsil məktəbləri üçün Azərbaycan dili dərsliklərində daha çox yer ayrılmışdır. Bu yanaşma həm ənənəvi modeldə işlənilmiş dərsliklərdə, həm də şəxsiyyətyönümlü kimi səciyyələndirlən müasir dərsliklərdə özünü qabarıq şəkildə büruzə verir. Təhlil göstərir ki, tanınmış metodist və dilçi alimlərimizin uzun illər məktəblilərin istifadəsində olan ənənəvi dərsliklərində Nizaminin fikir dünyasına müraciəti dil qaydalarının nümunələrlə, praktik izahı ilə bağlıdır. Maraq doğurduğu üçün bunlardan bəziləri üzərində konkret dayanmaq istərdik.

Ə.Əfəndizadə və B.Əhmədovun birgə hazırladıqları 5-ci sinif üçün "Azərbaycan dili" dərsliyində linqvistik səciyyə daşıyan tapşırıqların məzmununda dahi sənətkarın kəlamlarından yetərincə istifadə edilmişdir. İlkin olaraq 45 saylı çalışmada "Leyli və Məcnun" poemasından "Baharin tərifi və Leylinin xurmalıq tamaşasina getməsi" hissəsindən aşağıdakı parça verilərək düzgün

tələffüz qaydalarını gözləməklə şeirin ifadəli oxunması tələb olunur:

Sərdi xalısını səhraya min gül,
Bəzədi torpağı susənlə sünbül.
Ağacda qonçalar baxdı göz-gözə,
Bənzədi qayğısız, gülər bir üzə.
Qırmızı lalədən, sarı çiçəkdən,
Təbiət bir bayraq qaldırdı bilsən.
Baxıb bostandakı, bağdakı hüsnə,
Bülbül rübabını basdı köksünə.
Üstünə şeh düşmüş yaşıllıqlar da,
Zümrüdə bənzərdi o ilk baharda.
Çəmənlər başına bürümüşdü şal,
Lalənin yarpağı olmuşdu xal-xal.
Hələ, nəzər yetir bənövşələrə,
Zülfünü darayıb tökmüşdü yerə.
Güllər ipək geyib bəzənən zaman ,
Külək yapışmışdı sırğalarından.
Ətrinin ağzını açdıqca sünbül,
Baxıb əl verirdi ona qızılgül [3, s. 17].

Tapşırıqda bəzi misraların qarşısında deyilişinə görə fərqlənən sözlərin (məsələn: [süsənnən], [sümbül], [ağaşda], [təbiyət], [üsdünə] və s.) tərkibindəki müvafiq səslərin şərti işarələri göstərilmişdir ki, bu da növbəti dərslərdə izah edilməsi nəzərdə tutulan tələffüz qaydalarına hazırlıq məqsədi daşıyır.
Çalışma 82-də "Oğul, sözlərimə yaxşı qulaq as, //Ata nəsihəti faydasız olmaz" beytindəki qafiyələnən sözlərin son samitlərinin tələffüzünə diqqət yetirmək və hansı fonetik hadisəyə uyğun gəldiyini izah etmək tapşırılır [3, s. 27].
Çalışma 134-də yazılışı və deyilişi fərqli sözlər üzərində iş aparmaq və səs dəyişməsinin səbəbini müəyyənləşdirmək üçün gətirilən nümunələr içərisində bu beyt də getmişdir:

Yamanlıq etməkdən uzaq ol, uzaq,
Pisliyin əvəzi pislik olacaq [3, s. 43]

Çalışma 196-da isə şairin "İskəndərnamə" poemasından aşağıdakı parça verilməklə qara hərflərlə fərqləndirilmiş sözlərin omonim, yazı xətti ilə

verilənlərin isə çoxmənalı olduğunu müəyyənləşdirib əsaslandırmaq tələb edilir:

*İpək* yetirməkdə iki *cins* **qurd** var,
Ziddir, od-su kimi həmişə onlar
Biri baramanı toxuyur bir-bir,
O biri karvanla ipək məhv edir.
Pətəkdə iki çür arı var müdam,
Neçə pərvanəni tələf edər **şam**.
Biri yem daşıyır hey axşam-səhər,
O biri gizlicə o yemdən yeyər.
Bal verən arının bircəsi, yəqin,
Yüzündən yaxşıdır **bal** yeyənlərin. [3, s. 64]

Çalışma 264-də -lıq şəkilçisi ilə düzəlmiş sözləri seçib onların necə, hansı nitq hissələrindən əmələ gəldiyi tələb olunur və bu zaman yalnız şairin yaradıcılığından aşağıdakı nümunələr gətirilir:

Zəhmətdən fəryad etmə, qoy olsun səndə qərar,
Zəhmətin axırında rahatlıq var, şadlıq var.
Yamanlıq etməkdən uzaq ol, uzaq,
Pisliyin əvəzi pislik olacaq.
Quyuya salsan da yaxşılığı bil,
Yenə qayıdacaq, o itən deyil.
Mərd olmaq yaxşıdır dünyada hər an,
Mərdlik ilə çatar arzuya insan.
Canın sağ olduqca, bu dünyada bil,
Vicud çətinlikdən yorulan deyil. [3, s. 89]

Təbii ki, bu misralar həm də tərbiyəvi əhəmiyyət daşımaqla şagirdlərdə əxlaqi dəyərlər formalaşdırmaq məqsədilə seçilib. Gətirilən nümunələrdə zəhmətsevərlik, yaxşılıq, mərdlik, sağlamlıq kimi aktuallığını itirməyən ideyalar təbliğ olunur.

Çalışma 278-də yenə də yalnız böyük mütəfəkkirin yaradıcılığına müraciət olunmaqla şagirdlərdən düzəltmə sözləri seçib yazmaq tələb edilir:

Ovçu səbrsizlik göstərsə əgər,
Ox dəyməz nişana, ordan yan gedər.

Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.
Dünyada qafil olmaq ağıllılıqdan deyil,
Qafillikdir həyatda dəliliyə bir dəlil.
Dərinlik, sonsuzluq varsa dünyada,
Arxların suyundan yaranmış o da.
Paxıllıq eyləsə dostuna bir kəs,
Onun yoldaşlığı toza da dəyməz [3, s. 93].

Çalışma 283-də müərəkkəb sözlərin seçilib yazılması məqsədilə şairin aşağıdakı beytləri gətirilir:

Köməyi dəyməyən şirindil insan,
Yaxşıdır acıdil əl tutanlardan.
Xoşdil olmalıdır mehribanlıq, bil,
Nə çıxar mehriban olsa acıdil.
Çalış ədəbli ol hər sözündə sən,
Ədəblə danışsın səni dinləyən [3, s. 96].

Bu misralarda başqaları ilə mehriban münasibət, ədəbli danışmaq kimi müsbət keyfiyyətlərin təbliği uşaqlarda düzgün ünsiyyət bacarıqlarının tərbiyəsinə xidmət edir.

Çalışma 299-da qara hərflərlə verilmiş sözlərin sinonim qarşılığını tapmaq tələb olunsa da, burada aşılanan yüksək əxlaqi dəyərlər daha önəmli rol oynayır:

**Ucalmaq** istəsən, bir kamala çat,
Kamala **ehtiram** göstərir həyat.
Vaxtı **boş** keçirmə, qələm al ələ,
Zəhmət **çək** dünyada, bilik **kəsb elə.** (3, s. 100)

Göründüyü kimi, həyatda ucalmaq, hörmət qazanmaq üçün kamala çatmaq ideyası önə çəkilir: ağıllı, kamallı olmaq üçün isə vaxtı boş keçirmədən zəhmət çəkib bilik əldə etmək lazımdır. Şairin aşılamaq istədiyi bu fikirlərdən istifadə etməklə dərslik müəllifləri şagirdləri təlimdə və həyatda çalışqan, əzmkar, məqsədyönlü olmağa yönəldirlər.

Çalışma 628-də vurğuya görə fərqlənən sözləri müəyyənləşdirmək

məqsədilə verilən nümunələr sırasında şairin 2 beyti də verilmişdir:

Onun qapısında çoxlu mal-qara,
**Kimsə** çatmamışdı bu qədər vara.
Kimsə bilmirdi heç onun halını,
Deyə bilmədilər can məlalını [3, s. 228].

Beləliklə, ilk növbədə qrammatik qaydaların mənimsədilməsi məqsədilə verilmiş bu nümunələrin çoxunda təlim və təbiyənin qarşılıqlı əlaqəsi vəhdətdə götürülmüşdür.

Bu yanaşma növbəti sinif dərsliklərində bir qədər zəif şəkildə olsa da, saxlanılmışdır. Belə ki, 6-7-ci siniflər üçün dərslikdəki 125, 145, 147, 155 nömrəli çalışmalarda "Yeddi gözəl" poemasındakı "Xeyir və Şər" hekayəsindən parçalar verilməklə üzərində qrammatik iş aparılması tapşırılmışdır.

"Əlimə bir açar verib ki, dövlət, // Daşdan da gövhərlər çıxarram, əlbət" misralarından modal sözlərin orfoqrafiyası və onlarda durğu işarələrinin işlənilməsi qaydasının şərhində istifadə olunmuşdur (2, s. 237). Keçilmişlərin təkrarı və sistemləşdirilməsi məqsədilə verilmiş bir çalışmada isə şairə məxsus aşağıdakı misralarda sifət və zərfləri seçib xüsusiyyətlərinin izah edilməsi tapşırılır:

"Səadət kamalla yetişir başa,
Xalqa hörmət elə, ədəblə yaşa.
Öz adına layiq işlər gör ki, sən
Axırda utanma xəcalətindən" [2, s. 248]

8-9-cu siniflər üçün dərslikdə yalnız bir dəfə şairin yaradıcılığına istinad olunmuşdur ki, bu zaman baş və budaq cümlələrin müəyyənləşdirilməsi, budaq cümlədə bağlayıcı sözün, baş cümlədə isə qarşılıq sözün tapılması ilə bağlı tapşırıqda bu hikmətli fikirlər nümunə olaraq göstərilmişdir:

Kim ki ad qoymuşdur qoca dünyada,
Onu öz dostları vermişdir bada.
Ədalət mülkündən kim üz çevirsə,
Ona aqil deməz ağıllı kimsə. [13, s. 224]

Artıq istifadədən çıxarılmış Azərbaycan dili dərsliklərində şagirdlərdə nitq mədəniyyətinin formalaşdırılması üçün ən zəruri linqvistik qaydalar üzərində işlər başlıca yer tuturdusa, yeni nəsil dərsliklərində nitqin dinləyib-anlama,

danışma, oxu və yazı üzrə işlərə daha çox diqqət yetirilmiş və bu zaman dil qaydaları bir qədər arxa plana çəkilərək yardımçı vasitə rolunda götürülmüşdür. Elə buna görə də ənənəvi dərsliklərdə dilin sistematik kursunu özündə ehtiva edən dil qaydalarının şərhi verildikdən sonra onların nümunələrlə izahı məqsədilə tərtib olunmuş tapşırıqlar bəzən rabitəli mətn nümunələri, daha çox isə bir-biri ilə mövzu baxımından bağlı olmayan ayrı-ayrı cümlələr əsasında qurulmuşdur. Yeni nəsil dərsliklərində şagirdin bir şəxsiyyət kimi formalaşması önə çəkildiyindən bütün mövzular bir qayda olaraq müxtəlif mətn nümunələri üzərində məzmun, struktur, lüğət üzrə aparılan işlər şəklində başlanılmaqla dil qaydalarının şərhi və onların praktik əsasda mənimsədilməsinə yardım göstərən tapşırıqlarla yekunlaşdırılmışdır. Məqsəd eyni olsa da, yanaşma müxtəlifliyi həmin dərslikləri fərqləndirən başlıca fakt kimi ortaya çıxır. Odur ki hazırda istifadədə olan dərsliklərdə həm oxu mətnlərinin, həm də tapşırıqların tərtibində dahi Nizaminin əsərlərindən daha çox faydalanılmışdır. Bunu ümumtəhsil məktəblərinin ibtidai, orta və tam orta olmaq üzrə hər üç səviyyəsinə aid Azərbaycan dili dərsliklərində əyani şəkildə görmək mümkündür. Fikrimizi konkret faktlarla açıqlamaq istərdik.

2-ci sinif Azərbaycan dili dərsliyində şairin yaradıcılığına yalnız bir dəfə müraciət edilmiş və onun aşağıdakı misralar üzərində düşünərək "Üç qardaş" nağılındakı əsas fikirlə əlaqələndirilməsi tapşırılır:

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı. [19, s. 27]

3-cü sinif dərsliyində isə ayrıca mövzular kimi "Atanın oğluna nəsihəti"ndən bir parça, "Fitnə" və "Kərpickəsən qocanın hekayəti"nin nəsrlə işlənilmiş variantları verilmiş, onların məzmunu, ideyası, obrazlar aləmi, tərkibindəki bəzi sözlərin mənası, cümlələrin quruluşu ilə bağlı tapşırıqlar tərtib olunmuşdur [8, s. 47, 86-87, 160-161]. Maraqlı metodik yanaşmalardan biri də S.Rüstəmin tərcüməsində getmiş aşağıdakı parçanın "Kərpickəsən qocanın hekayəti"nin hansı hissəsi ilə əlaqəli olduğunun şagirdlər tərəfindən dəqiqləşdirilməsidir:

Onunçün öyrətdim ki, əlimi bu sənətə,
Bir gün sənə əl açıb düşməyim xəcalətə.
Mən bir kəsə deyiləm xəzinədən ötrü möhtac,

Əlimin zəhmətiylə toxdur gözüm, deyil ac.
Məni bu ruzi üçün bəsdir danladın, bəsdir,
Düşünsən, bilərsən ki, dediklərin əbəsdir [8, s. 161].

Başqa bir məqamda qrammatik tapşırıq kimi şairə məxsus aşağıdakı beytin tamamlanması tapşırılır:

Bir elmi öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil ... [8, s. 156].

Bundan əlavə, "Gəncə" mətni üzərində iş zamanı N.Gəncəvi ilə bağlı müstəqil araşdırma aparılması tələb olunur ki, bu da şairin həyatı haqqında şagirdlərin daha ətraflı biliklər əldə etməsinə imkan yaradır [8, s. 195].

4-cü sinif dərsliyinin "Niyə belə deyirik" bölümündə şairin "Az danışmağın gözəlliyi" başlıqlı şeiri verilməklə mədəni nitqə yiyələnmək üçün ilk növbədə nələrə diqqət yetirilməsi üzərində dayanılır. Təəssüf ki, dərslik müəllifləri şeirdə bir yanlışlığa yol vermişlər. Belə ki S.Vurğunun tərcüməsində "Bir inci saflığı varsa da suda, // Artıq içiləndə dərd verir su da" şəklində verilmiş beyt [17, s. 52] nədənsə "Bir inci saflığı varsa da suda, // Artıq içiləndə dərd verir o da" variantında getmişdir [9, s. 39]. Müşahidələrimiz göstərir ki, şagirdlər "suda" və "su da" söz formaları üzərində düşünməklə birinci məqamda da morfeminin hal şəkilçisi, ikinci məqamda isə ayrı yazılmasına görə köməkçi nitq hissəsinə aid söz olduğunu müəyyənləşdirirlər. Aydındır ki, bu müqayisəli yanaşma şagirdləri müstəqil düşünüb mühakimə yürütməyə, dil faktları ilə bağlı sadə araşdırmalar aparmağa yönəldir.

Fikrimizcə, "Əxlaqi dəyərlər" bölməsində də böyük mütəfəkkirə aid fikirlərə yer verilməsi dərsliyi həm məzmunca zənginləşdirər, həm də şairin yaradıcılığına şagird marağını xeyli artırar.

İbtidai sinif Azərbaycan dili dərsliklərində Nizami yaradıcılığından istifadə üsulları yuxarı sinif dərsliklərində də, demək olar ki, eyni qaydada davam etdirilir. 5-ci sinif dərsliyində "Qanadlı misralar" mətnində nitqin gözəl və təsirli alınmasında sözdən qənaətlə istifadənin rolu ilə bağlı şairin aşağıdakı misraları verilir:

Sözündə çoxluğa qoyma yer olsun,
Birin yüz olmasın, yüzün bir olsun" [10, s. 50].

Həmçinin dil qaydalarının mənimsədilməsi ilə bağlı nümunələr sırasında

böyük hikmət sahibinə məxsus misralara da rast gəlinir. Məsələn, düzəltmə sözləri tapmaq üçün "Paxıllıq eyləsə dostuna hər kəs, // Onun yoldaşlığı toza da dəyməz" [10, s. 143], mürəkkəb sözləri seçib hansı üsulla yarandığını və hansı nitq hissəsinə aid olduğunu müəyyən etmək üçün isə "Köməyi dəyməyən şirindil insan // Yaxşıdır acıdil əl tutanlardan" [10, s. 166] aforistik kəlamları verilmişdir.

Eyni yanaşmanı 6-cı sinif dərsliyində də görürük. Belə ki, əvəzliklərin mənaca və quruluşca növlərini müəyyənləşdirmək üçün şairin:

"O böyük, ağıllı, ayıq hökmdar
Öz şahlıq taxtında tutarkən qərar
Əmr etdi, verildi belə bir fərman:
"Alimdir gözümdə ən əziz insan.
Elmlə, hünərlə! Başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz" [11, s. 103] misralarından, şərt şəklində olan feilləri tapıb hansı şəxsə aid olduğunu söyləmək üçün isə:

"Bacarsan, hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir əmək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər" [11, s. 133],

misralarından istifadə olunmuşdur. Sonuncu nümunənin mətnində bir yanlışlığa yol verildiyi diqqəti çəkir. Belə ki böyük şairimiz S.Vurğunun tərcüməsindən aydın olur ki, ikinci misrada "əmək" əvəzinə, "kömək" sözü yazılmalı idi [17, s. 61]. Təkcə bu fakt deyil, gətirilən parçanın məzmunundan da məlum olur ki, dahi Nizami insanın insana əl tutmasından, yardım, kömək etməsindən bəhs edir.

Digər bir məqamda isə şairə məxsus aşağıdakı hikmətli kəlamlarla qədim Şərq rəvayəti əsasında işlənilmiş "Mükəmməl zərbə" mətni arasındakı ideya yaxınlığının müəyyən edilməsi tapşırılır:

Bir elm öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan [10, s. 148].

Sözsüz, bu bir tərəfdən qüdrətli söz ustadının hikmətli deyimlərinin şagird

yaddaşına köçürülərək gələcək fəaliyyətlərinə işıq salmasına imkan açırsa, digər tərəfdən təlim prosesinə şüurlu yanaşmalarına, fakt və hadisələri müqayisə edərək dərindən dərk etmələrinə şərait yaradır.

7-ci sinif dərsliyində yalnız 2 tapşırığın tərkibində Nizami yaradıcılığından nümunələr gətirilmişdir. Bunlardan biri feili bağlama şəkilçilərinin verilmiş nümunələrə əsasən müəyyənləşdirlməsi ilə bağlıdır. Şagird tapşırığın şərtinə əsasən "Bir elmi öyrənmək istədikdə sən // Çalış ki, hər şeyi kamil biləsən." Beytində altından xətt çəkilmiş sözün tərkibindəki -dikdə hissəciyinin feili bağlama şəkilçisi olduğunu üzə çıxarır. Fikrimizcə, bu tapşırığın şərti şagirdləri yanlış nəticəyə gəlməyə yönəldir. Belə ki "Feili bağlama şəkilçisini müəyyən edərək həmin şəkilçilərlə yeni sözlər yaradın" fikri [12, s. 71] elmi baxımdan səhvdir və şagirdlərin qrammatik şəkilçilər haqqında qazandıqları biliklərə ziddir. Bilirik ki, feil bağlama şəkilçiləri qrammatik şəkilçilərə aid olduğundan yeni söz yaratmaq imkanında deyillər. Ona görə də tapşırığın şərti "həmin şəkilçiləri digər feillərə artırıb cümlədə işlədin" məzmununda ifadə olunmalıdır.

Digər tapşırıqda isə "Xosrov və Şirin" poemasından Şirini səciyyələndirən "Sanki bir pəridir, pəri yox, bir ay, // Qəhrəman bir qızdır, başda kəlağay" [12, s. 141] beyti verilərək köməkçi nitq hissələrinə aid sözlərin seçilib cədvəldə yerləşdirilməsi tapşırılır.

8-ci sinif dərsliyində həm oxu mətnlərinin, həm də qrammatik tapşırıqların işlənilməsində Nizami yaradıcılığından bəhrələnilmişdir. Dərslik müəllifləri doğru sözün qüdrəti ilə bağlı şagirdlərə aşılamaq istədikləri fikirlərini şairin "Sirlər xəzinəsi" poemasından "Zalım şahla düz danışan qocanın hekayəti" ilə çatdırmaq istəmiş, məzmunu və ideyasından irəli gələn milli və bəşəri dəyərlər ətrafında müzakirə aparılması ilə birgə, mətndə işlənilmiş bəzi söz və frazeoloji birləşmələrin ifadə etdikləri mənaların dəqiqləşdirlməsi, fərqləndirilmiş bəzi cümlələrdə mübtəda və xəbərin tapılması kimi linqvistik tapşırıqlar nəzərdə tutulmuşdur [4, s. 65-66]. Bundan əlavə, sırf linqvistik mahiyyət daşıyan ayrı-ayrı tapşırıqlarda şairin əsərlərindən seçilmiş beytlərdən istifadə olunmuşdur. Sözlərin hallanma səbəbini izah etmək məqsədilə "Dünya... xoşbəxtdir yalnız o kəslər//Ki, öz çörəyi... dostlarla yeyər" [4, s. 41],

tamamlığın müxtəlif nitq hissələri ilə ifadə olunmasını bildirmək üçün "Yaxşılıq etməsən əgər insana,//Böyüklük şərəfi verilməz sana" [4, s. 67], sözlə sual arasında uyğunluğu müəyyənləşdirmək üçün "Səadət kamalla yetişər başa // Xalqa hörmət elə, ədəblə yaşa" [4, s. 79], tərzi-hərəkət zərfliyinin ifadə vasitələrini tapmaq üçün "Dünyanın işini yaxşı düşün sən // Nə əksən, onu da sən biçəcəksən" [4, s. 82], modal sözlərdə durğu işarələrinin düzgün qoyulması üçün isə "Cütçü saf tum səpsə torpağa əgər, // Şübhəsiz, torpaqdan saf tum göyərər" və "Nalayiq danışan şəxslərə, əlbət, Hər zaman sükutla müqabilə et" [4, s. 138] beytləri seçilmişdir. Məqsəd və intonasiyaya görə cümlənin növünü və hansı durğu işarələrinin işlənməsini müəyyənləşdirmək məqsədilə tərtib edilmiş digər tapşırığa isə şairdən 3 nümunə daxil edilmişdir:

1. Hərçəndi sənətin çox rütbəsi var,
Həyata faydalı bir elmi axtar.
2. Düşmənlik silinsin, dostluq var olsun!
3. Dünyada fateh olmaz zülmkarlıq, rəzalət,
Yer üzünün fatehi ədalətdir, ədalət! [4, s. 146]

Başqa bir tapşırıq isə yalnız N.Gəncəvinin əsərlərindən götürülmüş aşağıdakı beytlər əsasında tərtib olunmuşdur:

1. Ləl çox gec doğur, ömrü çox olur,
Lalə tez göyərir, tez də yox olur.
2. Meyvə kal olduqda böyüyər, artar,
Yetişən zamanda yerə düşər bar.
3. Əlliyə çatınca dəyişər əhval,
Dəyişər yaşayış, dəyişər hər hal.
4. Bir gün bar götürər ağac əkənlər,
Xəznə apararlar əmək çəkənlər [4, s. 85].

Təəssüf ki, sonuncu tapşırığın da şərti düzgün ifadə olunmadığından təlim prosesində müəyyən çaşqınlıq yaradır. Belə ki cümlələrdə nə zaman? sualına cavab verən sözləri seçib ifadə vasitələrinin müəyyən edilməsi tapşırılır. Metodikada, bir qayda olaraq, "cümlə üzvlərinin ifadə vasitələri" anlayışı işlədilir. Burada zaman zərfliyindən bəhs edildiyindən müəlliflər, görünür, "nə zaman?"sualına cavab verən cümlə üzvünü müəyyənləşdirib onun nə ilə ifadə olunduğunu demək istəmişlər. Verilmiş beytlərdən də göründüyü

kimi, buradakı zaman zərflikləri həm zərf (gec), həm feili bağlama (kal olduqda), həm feili bağlama tərkibi (əlliyə çatınca), həm də I növ təyini söz birləşmələri (bir gün, yetişən zamanda) ilə ifadə olunub.

Daha bir məqamda, daha konkret desək, xitabın cümlə daxilində yeri ilə bağlı qaydanın izahında "Oğul, sözlərimə yaxşı qulaq as, // Ata nəsihəti faydasız olmaz." beyti nümunə kimi verilmişdir [4, s. 134].

Bu yanaşma 9-cu sinif dərsliyində də gözlənilmişdir. Mətn kimi "Oğlum Məhəmmədə nəsihət" ayrıca verilir, onun məzmun və ideyası, lüğət tərkibi ilə bağlı ətraflı iş aparılması nəzərdə tutulur [5, s. 112-114]. Bir çox çalışmaların tərkibində isə mübtədaları seçib ifadə vasitələrini müəyyənləşdirmək üçün "İnsan bu dünyada daimi yaşar, // Yurdunda bir övlad qalsa yadigar", "Sözün də su kimi lətafəti var, // Hər sözü az demək daha xoş olar" [5, s. 14], vergülün qoyulma səbəbini izah etmək üçün "Çalış öz xalqının işinə yara, // Geysin əməlindən dünya zərxara" [5, s. 116], *bunun üçün, ona görə, ona görə də, onun üçün, hərçənd, çünki* bağlayıcılarından daha uyğun olanının artırılması üçün "(...) öyrətdim əlimi bu sənətə // Bir gün sənə əl açıb düşməyim xəcalətə" [5, s. 124], *əgər, madam, hərgah, indi ki, bir halda ki* bağlayıcılarını cümlələrə düzgün yerləşdirilməsi üçün " sülh ilə göyərər dilək, // Döyüşdə at çapmaq daha nə demək?" [5, s. 133] beytlərindən istifadə olunmuşdur. Bundan savayı, hansı cümləyə *əgər* bağlayıcısını artırmağın mümkün olduğunu üzə çıxarmaq məqsədilə gətirilən nümunələr sırasında şairin "Bir söz ki qaşlara düyün vuracaq, // Gözəl söz olsa da, söyləmə, burax" [5, s. 141], tabeli mürəkkəb cümlələrdə bağlayıcı sözlərin seçilməsi məqsədilə "Ədalət mülkündən kim üz çevirsə, // Ona aqil deməz ağıllı kimsə" [5, s. 147] və nəhayət, sintaktik təhlillə bağlı "Nə qədər bu torpaq, hava, od, su var // Ol qəm aləmindən hər zaman kənar", "Kim ki xalqı bir gecə əqli ilə şad etdi, // O demək öz sabahkı evini abad etdi" [5, s. 149] beytləri də təlim materialı olaraq verilmişdir.

Dil qaydalarının şərtinə gəlincə, tabeli müərəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələr şərh olunarkən şairin "İstəyə gənclikdə mümkündür çatmaq, // Qocalıq gəldimi, axtar bir bucaq" [5, s. 124] beyti, *ki* ədatı ilə işlənən sual əvəzliklərinin bağlayıcı söz hesab edilməsi ilə bağlı məlumatda isə "Kimin ki ixtiyarı sədaqətə bağlıdır, // Taleyinin axırı səadətə bağlıdır"

Beyti [5, s. 147] izahedici nümunə kimi qeyd edilmişdir.

Nizaminin söz dünyasına müraciət edilməsi 10-cu sinif dərsliyində eyni qaydada davam etdirilir. Burada "Hər şey su ilə başladı" mətni ilə bağlı qoyulmuş "Hansı hikmətli fikir mətnlə səsləşir?" sualı ilə bağlı deyimlər arasında şairə məxsus "Xəzinə kəşf etmək istəsən əgər, Hər bir çətinliyə tab et, sinə gər" beyti də verilmişdir [6, s. 29]. Dərslik müəlliflərinin dil qaydalarını dərindən mənimsətmək məqsədilə verdikləri "Hansı cümlələrdə fonetik norma pozulmuşdur? Onları orfoqrafik və orfoepik normaların pozulması hallarına görə qruplaşdırın" tapşırığına aid nümunələr içərisində "Bir elmi öyrənmək istədikdə sən // Çalış ki, hər şeyi kamil biləsən" kəlamı getmişdir [6, s. 50]. "Qrammatik normanın pozulduğu halları müəyyənləşdirin, onları aşağıdakı cədvələ uyğun qruplaşdırın" şərtilə verilmiş tapşırıqda isə bilik qazanmağın faydası ilə bağlı şairdən aşağıdakı hikmətli fikirlər gətirilir:

"Bilik öyrənməyi ar bilən hər kəs
Dünyada mərifət qazana bilməz [6, s. 51].

Bədii üslubu səciyyələndirmək haqqında nəzəri xarakterli məlumatda isə izahedici nümunələr sırasında şairin "Dəmiri aynatək parladan insan // Pası silməlidir öz vicdanından" beyti də var [6, s. 57].

Söhrab Tahirin "Birlik" şeirinin ideyası ilə səsləşən fikirlərin müəyyənləşdirilməsi məqsədilə gətirilən nümunələr sırasında şairin aşağıdakı misraları da əksini tapır:

Bir olsa yoldaşın, dostun əməli,
Daşdan su çıxardar onların əli.
Nifaq olan yerdə fəlakət də var,
Səadət günəşi birlikdən doğar [6, s. 87].

"*Məhəbbət, eşq, sevgi* sözlərini uyğun cümlələrə yerləşdirib məna fərqlərini izah edin" tapşırığı ilə bağlı şairə məxsus bu əvəzsiz misralar da göstərilib:

........... mehrabı uca göylərin,
..........., ey dünya, nədir dəyərin?! [6, s. 98]

Aydındır ki, beytdə yürüdülən fikri düzgün müəyyənləşdirmək üçün şagirdlər "eşq" sözünü birinci misrada "eşqdir" xəbər formasında, ikinci misrada ondan düzəlmiş "eşqsiz" sifət formasında işlətməli olacaqlar. Ona görə

də müəllim tapşırığın yerinə yetirilməsindən öncə şagirdlərə müvafiq istiqamətverici yol göstərməlidir.

11-ci sinif dərsliyində şairin "Yeddi gözəl" poemasından "Bəhram və Fitnə" başlığı ilə bir hissə verilərək onun oxunması, məzmununu saxlamaqla nəsr şəklində danışılması, həmçinin "Deyə bilmədiyimiz sözlər..." mətni ilə müqayisə edilməsi tapşırılır [7, s. 120].

Təhlil göstərir ki, müəlliflər bəzən tapşırıqların şərtinin işlənilməsində elmi gerçəkliyi nəzərə almamışlar. Məsələ burasındadır ki, N.Gəncəvi öz əsərlərini farsca yazmış və dərslikdə istifadə edilən nümunələr XX yüzilliyin ortalarında dilimizə çevrilmişdir. Ona görə də şagirdlərə "N.Gəncəvinin və S.Ə.Şirvaninin əsərlərinin dilini müqayisə edin. Hansı fərqləri gördünüz?" tapşırığının verilməsi [7, s. 124] şagirdlərdə yanlış təsəvvür yarada bilər.

Başqa bir məqamda "Bərdə" haqqında tarixi məlumatlardan sonra isə "Şərəfnamə"də "Bərdənin tərifi" parçası verilir [7, s. 153]. N.Gəncəvinin Bərdə haqqındakı fikirləri ilə Y.Həməvinin fikirlərini müqayisə edərək onlara tarixi dövr prizmasından münasibət bildirilməsi, mətnlərdəki ziddiyyət, əkslik yaradan məqamların tapılması tapşırılır ki, bu da şagirdləri tədqiqat aparmağa sövq edir.

Göründüyü kimi, Azərbaycan dili dərsliklərində dahi sənətkarın hikmət dünyasına yetərincə yer ayrılmışdır. Lakin gələcək nəşrlərdə bir məqama ayrıca diqqət yetirilməsini məqsədəuyğun bilirik. Təhlil göstərir ki, bəzi dərsliklərin ayrı-ayrı bölmələrində epiqraf kimi görkəmli şəxslərə aid hikmətli deyimlər, aforizmlərdən istifadə olunmuşdur. Fikrimizcə, bu, təqdirəlayiq hal olub, konkret bölmənin hansı ideyaları şagirdlərə aşılamaq istəyini ifadə edir. Ancaq həmin epiqraflar sırasında xalqımızın dünya mədəniyyətinə bəxş etdiyi ən qüdrətli mütəfəkkiri kimi Nizami Gəncəviyə məxsus hikmətli deyimlərdən istifadə olunmaması yalnız təəccüb və təəssüf doğurur. Nizami elə bir dühadır ki, onun fikir və mülahizələri müxtəlif sahələri əhatə etməklə yanaşı, həmişə aktualdır. Ona görə də şairə məxsus fikirlərin şagirdlər arasında təbliği üçün bu metodik məqamdan da istifadə səmərəli olardı.

Beləliklə, Azərbaycan dilinə aid dərsliklərin problemlə əlaqədar təhlili göstərir ki, Nizami yaradıcılığından istifadə imkanları geniş və rəngarəngdir. Lakin təlim prosesində dərsliklərin verdiyi bu imkanlarla kifayətlənmək

olmaz. Odur ki müasir metodik yanaşmalardan çıxış edərək dərslərdə əlavə vasitələrdən istifadə olunmasını təklif edirik.

Bunlardan birincisi fənn müəllimlərinin müstəqil yaradıcı fəaliyyəti ilə bağlıdır. Onlar mövcud dərsliklərə uyğun şəkildə şagirdlərin dil qaydalarını hansı səviyyədə mənimsədiklərini yoxlamaq məqsədilə şairin əsərlərindən nümunələr seçib həm bütün siniflə, həm də fərdlərlə linqvistik təhlil apara bilərlər ki, bu, məktəb təcrübəsində ən geniş yayılmış üsullardandır.

Digər bir yanaşma üsulu ayrı-ayrı mövzularda aşılanan ideyaların düzgün müəyyənləşdirlməsi məqsədilə dərslərin motivasiya mərhələsində şagirdlərə təqdim edilən dinləmə mətnləridir. Keçilən mövzuları qruplaşdırdıqda onların vətəndaşlıq, azadsevərlik, hümanizm, ərtraf aləmə və təbiətə qayğı, sülhpərvərlik və s. bəşəri dəyərlər aşıladığı üzə çıxır. Nizami Gəncəvi yaradıcılığını da səciyyələndirən başlıca keyfiyyət məhz bu bəşəri dəyərlərin cəmiyyətdə bərqərar olması ilə bağlıdır. Bu isə fənn müəlliminə imkan verir ki, ayrı-ayrı mövzuların tədrisində dinləmə mətni kimi Nizami yaradıcılığından seçilmiş aşağıdakı parçalardan faydalansın:

Dostluqdan bəhs edən dinləmə mətni kimi:

İnan, nemət sayılmaz cahan səltənətləri,
Min qızılın bir dostdan üstün deyil dəyəri.
Yer üzündə hər kəsin dosta ehtiyacı var,
İllah, elə dosta ki, dar gündə dada çatar [15, s. 68].

Başqalarına pislik etməyin zərərləri ilə bağlı dinləmə mətni kimi:

Bəla görəcəкsən pisliк etdinsə,
Əvəz verəcəкdir dünya hər кəsə.
Ədalət aynası - böyüк asiman,
Səndən gördüyünü əкs edər hər an.
Bəlli bir şeydir кi, pisliк edənlər,
Öz işindən özü çəкəcəк zərər.
Eşitməmişsənmi bu məşhur sözü:
“Hər kim quyu qazsa, düşəcək özü.” [16, s. 360-361]

Yaradıcı qüvvəyə inam hissi oyatmaqla bağlı dinləmə mətni kimi:

Toxum göyərsə də torpaqdan, sudan,
Bu sirri axtarıb tapmamış insan.

Toxumu bəsləyən torpaqdır ancaq.
Ona şəkil də mi verir bu torpaq?
Nizamsız olsaydı yeraltı bir an,
Salxım olardımı, deyin, toxumdan?
Tutaq, salxım olur bir dənin sonu,
Şəkil qalıbına kim salır onu?
Fikri dolaşdıran bu pərdə də bir,
Halları dəyişən səbəb gizlənir.
O səbəb nədirsə sənin yanında,
Aç, söylə, gizləmə onu canında.
Bir səbəb gördükdə arif olanlar
Anlar ki, yaratmış onu səbəbkar. [17, s. 32]

Şöhrətpərəst insanların tənqidi ilə bağlı dinləmə mətni kimi:

İlan tək dikbaşlı gəzmə, ey insan!
Aşacaq dünyanın seli başından.
Yeddi başın olsa, əjdəhalar tək,
Onun yeddisi də yerə düşəcək.
Çox da yüksəkliyə ucalma ki, sən
Torpağa düşəndə inciməyəsən.
Nə qədər alçaqdan yıxılsa adam,
O qədər ağrısı az olur müdam. [17, s. 56]

Zülmə qarşı mübarizəyə çağırışla bağlı dinləmə mətni kimi:

Neçin alçaqlara boyun əyirsən?
Oyuncaq olursan namərdlərə sən?
Nə üçün boynuna min yük alırsan?
Zalımın zülmündən razı qalırsan?
Qəlbi yumşaqlığı bir dəfə unut,
Çiynini dağ kimi ucalıqda tut!
Sən də süsən kimi ipəkdən olsan,
Səni saf torpaq da yaralar, inan!
Zəlillik ürəyə ağrılar salar,
Zülmə dözənlərin sonu olar xar.
Tikan tək çiynində tut yarpağını,

O vaxt qucaqlarsan gül budağını.
İnsanı sarsıdar göz yaşı, nalə,
Ah çəkib, of deyən yetməz kəmalə! [17, s. 58]

Xalqa sədaqətlə xidmət etməklə bağlı dinləmə mətni:

Bir daş deyilsənsə, donub qalma sən,
Çolaq deyilsənsə, diribaş tərpən!
Keçənin üstünə vur ayağını,
Təmizlə keçənin toz-torpağını.
Daş-kəsək olsa da, keçdiyin bu yol,
Rəqsində oynağan fələk kimi ol!
Bağışla atını, sən get piyada,
Sillələr yesən də, mərd ol dünyada.
Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir kömək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər. [17, s. 60-61]

Bilik qazanmaqla bağlı dinləmə mətni kimi:

Bilikli adamlar uzağı görər,
Cahilin zəhməti hədərdir, hədər.
İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı.
Kim ki, yetişmədi ağıldan bara,
Oxşar insansifət əjdahalara.
İnan, zirək adam mələkdir, mələk,
Zirəklik gözəldir, əcəbdir gerçək. [18, s. 41]

Şübhəsiz, bu tipli dinləmə mətnlərini xeyli artırmaq mümkündür. Fənn müəllimləri belə mətnləri sinif səviyyəsinə uyğun lazımi məqamda təqdim etməyi bacarmalıdırlar. Böyük mütəfəkkirin hikmət dolu bu kəlamlarını dinləyən şagirdlər təbliğ olunan dəyərlərin əsl insan üçün nə dərəcədə əhəmiyyət kəsb etdiyini anlamaqla öz fəaliyyətlərini düzgün istiqamətdə qurmağa çalışırlar.

Digər bir vasitə yazı bacarıqlarının inkişaf etdirilməsi məqsədilə şairin əsərlərindən müəyyən seçmələr verməklə onların şagirdlər tərəfindən nəsrə

çevrilməsidir. Xüsusilə süjetli mətn parçaları bu işin səmərəli yerinə yetirilməsi üçün daha yararlıdır. Şagirdlərin yaradıcı təxəyyülündən istifadə etməklə bu işi bir qədər də təkmilləşdirmək mümkündür. Belə ki, şairin poemalarında, xüsusən "Sirlər xəzinəsi"ndə verilmiş bəzi hekayələrin əvvəlini oxuyub onların məzmunca tamamlanılması tapşırıla bilər. Qabaqcıl təcrübə göstərir ki, bu iş üsulu şagirdləri yaradıcı düşünməyə, müstəqil rabitəli mətnlər tərtib etməyə, ayrı-ayrı mövzularda hekayə və inşa yazmağa daha səmərəli hazırlamış olur.

Təkilf edilən digər vasitə şairin hikmətli kəlamları əsasında şagirdlərdə esse yazmaq bacarıqlarının formalaşdırılmasıdır. Yüksək əxlaqi dəyərlərə aid kəlamların şagird qəlbində oyatdığı hissləri ifadə edən bu esselər maraqla qarşılandığı üçün ona həvəslə, şövqlə qoşulurlar. Belə misralar isə şairin bütün əsərlərində bir inci kimi parlayır və onları axtarıb-tapmaq elə də çətin deyil. Sadəcə, hər bir müəllim Nizami yaradıcılığını dərindən öyrənmək və şagirdlərə öyrətmək eşqi ilə çalışmalıdır. Çünki Nizami dünyası elə bir sehrdir ki, burada məhəbbət, yaxşılıq, dostluq, sədaqət, mərdlik, hünər, hörmət, qayğı kimi insanı, milləti ucaldan ən ülvi hisslər təbliğ olunur.

Şübhə yoxdur ki, məktəb təcrübəsində Nizami yaradıcılığından istifadə imkanları göstərilənlərlə məhdudlaşmır. Ən önəmli məsələ yeni nəslin bir şəxsiyyət kimi formalaşması üçün əbədiyaşar şairin hikmət dünyasını sevdirməyi bacarmaqdır.

### İstifadə edilmiş ədəbiyyat


1. Bertels Y. Böyük Azərbaycan şairi Nizami. Bakı: Təhsil, 2017.
2. Əhmədov B. A.Axundov, Xəlilov B. 6-7-ci siniflər üçün dərslik. Bakı: Təhsil, 2003.
3. Əfəndizadə Ə., Əhmədov B. Azərbaycan dili (5-ci sinif üçün dərslik) VI nəşri, Bakı: Təhsil, 2001.
4. Gəncəvi N. Sirlər xəzinəsi. Bakı: Lider nəşriyyat, 2004.
5. Gəncəvi N. Xosrov və Şirin. Bakı:Yazıçı, 1982.
6. Gəncəvi N. Leyli və Məcnun. Bakı: Lider nəşriyyat, 2004.
7. Gəncəvi N. İskəndərnamə. Şərəfnamə. Bakı: Lider nəşriyyat, 2004.

8. Hacıyev T., Bəkdaşi S., Vəliyeva M., Hüseynova Y. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. Bakı: Şərq-Qərb, 2019.

9. Hacıyev T., Bəkdaşi S., Hüseynova Y. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. Bakı: Şərq-Qərb, 2020.

10. Hacıyev T., Bəkdaşi S., Hüseynova Y. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. Bakı: Şərq-Qərb, 2018.

11. Hacıyev T., Bəkdaşi S., Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. Bakı: Şərq-Qərb, 2018.

12. İsmayılov R., Orucova G., Cəfərova D., Xəlilov Z. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün dərslik. Bakı: Altun Kitab, 2018.

13. İsmayılov R., Abdullayeva S., Cəfərova D., Qasımova X. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün dərslik. Bakı: Altun Kitab, 2019.

14. İsmayılov R., Cəfərova D., Xudiyeva G., Qasımova X. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik. Bakı: Altun Kitab, 2020.

15. İsmayılov R., Cəfərova D., Məmmədova S. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı: Altun Kitab, 2021.

16. İsmayılov R., Rüstəmova A., Hidayət A., Məmmədova S. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı: Altun Kitab, 2018.

17. Kazımov Q., Şahbazlı F. Azərbaycan dili 8-9-cu siniflər üçün dərslik. Bakı: Təhsil, 2003.

18. Köçərli F. Azərbaycan ədəbiyyatı (iki cilddə) I cild. Bakı: Elm, 1978.

19. Nurullayeva Ü., Zahidova Ş., Bayramova B., Xanalıyeva A. Azərbaycan dili (tədris dili) Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün fənni üzrə dərslik (2-ci hissə). Bakı: ARTİ, 2020.

20. Tərbiyət M. Danişməndani-Azərbaycan. Bakı: Azərnəşr, 1987.

21. Выдающиеся русские ученые и писатели о Низами Ганджеви. Сост., автор предисловия и редактор проф. Р.Алиев. Баку: Язычи, 1981.

# II BÖLMƏ. NİZAMİ GƏNCƏVİ ƏSƏRLƏRİ TƏRBİYƏ VASİTƏSİ KİMİ

## Nizami Gəncəvi əsərlərində dəyərlər və şagirdlərə aşılanması imkanları

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərləri qələmə alındığı zamandan bu günə kimi neçə-neçə nəsillərin milli və bəşəri dəyər əsasında tərbiyə olunmasında bir vasitə rolunu oynamışdır. Təhsil müəssisələrində: mədrəsələrdə, darülfünunlarda, məktəblərdə, institut və universitetlərdə Nizami Gəncəvi əsərləri tədris olunmuşdur. Zaman və məkan dəyişsə də Nizami Gəncəvinin əsərlərinin ideyası, mənəvi çəkisi özünü qoruyub saxlamışdır. Əsərlərində yaratdığı cəmiyyət və orada yaşayan insan idealı bu gün də öz aktuallığını saxlayır. Bu mənada, ümumtəhsil məktəblərinin X sinflərində Nizami Gəncəvinin həyatı, yaradıcılığı və son əsəri olan " İskəndərnamə" poemasından mənzum parçalar geniş şəkildə tədris olunur. Buradan yanaşaraq əsərlərində öz əksini tapan dəyərlər və onların şagirdlərə aşılanması məsələlərinə aydınlıq gətirməyə çalışacağıq. Əvvəlcə dəyər anlayışına aydınlıq gətirək. "Dəyər-əmtəə istehsalçılarını əmtəədə təcəssüm olunmuş və maddiləşmiş ictimai əməyidir. *Dəyər şeyin ictimai xüsusiyyətidir* **[Azərbaycan Sovet Ensiklopediyası: 1979, s.394].** Aksiologiya (axia-dəyər, loqos-təlim deməkdir) dəyərlər haqqında fəlsəfi təlimdir. İnsan cəmiyyətin əsas istehsal qüvvəsidir, əməyin və elmi idrakın, sosial idarənin, təhsil və tərbiyənin subyektidir. O, təkcə maddi və mənəvi dəyərlərin istehlakçısı deyil, hər şeydən əvvəl, obyektiv gerçəkliyə yaradıcı təsir edən, cəmiyyətin məqsəd maraqlarına uyğun olaraq onu dəyişdirən fəal qüvvədir. Pedaqoji dəyərlər pedaqoji fəaliyyəti nizama salan normalardır. Onlar təhsil sahəsində yaranmış ictimai dünyagörüşü ilə pedaqoqun fəaliyyəti arasında idraki-iş sistemi kimi çıxış edir **[Paşayev Ə.X., Rüstəmov F.A.: 2002, s.73-74].**

**Dəyər-** bir cəmiyyətdəki insanların əksəriyyəti tərəfindən razılaşdırılan, qəbul edilən, paylaşılan və həyatı tənzimləyən hər cür inanc, duyğu, düşüncə, davranış və qaydalara deyilir. Dəyər cəmiyyətin varlığını, birliyini, fəaliyyətini təmin etmək və saxlamaq üçün fərdlərin əksəriyyəti tərəfindən doğru və zəruri olaraq qəbul edilən inanc və mədəniyyətdən irəli gələn ortaq bir düşüncə, məqsəd, əsas əxlaq prinsipi olaraq qəbul edilir. Dəyər, bir hissin,

düşüncənin, davranışın, obyektin, varlığın və ya fəaliyyətin fərdi və sosial əhəmiyyəti, başqalarının münasibət və davranışlarının qiymətləndirilməsi və ya üstünlüyüdür. Dəyər (aksiologiya), etika və əxlaq (etika) elmi yenidən dünyada əhəmiyyət qazanmağa başlamışdır.

**Lüğəvi mənası**. Dəyər, bir şeyin əhəmiyyətini və dəyərini təyin etmək üçün bir ölçüdür. Bir şeyin dəyəri, maddi qarşılığı, qiymətidir Pulla ölçülə bilən bir şeyin dəyəridir. Həyatı yönləndirən inanclar, düşüncələr və davranışlar, yüksək və faydalı keyfiyyətidir. Həyat və mal qurban verilən inanclar və simvollar.

**Əxlaqi mənası**. İnsanların davranışlarının yaxşı və ya pis, yanlış və ya doğru olub olmadığını müəyyən edən inanclar, mühakimələr və prinsiplər sistemi, mücərrəd ölçülərdir. İdeal bir həyat haqqında fikirlər və qaydalardır.

**İqtisadi mənası.** Pulla, alıcılıq qabiliyyəti ilə, qiymətlə, dəyərlə, qiymətlə ölçülə bilən bir şeyin dəyəridir.

**Sosial mənası**. Bir millətin sosial, mədəni, iqtisadi və elmi dəyərlərini özündə birləşdirən maddi və mənəvi cəhətlərin hamısıdır. Cəmiyyətin bütün təbəqələri tərəfindən qəbul edilən və müdafiə olunan dəyərdir.

**Hüquqi mənası.** Cəmiyyətdə qəbul edilən dəyərlər qanuna uyğun olmalıdır. Ədalət dəyərinə uyğun olaraq hər şeyi hüquq nizamlamalıdır. Qanunun məqsədi ədaləti təmin etməkdir. Dəyərin məqsədi ədalətli olmaqdır. Qanunu tətbiq edənlərin peşə dəyərləri də olmalıdır. Qüdrəti deyil, əməli düz olmalıdır. Güc deyil, qanunun aliliyi əsas sayılmalıdır. Dəyərlərin mənbəyi inanclardır. Bir cəmiyyətin inancları dəyərlər yaradır, dəyərlər mədəniyyətlər yaradır. İnanclar hisslərə çevrilir, hisslər davranışa, davranışlar vərdişlərə, vərdişlər dəyərlərə, dəyərlər xarakterə çevrilir.

**Maddi dəyər.** Pulla ölçülə bilən bir şeyin qarşılığı, qiyməti, dəyəridir. Dünya malları, pul, mülk, vəzifə, şan-şöhrət və s. maddi olmasa da, maddi gəlir və güc verir; nüfuz, vəzifə, titul, şan-şöhrət və s. həm də pul dəyəridir.

**Mənəvi dəyər.** Maddi ilə ölçülə bilməyən, insanları bir yerdə saxlayan və insanların mənəvi həyatında iz buraxan inanc, dil, mədəniyyət, bayraq, himn kimi simvollardır. Duyğu, inanc, ürək və ruha aid olan şeylərin hamısıdır. Bütün cəmiyyətlərdə inanc, hörmət, şəfqət və xeyirxahlıq kimi dəyərlər mövcuddur. Yalan, haqsızlıq və qəddarlıq hər cəmiyyətdə mənfilik ifadə edir.

Dəyərlər öyrədilə və öyrənilə bilən şeylərdir.
Təhsil dəyərləri 1995-ci ildə Birləşmiş Millətlər Təşkilatının 50-ci ildönümü qeyd edilən vaxtda BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) tərəfindən "Yaşayan dəyərlər təhsil proqramı" çərçivəsində Brahma Kumaris tərəfindən hazırlanmış və hələ də dünyanın bir çox ölkələrində tətbiq olunur. "Daha yaxşı bir dünya üçün dəyərlərimizi paylaşaq" layihəsi ilə həyata keçirilməyə başlandı. Bu layihə 12 dünyəvi dəyər üzərində qurulmuşdur. Bu dəyərlər: sevgi, hörmət, məsuliyyət, tolerantlıq, azadlıq, sülh, xoşbəxtlik, dürüstlük, əməkdaşlıq, təvazökarlıq, sadəlik, birlikdir.

Yaşayan Dəyərlər Təhsili/Yaşayan Dəyərlər Təhsil Proqramı (YDEP), dəyərlərin təhsili ilə məşğul olan təhsil proqramıdır. Müəllimlərə, uşaqlara və gənclərə on iki əsas şəxsi və sosial dəyərləri mənimsəməyə və inkişaf etdirməyə kömək etmək üçün müxtəlif empirik tədqiqatlar və praktik üsullar təklif edir. Birləşmiş Millətlər Təşkilatının sənədinin giriş hissəsindəki prinsipdən irəli gələn mövzu: "Əsas insan hüquqlarına, insan varlığının ləyaqətinə və dəyərinə inamı bir daha təsdiq etmək."

Ta qədim zamanlardan bütün dinlərin insanlara aşıladığı ortaq dəyərlər eyni idi. Bunlar: dürüstlük, bağışlama, əməkdaşlıq, ədalət, qonaqpərvərlik, dostluq, səbir, şükranlıq, qul haqqı, halal yemək, qonşuluq, qənaət, sevgi, hörmət, ailə və s. nəzərdə tutulur.

**Dünyəvi dəyərlər.** Demokratiya xalqın suverenliyinə əsaslanan bir idarə formasıdır. Siyasi nəzarətin birbaşa xalqın və ya xalq tərəfindən sərbəst şəkildə seçilən nümayəndələrin əlində olduğu, sosial və iqtisadi vəziyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər sayıldığı bir idarəetmə forması.

**Müstəqillik** maneə törətmədən və ya məhdudlaşdırılmadan istədiyi kimi seçə bilməsi və hərəkət edə bilməsi vəziyyətidir. Bu, digər şəxslərin hüquqlarına hörmət etdiyi müddətdə, istədiyi kimi davranmalı olduğunu və heç kim tərəfindən zorla maneə törədilməməsini və dayandırılmamasını göstərir. Ən qısa tərif olaraq, "öz hərəkətlərini idarə etmək qabiliyyətidir".

**Ədalət** hüquq və qanuna riayət etmək və yerinə yetirmək, həqiqət, ədalət hissidir. Ədalət hüquqa riayət etmək və yerinə yetirmək deməkdir. Doğru ilə yalan arasındakı fərq ədalətlə həll edilir. Qanun baxımından insanlar arasında ayrı-seçkilık qoyulmamalıdır.

**İnsan hüquqları** bütün insanların sahib olduğu əsas hüquq və azadlıqlardır.

**Bərabərlik** müəyyən bir cəmiyyətdə və ya təcrid olunmuş bir qrupda olan bütün insanların eyni statusa sahib olduğudur. Sosial bərabərlik, qanun qarşısında bərabər hüquqlar (təhlükəsizlik, səsvermə hüququ, söz və sərbəstlik, mülkiyyət hüquqları) və sosial mal və xidmətlərə bərabər çıxışı əhatə edir. Buraya iqtisadi bərabərlik anlayışları da daxildir; yəni təhsilə, sağlamlığa və digər sosial təminatlara çıxış. Bununla bərabər, eyni zamanda bütün cəmiyyəti əhatə edən bərabər imkanlar və öhdəliklər də daxildir

**Etik dəyərlər**: insanlara, heyvanlara və bitkilərə anlayışla yanaşmaq, işçilərə təzyiq etməmək, haqsız qazanc əldə etməmək, vəzifəli şəxslərdən hədiyyə almamaq kimi qaydaları təyin edən davranış və prinsiplərdir. Şəffaflıq, qərəzsizlik, dürüstlük, hesabatlılıq və ictimai maraqlar kimi etik davranış prinsiplərini və prosedurlarını müəyyən etməkdir.

Ümumtəhsil məktəblərində dəyərlərimiz şagirdlərə məlumat olaraq verilir, davranışa çevrilmir. Müəllimlər bütün parametrlə şagirdlərə nümunə olmalı və dəyərlərimizə uyğun müsbət davranış nümayiş etdirməlidir. Dəyərlər məktəblərdə öyrədilən bilikləri davranışa çevirməlidir.

Dəyərlərin yaşadığı cəmiyyətlərdə əməkdaşlıq, ədalət, tolerantlıq və ünsiyyət ön plana çıxır. Dəyərləri olan təşkilatlarda sevgi, qardaşlıq, iş etikası və məhsuldarlıq yüksək olur. İndi təkcə ailə deyil, sosial mühit, televiziya, kompüter oyunları, filmlər, jurnallar, internet, oyuncaqlar və reklamlar insanların həyat tərzinin formalaşmasında mühüm rol oynayır. Ailənin və məktəbin verdiyi dəyərlərlə televiziyanın və xarici dünyanın verdiyi dəyərlər çox vaxt fərqli olur. Bu baxımdan, dəyərlər aşılayan əsərlərin tədrisində yuxarıda göstərdiklərimizə diqqət yetirilməlidir.

Təhsilin məzmununda dəyərlərin qoyuluşunu araşdıran bir çox tədqiqatçı [Güvən 2014, b:16] dəyərləri fərdin ehtiyaclarının sosial həyatın tələbləri ilə uzlaşdıran daxili standartların ifadə etdiyi anlayışlar adlandırır. Əslində, məzmunun aşıladığı dəyərlər uşaqları ətrafındakı insanları və qarşılaşdıqları hadisələri dəyərləndirmək, bu sahədə nə edəcəyinə qərar vermək üçün istifadə etdiyi meyarların cəmi olaraq qəbul edilir. Aşılanan dəyər şagirdlərin məsuliyyət daşımalarını və uyğun seçim etmələrinə imkan verən bilik, bacarıq və qabiliyyətlərinin inkişafı olaraq da təyin olunur.

Fərdlər sosial qaydalar, adət və ənənələr vasitəsi ilə "yaxşı" və "pis"i, "doğru" və "yanlış"ı fərqləndirməyi və öz əxlaqi prinsiplərinə uyğun bir ölçü əldə etməyi öyrənirlər. Hasan Çelikkaya üçün dəyər cəmiyyətdə, inancda, ideologiyada və ya insanlar arasında qəbul edilən, mənimsənilən və saxlanılan hər cür sosial, insani, ideoloji və ya ilahi mənşəli hisslər, düşüncələr, davranışlar, qaydalar və dəyərlərdir [Çelikkaya 1996: 168]. Mahmut Tezcan da dəyərlərin bütün mədəniyyətə və cəmiyyətə məna və əhəmiyyət verən meyarlar olduğunu ifadə etmişdir [Tezcan 1974: 14].

Tədqiqatçılar ayrı-ayrı təriflər versələr də, hamısında ortaq bir element diqqəti çəkir: dəyərlər, fərdin duyğu və düşüncələrini formalaşdıraraq ictimai həyata uyğun olaraq qərar verməsinə imkan verən meyarlar toplusudur. Bu halda fərdin ehtiyacları ilə cəmiyyətin ehtiyacları nə qədər üst-üstə düşərsə, dəyərləryönümlü təhsillə nəzərdə tutulan daha doğru qərarlar veriləcəkdir. Doğru qərarlar verən insanlardan ibarət bir cəmiyyət də gündən-günə inkişaf edərək daha da irəli gedəcəkdir. Bu mənada məktəblərinin iki əsas məqsədinin olduğunu söyləyə bilərik: akademik biliklərdə müvəffəqiyyətli olmaqla bərabər, dəyərlər təhsili çərçivəsində əsas dəyərləri qazanmaq. Bu məqsədlərdən asılı olaraq təyin olunan dəyərlər məktəblərdə müəyyən bir plan çərçivəsində və çox diqqətlə verilməlidir. Mədəniyyət və sivilizasiyanın gələcək nəsillərə ötürülməsi bu yolla həyata keçiriləcəyi üçün fasilələr cəmiyyətdə ciddi pozulmalara səbəb ola bilər.

Dəyərləryönümlü təhsilə əsaslanaraq söyləyə bilərik ki, keçmişdə xarakter förmalaşdıran təhsil indi öz funksiyasını dəyişmişdir. Dəyəryönümlü təhsillə əlaqədar digər ölkələrlə yanaşı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"nda ilk dəfə olataq ***"milli kimliyin dərki və milli iftixar hissi, fəal vətəndaş mövqeyi, şəxsi və sosial məsuliyyət, demokratiya və insan hüquqlarına hörmət, mədəni müxtəlifliyə hörmət***" kimi dəyərlərə  xüsusi yer verilmişdir. Bununla yanaşı "Ədəbiyyat" fənni üzrə təlim nəticələrində də bu məsələyə diqqət yetirilmişdir: ***"bədii mətnlərdəki ideyanı milli-mənəvi və ümumbəşəri dəyərlərlə əlaqələndirir;*** **g**örkəmli ədəbi simalar və əsərlər haqqında məlumatlı olduğunu nümayiş etdirir".

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində Azərbaycan Respublikasında təhsilin əsas məqsədi aşağıdakı kimi göstərilmişdir: “Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək; milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq; sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq”. Bu hədəflərə çatmaq, fərdə aşılanması nəzərdə tutulan dəyərlərlə mümkün görünür. Bu dəyərlər fənn proqramlarının məzmununda yerləşdirilərək konkretləşdirilir. Hər dərsin məzmununa uyğun olaraq çatdırılması tələb olunan bu dəyərləri aşılamaq baxımından ədəbiyyatın tədrisi daha geniş imkanlara malikdir.

2013-ci ildə nəşr olunan Ədəbiyyat proqramlarında (kurikulumlar) dəyərlər üçün ayrıca bir başlığın olmadığı görünür; lakin proqramın girişinə, məqsədlərinə, mövzuları yerləşdirərkən və dərslik üçün mətn seçərkən nəzərə alınan meyarlara baxdığımızda bu dəyərlərin daxil olduğu görülür.

Ədəbiyyat tarix boyu formalaşdırdığı cəmiyyətin duyğularının, düşüncələrinin, inanclarının və mədəni dəyərlərinin güzgüsü və daşıyıcısı olmuşdur. Bu keyfiyyətlə ədəbiyyat cəmiyyətdəki fərdlərin kollektiv yaddaşını və təhsil sistemlərinin ayrılmaz hissəsini təşkil edərək vacib bir təhsil sahəsi olaraq qəbul edilmişdir. Ədəbiyyat təlimi mənsub olduğu sivilizasiyanın və mədəni dəyərlərin ədəbi əsərlərlə yeni nəsillərə ötürülməsini təmin edir. Bu səbəbdən ədəbi əsərlərin şagirdlərə dəyərlərin çatdırılmasında böyük yeri var. Tədris prosesinə uyğun olaraq yerləşdirilən ədəbi mətnlərlə, şagirdlərin “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun məqsədlərinə uyğun olaraq cəmiyyət üçün “kamil insan” formalaşdırmaq olar.

Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi Nizami Gəncəvinin əsərlərindən olan “İskəndərnamə”nin məzmunu dəyərlər baxımından çox əhəmiyyətli bir əsərdir. Məsnəvi şeir şəklində qələmə alınmış əsər ədalətli

dövlət və ədalətli şah nümunəsinin yaradılmasıdır. Əsərdəki dəyərlərə baxdığımızda aydın olur ki, əldə edilməli olan son məqsəd "ideal dövlət"dir, lakin bu dövləti quracaq, yaradacaq və davam etdirəcək "kamil insanlara" və "ideal cəmiyyətə" ehtiyac olacağından, onlar haqqında məlumatlar da əsərdə yer alır. Təhsilimizin hədəflədiyi "kamil insan"a çatmaqda əhəmiyyətli bir bələdçi olan "İskəndərnamə" hazırda ümumtəhsil məktəbinin 10-cu sinif Ədəbiyyat tədris proqramına daxil olduğu və əsərdən nümunələrin dərsliklərə daxil edildiyi müəyyən edildi. Ümumi təhsil məktəblərin X sinfində tədris olunan "İskəndərnamə" poemasına daxil olan "Şərəfnamə" əsərini Nizami Gəncəvi Nəsrəddin Əbu Bəkr ibn Məhəmmədə (1191-1210) həsr etmişdir. Nizami Gəncəvinin ideal insan konsepsiyası "İqbalnamə" poemasında tamamlanır. "Şərəfnamə" nin giriş hissəsində İskəndəri üç cəhətdən, yəni fateh, hakim və peyğəmbər kimi səciyyələndirəcəyini bəyan edir. Tədris olunan əsəri **dəyərlər** *(ədalət, dürüstlük, dostluq, sevgi, səbr, qənaətcil olmaq, mərhəmət, nümunə olmaq, vəfa, iradəli olmaq, problemi həll etmək, elm irfan sahibi olma, tolerantlıq, qərarlı olmaq, görünüşə əhəmiyyət verməmək)* baxımından incələyərkən məlum oldu ki, Nizami Gəncəvi poemasının hər misrasında, beytində bu gün üçün aktual olan fikir söylənmişdir.

**1. Ədalət.**

Poemada ədalət anlayışı İskəndərin təmsilində öz əksini tapır. Əsərin "Şərəfnamə" hissəsində görürük ki, İskəndərin müharibələr aparmaqda məqsədi hər yerdə ədaləti bərpa etməklə yanaşı, bu ölkələrdə yayılmış biliklərə sahib olmaqdır (səh. 10). "İskəndərnamə" əsərində şairin yüksək vətənpərvərlik hissləri də öz əksini tapmışdır. Bu vətənpərvərlik ideyalarının ən bariz təmsilçisi şairin dərin sevgi duyğuları ilə yaratdığı Bərdə hakimi Nüşabə surətudur. Nüşabə "Xosrov və Şirin" poemasında rast gəldiyimiz Məhinbanu surətinin davamıdır. Maraqlı burasıdır ki, Nizami İskəndəri öz dogma yurdu Azərbaycana gətirmək üçün bilərəkdən tarixi anaxronizmə yol verir.

Bərdə hakimi Nüşabə eyni zamanda şairin "ədalətli hökmdar" haqqında görüşlərinin də ifadəçisidir. Nüşabənin müdrik bir hakim olmasını eşidən fateh özü adi elçi sifətilə Bərdə hakiminin sarayına gedir. Lakin İskəndərin adi elçi qayda-qanunları xilafına etdiyi hərəkətlər Nüşabənin nəzərindən yayınmır. Onu artıq tanımışlar. İskəndərin fütuhatının şöhrətini eşitmiş olan ağıllı qadın

onun rəsmini öz xəzinəsində saxlayırdı. Amansız fateh insan əqlinin gücü qarşısında aciz qalır və Nüşabənin ölkəsi fəth olunmur.

Nüşabə İskəndərin qarşısında süfrə açır və onu cavahiratla doldurur. İskəndər əlbəttə anlayır ki, var-dövlər uğrunda çalışmaq faydalı işdir. O deyir: Sənin xonçandakı bu daş-qaş daşır, bu danlaq, bu töhmət kimə yaraşır? Süfrəyə cəvahir saçmaq nə gərək?! Gövhərdən qaçmağı mənə öyrətmək?! Eşq olsun bu fikri sağlam qadına,  mərdliyin yolunu öyrədir mana. Ey uzaqgörən qız, gəl məni dinlə, qızıl sikkəsini nəsihətinlə; Ataram bir kərə torpaqlara mən, Qızıla torpaqdır təbii mədən [N.Gəncəvi: 2004, s.216].

Nizaminin vətənpərvərlik duyğularını doğma Azərbaycanın təbiət lövhələrinin təsvirində, xüsusilə Bərdəyə həsr olunmuş parçada hiss edirik. Şair qeyd edir ki, Bərdə vaxtilə qədim mədəniyyət və elm ocağı olmuş, öz təbiətinin gözəllikləri ilə bütün Yaxın Şərqdə tanınmışdır. Həmin hissləri o, öz doğma diyarı olan qədim Gəncə haqqında da söyləyir, özünün qırılmaz tellərlə Gəncəyə bağlılığını bildirir. Nizami böyük iftixar hissilə deyir ki, onun müqəddəs sirlərlə dolu şeirləri aşkar olaraq Buxaraya aparılarsa da, Gəncə torpağından olduğunu zövq əhli bilir.

Böyük humanist şair olan Nizaminin dərin vətənpərvərlik duyğuları onun beynəlmiləlçi görüşləri ilə sıx bağlıdır. Nizami xalqlar dostluğu və sülh ideyalarının carçısıdır. Onun əsərlərində, eləcə də "Şərəfnamə"sində yunanlıların və ərəblərin, gürcülərin, rusların, çinlilərin və hindlilərin, Dağıstan və İran xalqlarının həyatından, adət və ənənələrindən hörmətlə danışılır. Şairin məqsədi öz həmvətənlərini həmin xalqların tarixi keçmişi və yaxud ona müasir olan həyat tərzilə yaxından tanış etmək olmuşdur. Bu nəcib vəzifənin öhdəsindən dahi şairimiz böyük ustalıqla gələ bilmişdir (səh. 11). Bu vəziyyət ədaləti dürüstlüklə quran və onu vicdanla həyata keçirən İskəndər üçün keçərlidir. Ədalət dövlətin ən əsas elementlərindən biridir. Dünyada yaxşı bir nizam qurmaq istəyənlər buna ancaq doğruluq üzərində qurulmuş bir ədalətlə nail ola bilərlər. Mətndə bildirilir ki, Nüşabə kimi ədalətli qanunlar qəbul və tətbiq edən bir dövlətdə nizam qurular və xalq firavan yaşayar. Əsərdə Allah üçün "O, hər şeyə qadirdir, ədalətlə, haqq qanunlarını təyin edəndir, yaratdığı bütün canlılar üzərində gücə malikdir." fikirləri əks olunmuşdur.

"Tək sənə sığınır hər yüksək, alçaq, Hər varlıq yoxluqdur, sən varsan ancaq.

Yuxarı, aşağı hər gözə çarpan. Nə varsa, onları sənsən yaradan... Ağıl ilk inandı sənə, yaradan. Göyləri sən qurdun, ucaltdın, Allah... Günəşdən işıqlı gövhər yaradan. Gövhəri lütfünlə etdin aşikar... Buludlar yağdırmaz, sən deməsən: "Yağ!" Sən "bitir!" deməsən, bitirməz torpaq... Yoğurub yaratdın gözəl bir cahan... Onlar yox olacaq, sən qalacaqsan... İnsanla bəzədin hər bir diyarı... Hər kömək səndədir, sənsən əl tutan... İlanı məhv edər zəif qarınca... Gah xırda çərdəkdən yaratdın ağac. Gah Xəlil alırsan bütxanələrdən, Əbutalibi də çıxaran sənsən... Yuxuya getməzdən əvvəl, hər gecə mübarək adını çəkərəm öncə. Gecələr yuxudan qalxınca başım, anaram səni, hey axar göz yaşım... Qapından ümidsiz qaytarma məni. Bağışla, bir suçum varsa, ey Allah..., Səndəndir, son söz də sənə qayıdar. Kəsərli ayəni öyrətmək səndən, ... "Sən" demək, sonra da söyləmək ki, "mən"... Nə cür yaratdınsa, o cür yaşaram... Ey Tanrı, mənimlə yalnız sən varsan, Əliboş qaytarma məni qapından. Qapında üzümü sürtərəm yerə, Bir tacla əvəz ver bu səcdələrə... Sənsən acizlərə hər zaman pənah, ... Elə et, üstümə gülməsin əğyar. Əvvəl şükrə çatdır, sonra dövlətə, Əvvəl səbrə çatdır, sonra zillətə... Əvvəlcə səbr ver, sonradan bəla... Yenə əl çəkmərəm bəndəliyimdən... Səni mən hər yerdə tanrı sanaram [N.Gəncəvi: 2004, s. 15].
Allah-təalaya aid olan bu yüksək keyfiyyətlərindən yalnız birini-ədaləti İskəndər yer üzündə nizamlayır, güclü və müdrik sərkərdə kimi ədalətin və qanunun aliliyini təmin edir. Bu səbəbdən də o, bəzi üstün xüsusiyyətlərə malikdir.

İskəndər kimi hamı qanunlara riayət etməli və yaxşı qanunlar yaratmalıdır. Ölkədə birliyin olması, ədalətin hər kəs tərəfindən qəbul edilməsi çox vacibdir. Qanunların düzgün tətbiq olunduğu, sülh və zənginliyin əldə edildiyi bir ölkə möhkəm təməllər üzərində qurulduğu üçün uzun ömür sürəcək. Bu, uzunömürlülük və nizamın təbii bir nəticəsi olaraq qazanılan bir nüfuz olacaq.
İnsanlara qanunlarda nəzərdə tutulmuş qaydada qanuna tabe olan vətəndaş olması arzu edilirsə, ilk növbədə "uşaq oyunlarımızı əvvəldən ciddi bir qaydada düzənləməliyik. Çünki uşaqlar oyunlarında qaydaları pozarsa, böyüyəndə qanuna hörmət etmələri gözlənilirmi? Uşaqlar gənc yaşlarında oyun qaydalarına riayət edərlərsə, musiqi və nizam sevgisi onlara aşılanırsa, bu sevgi pis böyüyənlərdən fərqli olaraq həyatları boyunca qalacaq; daha da güclənəcək və köhnə nizamın pozulmuş tərəflərini öz istəkləri ilə düzəldəcəklər" [Platon 2015: 121, 122].

**2. Dürüstlük.**

"İskəndərnamə"də İskəndər yer üzünə doğruluğu və dürüstlüyü təmin etmək üçün gəlmişdir. Fəth etdiyi ölkələrin müsbət adət-ənənəsinə hörmətlə yanaşır, köhnəlmiş, öz dəyərini itirmiş adətləri isə yenisi ilə əvəz edir. O, hamıya qarşı dürüst davranır. İskəndər üçün çox vacib olan dürüstlük bütün insanlara da eyni dərəcədə vacibdir. Dürüstlük insanı nəinki doğru yola yönəldir, həm də arzusunu gerçəkləşdirir.

Doğruluq yaxşıdır, uymayın yada,
Bircə düzlükdədir nicat dünyada...

İnsanların həyatda əldə etmək istədikləri nəticənin xoşbəxtlik olduğunu düşünsək, dürüstlüyün insanları bu xoşbəxtliyə aparan əsas dəyərlərdən biri olduğu aydın olar.

Qəlbində döğruluq olan bir insan
Cahan tutar, onu tutmaz bir cahan.

Döğruluq, dürüstlük dəyəri həm "İskəndərnamə"də, həm də dövlətdə eyni baxımdan qiymətləndirilir.

**3. Ailə.**

Cəmiyyətdə ən kiçik birliyi meydana gətirən ailə dəyəri, ictimai nizamın sağlam şəkildə inkişaf etməsi üçün gələcək nəsillərə çatdırılması vacib olan dəyərlərdən biridir. Ailənin təməli möhkəm olmalıdır.

Əsası çox möhkəm olmayan evin
Bütün dörd divarı tez uçar, yəqin

**4. Sevgi.**

"İskəndərnamə" əsərini yazarkən sevgi dəyərə çevrilir. "Kitabın yazılması səbəbində belə izah olunur: "Sözümü dedim və kitabı yazdım,

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin?
Eşqsiz olsaydı xilqətin canı,
Dirilik sormazdı böyük cahanı,
İdrakı dinləsək, söyləyir o da;
Hər şey eşq üstündə durur dünyada.

Əsərdə Allah-təalaya sevgisi ilə seçilən Məhəmməd (s.ə.s.) peyğəmbərin tərifi var:

Göy - ona dünyada dörd tağı quran,
Yer - ona fələkdə beş növbət vuran.
Ayı barmağıyla bölən ikiyə.
Bir əlində qılınc, birində gövhər.
Gövhərlə dünyaya vurmuşdur bəzək,
Hər iki dünyadan bir don tikərək,
Daşlar da şahiddir möcüzəsinə.
Əliboş, bu dərviş geyimli sultan
Qulamlıq alandır, şahlığı satan.
O gecə meraca at səyirdərək.
Fələyin donuna vurdu min bəzək [N.Gəncəvi: 2004, s.23].

Allah sevgisi onun dilində belə ifadə olunur:

***Ürəyi Allahın nuruyla doldu...*** [N.Gəncəvi: 2004, s. 24].

İnsanlar xoşbəxt olduqları üçün Allahın doğru yolunu tutmuş olacaqlar.

**5. Əxlaqi dəyər.**

Sözünə əməl etmək, yaxşılıq və səxavət kimi anlayışları özündə cəmləşdirən mənəvi dəyər. “İskəndərnamə”də müəyyən hissələr, “İqbalnamə” isə əvvəldən sona qədər əxlaqi dəyərlərin təbliği üzərində qurulmuşdur. Əsərdə İskəndərə hədəflənən "ideal insan" modelində nəfsin tərbiyəsi ön plana çəkilmişdi: “Öz nəfsinə öyüd və nəsihət”də (N.Gəncəvi:2004, s.36) bu məsələyə geniş yer verilmişdir. Ümumtəhsil məktəblərinin X sinfində “Şərəfnamə” tədris olunarkən müəllim şagirdlərlə müəyyən beytlərin müzakirəsini təşkil edə bilər.

***Yaxşılıq etmək:***

Pisdən yaxşılıqla qorunmaq mümkün,
Dünyada yaxşılıq hər şeyə üstün.
Yaxşılığım üçün hər bir diyardan,
Yaxşılıqla atsam mən bu dəzgahı,
Olaram yaxşılar ziyarətgahı.

***Bir insanın digər insana möhtac olmaması:***

Elə bir ixtiyar olsaydı məndə,
Qoymazdım bəndəyə möhtac bir bəndə!

***Hər gün oxumaq***

Hər gecə biliyə qapı açmadan,

Başımı yasdığa qoymadım bir an.

***Əməksevərlik:***

Təlim işlərində çəkdi çox əmək,

Hikmətlər öyrətdi ona sevərək.

Taxıldan bir fayda gəlirsə ələ,

Əkinçi əkinə başlar həvəslə.

Əkinçi buraxar işi, zəhməti [N.Gəncəvi:2004, səh. 36].

Yaxşı insan "səxavətli, faydalı, xeyirxah, gözütox, mülayim, həyalı, təvazökar, mərhəmətli", pis insan "təkəbbürlü, kobud, səhlənkar,acgöz, zalım, cahil" olur.

**6. Səbr.**

"İskəndərnamə" poemasi tədris olunarkən şagirdlərə aşılanması vacib olan dəyərlərdən biri də səbrdir. Bununla əlaqədar olaraq aşağıdakı tövsiyələr verilmişdir:

Hər bəndin açarı səbirdir, inan.

Səbirli kimsələr olmaz peşiman.

İskəndər filosofları ətrafına yığaraq, onların nəsihətini dinləyərək səbrlə idarə edir. Platon bu xüsusda yazır: "... insan ağlını dinləməyəndə və ehtiraslarına sürüklənəndə öz-özünə deyinir, özünü məcbur edən ehtiraslara qəzəblənir; bu daxili savaşda qəzəbin ağıl tərəfində olması deməkdir, amma bu, qəzəbin ehtirasların tərəfinə keçib ağla qarşı çıxması deməkdir ... Haqsız olduğunu anlayan cəsur insan alacağı cəzaya əsəbləşməzdi, elə deyilmi? Aclıqdan, susuzluqdan və soyuqdan əziyyət çəksə belə, etdikləri haqsızlığın qarşılığını onlara uyğun bir mükafat olaraq görür. Ölçülü insan, başına bəla gələndə və ya çox sevdiyi şeyi itirəndə bu ağrını başqalarına nisbətən daha asan keçirir "(Platon 2015: 80, 141, 347).

**7. Təvazökarlıq.**

Təvazökarlıq "İskəndərnamə"də təriflənən başqa bir dəyərdir. Təvazökarlıq, təkəbbürdən və qürurdan fərqli olaraq həm adi insanlar, həm də böyük sərkərdələr üçün bir şərtdir. Əsərin əvvəlində Məhəmməd (s.ə.s.) peyğəmbərin və əsərin təqdim edildiyi dövrün hökmdarının tərifindən sonra baş qəhrəman İskəndərin təlim alarkən ona aşılanan təvazökarlıq xüsusiyyətinin nə qədər əhəmiyyətli olduğu göstərilir. Təvazökar və şirindilli insanın daxildə və xaricdə sevgi qazandığı vurğulanır. Xoşbəxt olan insan təvazökar olsa,

xoşbəxtliklərini qoruyacaq və ətrafındakılardan sevgi qazana biləcək, yaxud əksi ola bilər.

**8. Xeyirxahlıq.**

Xeyirxahlıq cəmiyyətdə yaşayan insanlar üçün lazım olan ən əhəmiyyətli dəyərlərdən biridir. Bir insanın başqasına kömək etməsi üçün həmişə vəzifə daşıması əsas deyil. Nizami Gəncəvinin xeyirxahlığı tarixin sınağından şərəflə çıxıb gələn yazdığı əsərləridir. Çünki bu əsərlər 880 ildən sonra da insanların xeyirxah olmasına kömək edə bilir.

Yenə iş adamı çalışar, işlər.
Nə həddindən artıq paylar malını,
Nə də xəsisliklə pozar halını.
Çətinlik çox xəsis olmaqdan doğar,
Çalış özgəyə də ziyan dəyməsin [N.Gəncəvi. 2004:64].

“İskəndərnamə” poemasının əvvəlində İslam inancından danışılır və Allah-təalanın yaradan, kömək edən olduğu vurğulanır. İnsanların dua edərək kömək istəməsi bu inancın nəticəsidir. Bu xeyirxahlıq, Allahın insanlara bəxş etdiyi xüsusiyyətlərdən biridir. Bu kontekstdə əsərdə Allahın köməyi ilə bağlı bir çox misralara rast gəlinir.

**9. Hörmət.**

“İskəndərnamə”də hörmətlə əlaqədar ictimai quruluşun empatiya ilə, yəni eyni şəkildə hörmət edilməsini istəyən, başqalarına eyni şəkildə hörmət göstərərək formalaşacağı ifadə edilir. Məhəmməd (s.ə.s.) peyğəmbərə böyük hörmət göstərilməlidir.

Şəhidlər, sərkərdələr, qazilər, o cümlədən Nüşabənin nümunəsində bütün qadınlar hörmətə layiqdirlər.

Qadındır, erkəkdən ürəkli, qoçaq,
Dəniz incisindən təmiz və parlaq.
Erkək tinətliyəm olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir aslanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz.
Aslanlar buduna basaram mən dağ,
Kim tikan əkərsə, tikan dərəcək,

Kim nicat verərsə, nicat görəcək [N.Gəncəvi. 2004: 201].

**10.Qənaət.**

İnsanlar həmişə sahib olduqlarını qənaətlə istifadə etməyə çalışmalıdırlar.

Kişini şad edər qorunsa sərvət [N.Gəncəvi. 2004:64].

## Nəticə

Nizami Gəncəvinin poemaları poetik və estetik meyarlar baxımından əhəmiyyətli bir məzmuna malikdir. Digər tərəfdən, klassik şeir türk xalqlarının ortaq mədəni dəyərlərinin ifadəsidir və daşıyıcısıdır. Bu baxımdan Nizami Gəncəvi şeirinin qaynaqlarını Qurani-Kərim, Məhəmməd (s.ə.s.) peyğəmbərin hədisləri, sufizm və sufi ədəbiyyat, adət və ənənə, əxlaq kimi ümumiləşdirilə bilən mədəniyyət və sivilizasiya mənbələri təşkil edir. Şair şeirlərini yazarkən bu mənbələrdən qidalanmışdır.

Nizami Gəncəvi poemalarını Allaha-təalaya həmd və Məhəmməd (s.ə.s.) peyğəmbərə xeyir-dua ilə başlayır və daha sonra əsas mövzuya keçir. Poemalarının məzmununda İslam baxımından həqiqət, ədalət, tolerantlıq, təvazökarlıq, insanlar arasında ünsiyyət məsələləri əsaslandırılır. Ünsiyyətə yaxşı davranışı, biliyi, hikməti, əxlaqı aid edir. Bu baxımdan poemaları, əsasən, sosial və mədəni dəyərlərdən qaynaqlanır. Nizami Gəncəvinin poemalarının əvvəlində verilənlər şagirdlərə aşağıdakıları aşılayır: Allah sevgisi; Məhəmməd (s.ə.s.) peyğəmbərə sevgi, iman, hörmət və ehtiram.

Poemanın məzmunu aşağıdakı nəticəyə gəlməyə imkan verdi: Hər zaman və hər vəziyyətdə ədalətli olmağa diqqət yetirmək, ədalət meyarlarını tərk etməmək, heç kimə haqsızlıq etməmək, ədaləti unutmamaq, insanları incitməmək, insanların göz yaşlarından qorxmaq; tolerant olmaq, tələsməmək, qətiyyətli və çalışqan olmaq, ümidli olmaq; dünya malına çox əhəmiyyət verməmək, dünya malına görə insanları incitməmək, acgöz olmamaq, daimi sülh və xoşbəxtliyə çalışmaq; həyatın qısa olduğunu və tez keçdiyini anlaya bilmək, keçmiş həyatdan və təcrübələrdən öyrənmək, yetkin və ağıllı olmaq; hər şey üçün uyğun bir vaxt olduğunu bilmək, arzuları həyata keçirmək, tələsməmək, lazım olduqda işi zamana buraxmaq; sahib olduqları ilə kifayətlənmək, onların dəyərini bilmək, hərislik etməmək, başqalarının hüquqlarına hörmət etmək, sahib olduqlarına görə insanlara həsəd aparmamaq; insanlara qarşı təvazökar

olmaq, təkəbbür göstərməmək, heç kəsi alçaltmamaq; gücə, gözəlliyə və sağlamlığa aldanmamaq, özünü günahsız hesab etməmək, səmimi və təvazökar olmaq, təkəbbürlü insanlardan uzaq olmaq, unutmamaq, təriflərə aldanmamaq, hər kəsi layiqincə qiymətləndirmək, əsassız olaraq bir şeyə iddia etməmək, heç kimə qarşı qərəzli yanaşmamaq; vəzifə sevgisindən uzaq olmaq, şöhrət dalınca qaçmamaq, şöhrət təhlükəsindən xəbərdar olmaq və onlardan uzaq olmaq, əsl müdrikliyin şöhrətdən və vəzifədən uzaq olmaq olduğunu bilmək; kainata və hadisələrə nümunə kimi baxa bilmək, təcrübələrdən öyrənmək, doğru təbiətə sahib olmaq, oxumaq və qiymətləndirmək, təbiətdəki gözəllikləri görmək; gəncliyin dəyərini bilmək, gənclik coşğusuna qapılmamaq; yaxşı insan olmaq, gözəl və doğru olanlara diqqət yetirmək, təmiz ürəkli olmaq, nifrət və intiqam hisslərindən uzaq olmaq, şəfqətli və anlayışlı olmaq və s.

Nizami Gəncəvinin "İskəndərnamə" poemasının tədrisində şagirdlərə aşılanacaq dəyərlərlə əlaqədar belə nəticəyə gəlmək olar:

1. "İskəndərnamə" poemasında hökmdar ədaləti təmsil edir. Ədalət anlayışına yalnız cəmiyyətin fərdləri deyil, həm də hökmdar riayət etməlidir.

2. Dürüstlük İskəndərin qurduğu dövlətin və bu dövlətin vətəndaşı olacaq insanların ortaq xüsusiyyətidir. Dürüstlük və doğruluq dəyərinə "İskəndərnamə"də diqqət yetirilmiş və xalqın əsas xüsusiyyəti kimi qeyd olunmuşdur.

3. "İskəndərnamə"də insanın Allah-təalanı heç vaxt unutmamasına xüsusi önəm verilir. İnsanlar Allah və cəmiyyət qarşısında vəzifələrini yerinə yetirməlidirlər.

4. "İskəndərnamə" insanlara Allah- təalaya, Məhəmməd (s.ə.s.) peyğəmbərə sevginin olmasını təlqin edir. Allahın sevgisini qazanan insan xoşbəxtdir. Platonun ideal vəziyyətində cəmiyyətdəki hər kəs bir-birini sevir və hörmət edir.

5. "İskəndərnamə"də insanın yaxşılıq etmək üçün yaradılmış bir varlıq olduğu göstərilir. Kim yaxşılıq görmək istəyirsə, yaxşılıq etməlidir. Yaxşılıq qocalmır və köhnəlmir, pis olma ehtimalı da yoxdur.

6. Səbr dəyəri insanın sahib olması lazım olan xüsusiyyətlərdən biridir. İnsan qarşılaşdığı çətinliklərə, zülmlərə və ağrılara səbrli olmalıdır.

7. Təvazökarlıq insanı xoşbəxtliyə aparan əsas xüsusiyyətlərdən biridir. Təkəbbürlülük təvazökarlığın əksidir və belə insan heç zaman sevilməz.

8. Xeyirxahlıq "İskəndərnamə"də insanların faydalı işlər görməsi, başqasının işinin asanlaşması üçün ona kömək göstərilməsi, onun həyatının çətinliklərdən qurtarmasına xidmət göstərilməsi dəyər kimi qiymətləndirilir. Cəmiyyətdə hər kəsin bir-birinə kömək etməsi çox vacib hesab olunur.

9. "İskəndərnamə"də döyüşçüyə, şəhidə, qaziyə, qadına və s. hörmət dəyərinin anlaşılmasına böyük əhəmiyyət verilir.

10. Tolerantlıq – dözümlülük bir dəyərdir ki, "İskəndərnamə"də buna yer verilmişdir. İnsanların yaxşı və pis əməllərinə tolerant yanaşılmalıdır. İnsan həmişə haqlı olmalı və düzgün davranmalıdır.

11. İnsan öz iradəsi ilə hərəkət etməli, dünya malına tamahkarlıqla bağlanmamalı və sahib olduqlarına görə şükür etməlidir. İnsan həqiqi xoşbəxtliyə qovuşa bilməsi üçün ruhunu istiqamətləndirməlidir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Azərbaycan Sovet Ensiklopediyası. Bakı, 1979, 10 cilddə, III cild, 1979, səh.394.

2. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları. Bakı, Baş nazirin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı.

3. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı: 2013.

4. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanunu. Bakı: Hüquq, 2009.

5. Gəncəvi, N. İskəndərnamə. Şərəfnamə. Bakı: Lider, 2004.

6. Paşayev, Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Bakı: Çaşıoğlu, 2002, (cəmi 6512) səh.73-74.

7. Platon. Dövlət. Bakı: Elm, 1998.

8. Güven, Ahmet Zeki (2014 b), Degerler Eğitimi ve Türkçe Derslerinde Değerlerin Kullanımı, Konya, Polat Yayınları.

9. Çelikkaya, Hasan (1996), Fonksiyonel Eğitim Sosyoloji, İstanbul, Alfa Yayınları.

10. Tezcan, Mahmut (1974), Türklere İlgili Stereotipler (Kalip Yargilar) ve Türk Değerleri Üzerine Bir Deneme, Ankara, Ankara Univesitesi Eğitim Fakültesi Yayınları.

## Nizami Gəncəvinin əsərlərində ailə dəyərləri və şagirdlərə aşılanması

Dahi Nizami Gəncəvinin əsərləri dünya ədəbiyyatının nadir incilərindəndir. Şairin əsərlərini oxuduqca onun dünya, insan, cəmiyyət, əxlaq, sevgi və s. haqqında necə geniş düşüncəyə malik olduğunun şahidi oluruq. Həyatın elə bir sahəsi yoxdur ki, Nizami yaradıcılığında öz əksini tapmasın. Nizami böyüklüyü də ondadır ki, yazdığı əsərlər, qabartdığı problemlər, aşıladığı fikirlər təkcə öz dövrü üçün deyil, eyni zamanda bu gün üçün də aktualdır. Müraciət etdiyi mövzularla-sevgi, dostluq, ədalətlilik, xeyir-şər, yaxşılıq, pislik, dürüstlük, sadiqlik və s. həm öz dövrünün, həm də müasir cəmiyyətin üzvlərinə lazımi mesajları ötürə bilmişdir. Nizami əsərlərini oxuduqca insan həm özü tərbiyələnir, həm də başqalarını düzgün yola çəkə bilir, onlara məsləhət verə bilir.

Azərbaycan türkləri gündəlik həyatda atalar sözü və məsəllərdən geniş istifadə edən xalqdır. Dahi Nizaminin bir böyüklüyü də ondadır ki, bu gün xalq arasında onun yaradıcılığından gətirilən sitatlar geniş yer tutur: “Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz”, “Bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da”, “Məhəbbət odur ki, odu sönməsin, insan yaşadıqca üzü dönməsin” və s. Bu da Nizami yaradıcılığının xalqın səsi olduğuna bir işarədir.

Nizaminin yaradıcılığında önəm verdiyi məsələlərdən biri də ailə problemləridir. Şair ailəyə yüksək qiymət vermiş, insanları da ailəni qorumağa səsləmiş, sevgi əsasında qurulan ailənin müqəddəsliyindən və s. danışmışdır.

Ailə qarşılıqlı sevgi və hörmət əsasında qurulan müqəddəs qurumdur. Ailənin bünövrəsi aid olduğu xalqın bütün dəyər və əxlaq sistemi üzərində qurulur. Buna baxmayaraq hər bir ailənin öz qayda-qanunları, əxlaqi dəyərləri olur. Ailədə böyüyən uşağın şəxsiyyət kimi yetişməsində ona verilən tərbiyənin, aşılanan dəyər və əxlaqi keyfiyyətlərin böyük rolu vardır. Sağlam düşüncəli, əxlaqlı insanların yetişdirilməsinin əsası ailədə qoyulur. Bunun üçün, ilk növbədə, valideynlər övladlarına örnək olmalıdır. Ata-ana öz sevgisi, hörməti, şəfqəti, mərhəməti ilə övladlarına nümunə olmağa çalışmalıdır. Azərbaycan xalqının qüdrəti, mənəvi-əxlaqi keyfiyyətləri, özünəməxsus mentalitet və dəyərlərinin olmasının sübutudur ki, Azərbaycan xalqı dünyaya

Nizami kimi şəxsiyyəti bəxş edə bilmişdir. Nizami Gəncəvi Azərbaycan ailəsinin yetişdirdiyi bir şəxsiyyət idi. Ailə dəyərlərinin vacibliyi, qorunub saxlanması onun əsərlərinin əsas ideyalarından olmuşdur. Nizami ailə tərbiyəsi, ailə dəyərləri, ailə qurmaq məsələsinə çox diqqət ayırmış, əsərlərində bu məsələ ilə bağlı fikirlərini dönə-dönə vurğulamışdır.

Nizami Gəncəvinin ailə dəyərləri sistemində ikinci əsas məsələ ailədə dünyaya gələcək uşaq və ona verilən tərbiyə məsələləri idi. Çünki ailə təkcə iki nəfərdən ibarət birlik deyil, ailə eyni zamanda nəsil artımıdır. İki şəxsin izdivacından dünyaya gələn uşaqlar sabah bu cəmiyyətin üzvləri olur. Ona görə ailədə uşaq tərbiyəsinə də xüsusi önəm verilməlidir. Uşağın tərbiyəsi birbaşa bu iki izdivaca girən şəxsin qarşılıqlı münasibətlərindən asılıdır. Nizaminin Leylisi zorla İbn Salama ərə verilir. Şair Leylinin timsalında göstərir ki, qəlbində, beynində bir başqası varkən, insan digər insanı nə sevə, nə də xoşbəxt edə bilər. Leyli aldığı tərbiyəyə görə ailəsinə etiraz edə bilmir, amma çıxış yolunu İbn Salama yalan söyləməkdə görür. Leyli və İbn Salamın ailəsi tezliklə dağılır, çünki bu ailə nə sevgi, nə də qarşılıqlı istək üzərində qurulmamışdı.

Nizami üçün azad sevgi və ikitərəfli bir-birini anlama məsələsi ailə qurmaq üçün təməldir. Bundan sonra onlar arasında mütləq kəbin kəsilməli, izdivacları kəbinkəsmə mərasimi ilə təsdiqlənməlidir. Nizami əminliklə qeyd edirdi ki, kəbinsiz ailə qurmaq doğru iş deyil. Kəbinsiz qurulan ailə gələcək uşaqların tərbiyə işini dağınıq hala salır, kəbin eyni zamanda ailə başçılarının ailəyə məsuliyyətini artırır, ər-arvadlıq bağlarını rəsmiləşdirir, qadının namusunun qorunmasını təmin edir.

"Xosrov və Şirin" poemasında şairin sevərək yaratdığı Şirin obrazı Xosrovu sevir, lakin Xosrovu kəbin kəsilmədən qəbul etmir. Kəbini əsas gətirərək Şirin deyir:

And olsun fitrətə qida verənə,
Əqlə can, canasa səfa verənə
Ki, şah olsan belə kəbinsiz yenə,
Yetişə bilməzsən istəklərinə.

Beytdən də göründüyü kimi, Şirin Xosrovun şah olmasını belə önəmli saymır, çünki ailə status, vəzifə məsələsi deyil, iki sevən şəxsin müqəddəs ocağıdır. Nizamiyə görə, cəmiyyət üçün lazımlı gəncliyin tərbiyə edilməsi möhkəm bünövrələr, ailə dəyərləri üzərində dayanan ailələrdə mümkündür.

Nizami ailə dəyərləri dedikdə ailə başçılarının qarşılıqlı şəkildə bir-birinin həm mənəvi, həm də maddi ehtiyaclarının ödənməsinə çalışmasını, eyni zamanda ailədəki vəzifələrin, cavabdehliyin bölüşdürülməsində hər iki tərəfin məsuliyyət daşıdığını nəzərdə tutmuşdur. Həyatın mənasını da məhz bunda görmüşdür:

Qısa söz, dünyada nə sən, nə də mən,
Oyuncaq deyilik xilqətimizdən.
Nə şəhvət, nə yuxu, nə də ki yemək
Həyatın mənası olmasın gərək.

Qədim Azərbaycan türklərinin ailə dəyərləri içərisində ata-oğul münasibətləri hər zaman seçilmişdir. Qədim ədəbiyyat nümunələrimizdə də atalar daim övladlarını özlərindən sonra nəslin, ailənin qorucusu kimi görmüş, var-dövlətlərinə, el-obasına sahib çıxacaq şəxs kimi yetişdirmişlər. "Leyli və Məcnun" poemasında Məcnunun atası oğlunun dərdi ilə barışsa da qocalıq onu əldən salanda iki nəfər cavanla birgə oğlunu axtarmağa gedir. Çünki:

Dünyanın dərdindən gəldi o təngə,
Sıxılmış boğazı bənzədi çəngə.
Qorxdu ki, öldürsün bu əcəl onu,
Gəlib yadlar alsın onun yurdunu.

Ata düşünür ki, artıq qocalıb, əcəl onu aparsa, ailəsi, nəsli başsız qalacaq. Bu məqsədlə də oğlu Qeysə yalvarır ki, qayıdıb ailəsinə sahib çıxsın, yadlar yurdunu çapıb-talamasın. Ailə sütunu olan ata-anaya məhəbbət, münasibət, qayğı Nizami əsərlərində ön planda verilmişdir. Ən təsirli səhnələrdən biri Məcnunun atasının ölüm xəbərini eşitdikdən sonra onun qəbri üstə gələrək söylədiyi cümlələrdir. Onun sözlərində ailə içərisində ata-oğul münasibətlərinin ən müqəddəsini görürük. Məcnunun atası ona nə qədər bağlı idisə, Məcnun da bir o qədər atasını sevirdi.

Yarım da sən idin, yavərim də sən,
Könlüm güc alardı daima səndən.
Oğluna daima yollar açaraq,
Bir səndin dərdimə yananım ancaq.

Ailə bağlarını ifadə edən ən gözəl misralar:

Sənsiz ki, zillətdə yaşayacağam,
Əfsus, səndən sonra yenə də sağam!

Məcnunun dilindən verilən bir beytdə atanın öyüd-nəsihətinin övlad üçün nə qədər önəmli olduğunu vurğulayan Nizami yazır:

Qızıl bir sırğaydın qulağımda sən,
Qapı halqası tək uzaqdım səndən.
Sən mülayim idin, mən dəliqanlı,
Mən soyuqqanlıydım, sən isti qanlı.

Atasının qəbri üstündə ondan halallıq istəyən Məcnunun nitqində əslində Nizaminin ailə dəyərləri haqqındakı fikirləri öz əksini tapır:

Ah, ata, peşmanam tutduqlarımdan,
Bir dərdim min oldu, beləymiş dövran.
Yersiz incitmişəm, atacan, səni
Əhvalım çox pisdir, bağışla məni.
Səni incitmişəm bu dünyada, ah!
Bizdən sorulmasın bu ağır günah.
Sən, ey ulduzumu işıqlandıran,
Sənin əlindədir əlacım inan!
Sən **razı** qalmasan oğlundan əgər,
Allah da oğluna **cəzalar** verər.

Nizamiyə görə, hər bir ata-ana övladının gələcəyini düşünməli, ona daim dəstək olmalı, bu yolda ondan diqqətini, sevgisini əsirgəməməli, yeri gəldikdə onun üçün var-dövlətindən də keçməlidir. "Leyli və Məcnun" poemasında Məcnunun atası belə valideynlərdəndir. O, oğlunu əzablardan xilas etmək, onu öz arzusuna yetirmək üçün böyük məşəqqətlərə dözməli olur.

Nizami əsərlərində ata-ana adının çox yüksək tutulmasının vacibliyini dönə-dönə qeyd edirdi. Ata-ananın üzünə ağ olan övladı şair ən pis övlad hesab edir. Şairin fikrincə, böyüklük hər zaman ata-anada qalmalı, övlad səhv edərkən onu silib atmaq əvəzinə onunla yoldaş olmağa çalışmalı, səbrlə yaranan problemi həll etməlidir. Amma naqis övladın cəzasını həyat özü verəcək. Nizami valideynlərin övlada ağır cəza verməsinin də əleyhinə idi, çünki şair inanırdı və inandırırdı ki, belə övladların cəzasını həyat özü verəcək, belə ki, o da öz övladından eyni münasibəti görəcək:

Nə eyləsə sənə övladın, inan
Onu görəcəkdir öz övladından.

Oğlunun yaxşı, pis işiyçün, dayan,
Cəza vermə, o da alar öz oğlundan.

Şairin “Övladın iqbalı ona olsa yar, ata sevincindən bəxtiyar olar” -ifadəsi sübut edir ki, ata-ananın xoşbəxtliyi onun yetişdirdiyi övladlarından asılıdır.

Nizami övladın həyatda doğru insan, keyfiyyətli vətəndaş olması üçün ailə tərbiyəsinin vacibliyini xüsusilə qeyd edir. Şair uşağın hər hansı pis əməli üçün onu yox, ailəsini günahlandırır. Şair ailə tərbiyəsini əsas tutaraq "Xosrov və Şirin" əsərində yazır:

Deyirlər bir gün ağıllı bir kəs,
"Mən dəliyəm"-deyə elə yayır səs.
Bir uşaq onunla girsə savaşa,
Dərhal böyükləri basırmış daşa.
Soruşurlar: "Uşaq səni vurarkən"
Neçün öc alırsan sən qocalardan?
Gülümsəyib deyir:
"Gülməsə qoca
Uşaq pis iş tutmaz ömrü boyunca
Narazı olarsa ayaqdan əllər,
Ayaqlara görə başı döyərlər".

Şairin - “Leyli və Məcnun”, “Yeddi gözəl”, “İskəndərnamə” poemalarında valideyn-övlad münasibətləri, valideynlərin öz övladlarına necə qayğı ilə yanaşdıqları, onların bir şəxsiyyət kimi formalaşmasında rolunu qabartmışdır.

O dövrdə əri ölən şəxs qapalı yerdə əyləşər, heç kimin gözünə görünməzdi. Bunu bəhanə edərək İbn Salamın cənazəsi üstündə Leyli o dövrün tələblərinə uyğun olaraq ağlamalı, ağılar deməli idi. Leyli bundan istifadə edir və Məcnunu anaraq dərdini dilə gətirir. Burdan bir qadın üçün ailə dəyərlərinin nə qədər vacib olduğu, adətlərə necə bağlı olduğunu görürük.

“İskəndərnamə” poemasında İskəndər doğulanda atası Feyləqus çox sevinir, kasıblara qızıl paylayır. Oğlunun tərbiyəsi, təhsili ilə ilk əvvəl özü məşğul olmağa başlayır. Atası İskəndərə ox atmağı, kaman dartmağı, qılınc oynatmağı öyrətdikdən sonra dövrünün ən bilikli filosofunu ona müəllim və tərbiyəçi təyin edir. Çünki o bilir ki, uşaq ilkin tərbiyə və elmi məhz ailədən almalıdır. Artıq müəyyən yaşa çatdıqdan sonra müəllimi İskəndərə hikmətlərlə dolu

dərin biliklər öyrədir, heç bir gəncin almadığı tərbiyəni verir.

Nizami Gəncəvi yaradıcılığında ailə dəyərləri sırasında valideyn-övlad münasibətinə geniş toxunmuş və tərbiyədə valideynin üzərinə böyük məsuliyyət qoyulduğunu dönə-dönə vurğulamışdır:

Nar öz meyvəsini başında saxlar,
Odur təpik vurmaz ona hər murdar.
Tut öz meyvəsini yerlərə tökər,
Odur ki, təpikdən əziyyət çəkər.

Nizami Gəncəvi hər zaman gənclərin yetişməsinə böyük sevgi və ehtiram göstərmişdir. Nizami övladın yetişməsində atanın rolunu öz oğlu Məhəmmədə nəsihət şəklində yazdığı beytlərdə göstərmişdir. Təsirli səhnələrdən biri də Məcnunun atasının oğluna müraciəti hissəsidir:

Canımsan, canımdan daha əzizsən,
Evə dön, evinin işığısan sən.
Və ya
Öz adına layiq işlər gör ki, sən
Axırda utanma xəcalətindən.
Oğul, sözlərimə yaxşı qulaq as!
Ata nəsihəti faydasız olmaz.

İskəndərin atası Feyləqusun oğluna dərin məhəbbətini, təlim-tərbiyəsinə, bir şəxsiyyət kimi formalaşmasına, ailə dəyərlərinə necə böyük diqqət və qayğı ilə yanaşdığını aşağıdakı misralardan açıq-aydın görə bilərik:

Dünyada ataya varmıdır gerçək,
Ağıllı oğuldan başqa bir istək?

Ailədə övladların hamısı eyni olmur. Amma dahi Nizami valideynləri səbrli olmağa, pis övlada münasibətdə cəzaya tələsməməyə səsləyir, çünki belə övladın cəzasını həyat özü verəcək:

Dərdi-sər olsa da bu oğul sənə,
Öz gövhərindəndir bu parça yenə.
Yararmı olasan övladla düşman?
Ürək ayrılarmı saldığı bağdan?

“Yeddi gözəl” poemasında Bəhramın atası da oğlunun tərbiyəsi və gələcəyi üçün narahat valideyn kimi təsvir edilmişdir. Nizami israrla qeyd edir ki, əgər

ata-ana övladının xoşbəxt olmasını istəyirsə, ilk növbədə öz aralarındakı münasibətin sağlam olub-olmamasına diqqət verilməlidir. Bu fikri o, Süleyman peyğəmbər haqqında yazdığı bir rəvayət əsasında oxucuya çatdırır. “Yeddi gözəl” poemasında ikinci gözəlin söylədiyi “Kəniz satan padşahın hekayəsi”ndə Nizami yazır:

“Süleyman peyğəmbərin bir övladı varmış, uşaq iflic imiş. Süleyman peyğəmbər çox düşünür ki, biz ər-arvad hər ikimiz sağlamıq, niyə görəsən bizim övladımız xəstədir? Bu sualla o Cəbrayıla müraciət edir. Ondan cavab gəlir ki, həyat yoldaşından soruş, səndən gizli bir sirri varmı? Sualdan sonra məlum olur ki, qadın ərini dəlicəsinə sevsə də, cavan oğlanlar onda maraq yaradır. Bu etirafdan sonra uşağın əli sağalır. Eyni sualla qadın ərinə müraciət edir. Sualın cavabında məlum olur ki, Süleyman peyğəmbərin də öz yoldaşından gizli bir sirri var imiş. Malik olduğu var-dövlətə baxmayaraq, onun gözü daim yanına gələn insanların əlində imiş. Bunu söylədikdən sonra uşağın ayağı da açılır”. Nizami ailə daxilində ər-arvad arasında münasibətlərin yalansız olmasının vacibliyini bir daha vurğulayır.

Bu gün ümümtəhsil məktəblərimizdə elmi biliklərlə yanaşı təhsilalanlarda milli və bəşəri dəyərlər formalaşdırılmalıdır. Ən əsas isə biz nə qədər müasirləşsək də, milli dəyərlərimizi unutmamalıyıq. İnformasiya əsrində yaşamağımızın bizim cəmiyyətimizə, bu cəmiyyətdə yetişən gənclərin inkişafına müsbət və mənfi təsirləri var. Bu gün şagirdlərimizə yüksək savad, elmi biliklər aşılamaqla yanaşı,  onlarda dəyərlər sistemi- milli kimlik, dostluq, ailə anlayışı və s. kimi formalaşdırmalıyıq. Biz azərbaycanlıyıq və bizim çox müqəddəs ailə dəyərlərimiz var. Bu dəyərlər məktəb-valideyn münasibətlərinin tənzimlənməsi prosesində də hər zaman diqqət mərkəzində saxlanmalıdır.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı: 2013.

2. Əlimirzəyev X. Nizami Gəncəvinin insan konsepsiyası (monoqrafiya), Bakı//Gənclik -2001, 354 s.

3. Gəncəvi N. “Sirlər xəzinəsi”, “Lider” nəşriyyat, Bakı-2004”.

4. Gəncəvi N. “Yeddi gözəl”, “Lider” nəşriyyat, Bakı-2004”.

5. Gəncəvi N. “Xosrov və Şirin”, “Lider” nəşriyyat, Bakı-2004”.
6. Gəncəvi N. “Leyli və Məcnun”, “Lider” nəşriyyat, Bakı-2004”.
7. Gəncəvi N. “İskəndərnamə. Şərəfnamə”, “Lider” nəşriyyat, Bakı-2004.
8. Gəncəvi N. “İskəndərnamə. İqbalnamə”, “Lider” nəşriyyat, Bakı-2004.
9. Mikayılov Ş.A., Səmədov A.A., Məmmədov Ş.H., Rüstəmova S.Ə., Bəkirova A.M. Nizami Gəncəvinin həyat və yaradıcılığının ümumtəhsil məktəblərində tədrisi məsələləri. Məllimlər üçün metodik vəsait. Bakı: Maarif nəşriyyatı, 1987, 167 s.
10. Nizaminin hikmət və nəsihətləri. Əcəmi nəşriyyat, Naxçıvan- 2013.

## Nizami Gəncəvinin əsərləri vasitəsilə şagirdlərdə əxlaqi keyfiyyətlərin formalaşdırılması

İnsanın malik olduğu sağlam mənəvi keyfiyyətlər onun davranışında, əxlaqında özünü büruzə verir. Elmi-pedaqoji ədəbiyyatlarda əxlaq tərbiyəsi insana məxsus olan mənəvi keyfiyyətlərin və davranış normalarının məcmusu” kimi göstərilir. Tədqiqatlar göstərir ki, mənəviyyatca kamil olmayan şəxs cəmiyyətdə mövqe tuta bilməz. Hansı peşənin sahibi olmasından asılı olmayaraq insanın şəxsiyyət kimi formalaşmasında, cəmiyyətdə layiqli mövqe tutmasında, insanlarla münasibətində əxlaq tərbiyəsi mühümdür. İnsanı ucaldan, ona hörmət gətirən onun tərbiyəsi, əxlaqıdır. İnsan mənsub olduğu əxlaqı ilə hər bir vəziyyətdə öz hərəkətlərini idarə edə bilir.

Əxlaq tərbiyəsi insanlıqdır. İnsanlığa məxsus olan bütün müsbət və mənfi keyfiyyətlər insanın əxlaqını, tərbiyəsini nümayiş etdirir. Əxlaqi keyfiyyətlər dedikdə, səmimiyyət, düzlük, mərhəmət, doğruluq, vəfalılıq, vicdanlılıq, fədakarlıq və s. nəzərdə tutulur. Ancaq bütün bu keyfiyyətləri bir adla da ifadə etmək mümkündür: mədəniyyət. Hər bir davranışın, insanlarla ünsiyyətin və münasibətin əsasını mədəniyyət təşkil edir: davranış mədəniyyəti, ünsiyyət mədəniyyəti, sevgi mədəniyyəti və s. Bu mədəniyyətlər insanın digər insanlarla münasibət və davranışında əksini tapır.

İnsanın yaşadığı mühit, həyat tərzi müəyyən dərəcədə insanın əxlaqına təsir göstərsə də, əxlaq tərbiyə olunandır. Gənc nəslin milli və ümumbəşəri

əxlaqa, mənəviyyata və mədəni dəyərlərə yiyələnməklə şəxsiyyət kimi formalaşdırılması təhsilin qarşısında duran əsas məsələlərdəndir. Onların həyatda mövqeyinin, dünyagörüşünün, həyatın mənasını müəyyən edən əxlaqi münasibətlərinin formalaşmasında məktəbdə tədris olunan fənlərin, o cümlədən ədəbiyyatın rolu böyükdür.

Şagirdlərdə əxlaq mədəniyyətinin, müxtəlif situasiyalarda özünüidarəetmə bacarıqlarının formalaşmasında ədəbiyyat tədrisinin üzərinə çox ciddi vəzifə düşür. Ədəbi əsərlər vasitəsilə şagirdlər dost-düşmən, nifrət-məhəbbət, ədalət-ədalətsizlik, təvazökarlıq-təkəbbürlülük, düzlük -yalan və s. anlayışlar və onların mahiyyəti haqqında biliklərə yiyələnir.

Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyat dərslərində görkəmli sənətkarların, o cümlədən həm klassik, həm də müasir şair və yazıçıların əsərləri tədris edilir. Ədiblərin əsərləri seçilərkən onların müasir dövrün tələblərinə cavab verməsi, gənc nəslin formalaşmasında tərbiyəvi əhəmiyyətə malik olması, bəşəri və milli dəyərləri əks etdirməsi əsas götürülür.

XII əsrdə yaşayıb-yaradan, əsərlərinə daim müraciət edilən dahi Nizami Gəncəvi də belə sənətkarlardandır. Qüdrətli söz və fikir ustadının insanları əxlaqi kamilliyə çağıran, yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir.

Nizami yaradıcılığının fəlsəfəsini humanizm təşkil edir. Əsərlərində bəşəri ideyaları - ədaləti, sülhü, insanlığı təbliğ etməsi onu daim müasirləşdirir, ümumbəşəri edir. Məhz bu xüsusiyyətlərinə görə Nizami Gəncəvinin əsərləri bu gün də aktuallıq kəsb edir, dünyanın hər yerində təbliğ olunur.

**Nizami yaradıcılığında danışıq mədəniyyəti**

Danışıq mədəniyyəti əxlaq tərbiyəsinin əsas komponentlərindəndir. İnsanları bir-birinə bağlayan, mənəvi cəhətdən yaxınlaşdıran, mehribanlaşdıran, dost edən, eləcə də əksinə onları bir-birindən uzaqlaşdıran, düşmən edən danışıq vasitəsi olan sözdür. Danışıq zamanı sözdən düzgün və məqamında istifadə etmək mühümdür. Hələ qədim zamanlarda görkəmli şəxsiyyətlər danışıq qabiliyyəti barədə ibrətamiz fikirlər söyləmiş və bunlar xalq arasında aforizmlərə çevrilmişdir. “Hər bir adam öz dilinin altında gizlənir”, “Danışanın özünə yox, sözünə daha çox diqqət et” (Həzrət Əli), “Varlığında danışıq gözəlliyi olmayan adam, bu dünyada su və gil, palçıq ilə suvanmış

divar surətinə bənzəyir” (S.Təbrizi)

Danışıq mədəniyyəti mənəvi kamilliyin təzahürüdür. Mənəvi kamillik Nizami Gəncəvi əsərlərinin leytmotivini təşkil edir. Şair əsərlərində nəsihətvari şəkildə oxucularını danışarkən sözə dəyər verməyi və ondan düzgün istifadəyə diqqət yetirməyi tövsiyə edir. Məsələn, ”Leyli və Məcnun” əsərinin “Az danışmağın gözəlliyi” bölməsində sözə dəyər verən şair az sözü inciyə, çox sözü isə kərpicə bənzədir:

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir su da.
İncitək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin.
Az sözün incitək mə'nası solmaz,
Çox sözün kərpic tək qiyməti olmaz. ***[“Leyli və Məcnun”].***

Yenə həmin əsərdə insana xoş sözlər danışmasını, dilini pis sözə öyrətməməyi tövsiyə edir. Çünki insan yaxşı sözü ilə yaddaşlarda qalır:

Bir çox sifətlər var insanda hələ,
Almasan yaxşıdır onları dilə.
Pis sözü ağzına alınca insan,
Qarnında öldürsə yaxşıdır, inan.
Bu dünya dolanıb döndükcə ruzgar,
Qoy səndən yaxşı söz qalsın yadigar ***[“Leyli və Məcnun”].***

***

Səninlə biri xoş danışsa əgər,
Könüldən dinlə ki, bir xeyri dəyər.
Nalayiq söz ilə etsələr xitab,
Sən gərək sükutla verəsən cavab ***[“İqbalnamə”].***

**Nizami yaradıcılığında davranış mədəniyyəti**

Davranış mədəniyyəti dedikdə, səbirli, nəzakətli, ədəbli, mərifətli, təvazökar və s. olmaq kimi xüsusiyyətlər nəzərdə tutulur. Davranış mədəniyyətinə malik olan şəxs cəmiyyətdə özünü aparmağı bacarır, insanlarla ünsiyyətdə

öz hərəkətlərini tənzimləyə bilir.

"İskəndərnamə" əsərinin "İqbalnamə" hissəsində alim Sokrat tərəfindən İskəndərə edilən nəsihət vasitəsilə şair oxucularını davranışlarında tədbirli, səbrli olmağa çağırır. Eyni zamanda göstərir ki, tədbirli, səbrli olmaq üçün insan mənəvi cəhətdən saf olmalıdır:

Əlində yumşalsa dəmir, onu bil;
Tədbirlə yumşalar, hiddətlə deyil.
Qəlbi də, istəsən, bu sayaqla sən,
Parladıb ayna tək edə bilərsən.
Dəmiri aynatək parladan insan,
Pası silməlidir öz vicdanından.
O qədər saf qəlbli, pak vicdanlı ol,
Mənəvi sirləri edəsən qəbul.
Pis olan şəxslərə vur qara damğa,
Çalış öz qəlbini saflaşdırmağa....***["İqbalnamə"].***

"İqbalnamə" əsərində "İskəndərin Şimala çatması və Yəcuc səddini bağlaması" səfərində İskəndər qapısı, qıfılı olmayan zəngin ticarət mağazaları olan bir şəhərə rast gəlir. O, öyrənir ki, burada insanlar əmin-amanlıq içində yaşayır, şəhərdə oğurluq və s. bu kimi mənfi davranışlara rast gəlinmir. Şəhərin ağsaqqlı ilə görüşərkən bunun səbəbini öyrənməyə çalışır. Nurani qoca belə izah edir:

Əyri dolanmaqla yoxdur işimiz,
Düzlükdən başqa yol tanımırıq biz.
Əyrilik yoluna çəkmişik hasar,
Düzlüklə olmuşuq əzabdan kənar....
Xəbərçilik bilməz bir nəfərimiz,
Özgənin eybinə göz yumarıq biz.
Birini qəzəbli, acıqlı görsək,
Ona məsləhətlə elərik kömək.
Heç kəsi pis yola əsla çəkmərik,
Fitnə axtarmarıq, qan da tökmərik.
Dərdlinin dərdinə olarıq şərik,
Şad olsa, onunla şadlıq eylərik....

Üzə deyilməyən bir sözü heç kəs.
Bizlərdə qaydadır, daldada deməz.
Kim nə cür dolanır, danışmarıq biz,
Kimsənin işinə qarışmarıq biz.

Ağsaqqalın bu sözlərindən təsirlənən İskəndər "Öyrənək bunlardan ayin, mərifət" deyərək bütün dünyanı gəzdiyini hədər hesab edir, bu əhalini əvvəldən tanımadığı üçün təəssüflənir. Nizami özünün insanlarda görmək istədiyi əxlaqi keyiyyətləri həmin şəhər əhalisinin timsalında verməklə oxucunu düşünməyə sövq edir.

Humanist şair əsərlərində yaratdığı obrazlar vasitəsilə şahları xalqla davranışda mehriban, xoşxasiyyət, sadə olmağı, heç kəsə əziyyət, verməməyi, paxıllıqdan, həsəddən uzaq olmağa çağırır:

Şüşəyə öncə sən vurma daş, kəsək,
Qırılsa çətindir onu düzəltmək ***["Şərəfnamə"].***

***

Əziyyət eyləsən, cəfa görərsən,
Mehribanlıq etsən, səfa sürərsən ***["Xosrov və Şirin"].***

***

Sən ki, hüma quşusan, şərəfli iş gör, əlbət,
Az ye, az danış, vermə bir kimsəyə əziyyət ***["Şərəfnamə"].***

***

Çalış öz xalqının işinə yara,
Geysin əməlindən dünya zər xara.
Xoş ətirlər saçmaq istəyən adam,
Gültək xoşxasiyyət olmalı müdam ***["Yeddi gözəl"].***

***

Torpaq vücuduna vurma min bəzək,
İnsana qum kimi sadəlik gərək ***["Yeddi gözəl"].***

***

Hər kəsi ötməkçün çıxanda yola,
Tələsmə, həsədə yol vermə əsla!
Həsəd dərdə salar daim insanı,
İnsana yad edər dostu, aşnanı ***["İqbalnamə"].***

“Leyli və Məcnun” əsərində qəhrəmanlarına hər bir işdə səbrli olmağı, ümidsiz olmamağı tövsiyə edən şair deyir:

Ümidsiz bir işdə səbr etsən əgər,
Bir ümid işığı parlaya bilər.
Hər ümidsiz işdə bir çox ümid var,
Qaranlıq gecədən ağ səhər doğar ***[“Leyli və Məcnun”].***

**Nizami yaradıcılığında dostluq**

Şair həyatda hər bir insana dostun vacib olduğunu qeyd etsə də, dost olarkən müəyyən şərtlərə də əməl etməyi tövsiyə edir. Yaman gündə dadına çatan, rəftarı ilə dost olduğunu təsdiqləyən, dostluqda vəfalı olan adamlarla durub-oturmağı, bədəsil, zatı qırıq olanlardan uzaq olmağı əxlaqın əsas şərtlərindən biri hesab edir.

Heç bir işdə olma yarsız, yoldaşsız,
Dünyada yoldaşsız allahdır yalnız.
Dünyada çox iş var yoldaşdan aşar,
Yaman gündə çatar dada yoldaşlar ***[“Xosrov və Şirin”].***

***

Dostluq iddiası edən bir ürək,
Sözdən başqa çox şey bildirə gərək.
Bir könül məhəbbət edərsə izhar,
Çox şeylə seçilər ondakı rəftar ***[“ İqbalnamə”].***

***

Zatı pis olana üz göstərmə sən,
Qurdu bəsləməkdən ziyan çəkərsən.
Bədgövhər adamla heç addım atma,
Öz təmiz kimyani küllərə qatma ***[“İqbalnamə”].***

***

Heç oturub-durma pis dostla, çəкin,
Şəninə əsкiкliк gətirər sənin.
Yoldaşın ağıllı, ya axmaq olsa,
Ona qıfılsız şey tapşırma əsla ***[“Xosrov və Şirin”].***

***

Bir dost ki, dost ilə hey nifaq eylər,
O, demək, düşmənlə ittifaq eylər ***[“Yeddi gözəl”]***.

Şair həm də obrazlar vasitəsilə oxucuya çatdırmaq istəyir ki, insanın düşdüyü mühitin, dost olduğu adamların xarakteri insanın əxlaqına bu və ya digər formada təsir gösərir. İnsan ağıllı adamlarla dost olanda mərifətli, vəhşiylə oturub –duranda vəhşi təbiətli olar.

Ağıllı adamla dost olsan əgər,
Elmi, mərifəti sənə də keçər ***[“Leyli və Məcnun”].***

***

Vəhşiylə dost olsa insan dünyada,
Vəhşi adətincə ömr edər o da ***[“Leyli və Məcnun”].***

**Nizami yaradıcılığında yaxşılıq, xeyirxahlıq**

Yaxşılıq, xeyirxahlıq mənəvi cəhətdən zəngin olan insanlara aiddir. Yaxşılığın, xeyirxahlığın cövhərində mərhəmət, qayğıkeşlik, ətrafında olanlara diqqət dayanır. Nizami əsərlərində yaxşılığı, səxavətliliyi vəsf etməklə insanı ucaldan və yaşadan, onu el içində hörmətli edən, nəinki bəndələr, eləcə də Allah tərəfindən bəyənilən əxlaqi keyfiyyətlər olduğunu oxuculara çatdırmaq istəyir.

Yaxşılıq etməsən əgər insana,
Böyüklük şərəfi verilməz sana ***[“Leyli və Məcnun”].***

*********

Bəlli bir şeydir ki, pislik edənlər,
Öz işindən özü çəkəcək zərər.
Eşitməmişsənmi bu məşhur sözü:
“Quyu qazan adam düşəcək özü” ***[“Xosrov və Şirin”].***

***

Həmişə dünyada yaxşılıq axtar,
Yaxşı ad almaqda əbədiyyət var.
Yaxşı adlananla yaxşı ol müdam,
Yoxsa sən özün də olarsan bədnam ***[“İqbalnamə”].***

O, yaxşılıqla bağlı fikir söyləyəndə pisliyə də münasibət bildirir. Həyat bumeranqdır. Yaxşılıq da etsən, pislik də etsən özünə qayıdacaqdır. Yaxşılıq insana şərəf gətirdiyi kimi, pislik də insanı alçaldır, el içində hörmətsiz edir.

Yaxşılıqla pisdən qorumaq mümkün,
Dünyada yaxşılıq hər şeyə üstün ***[“Şərəfnamə”].***

***

Bəla görəcəksən pislik etdinsə,
Əvəz verəcəkdir dünya hər kəsə ***[“Xosrov və Şirin”].***

***

Quyuya salsan da yaxşılığı, bil,
Yenə qayıdacaq, o itən deyil ***[“Leyli və Məcnun”].***

***

Nizami “sənə olunan pisliyi və eləcə də  kiməsə elədiyin yaxşılığı unutmağı” insana xas olan gözəl keyfiyyət kimi verir:

Əgər pislik etsə bir nəfər sənə,
Sən yaxşılıq etsən bir özgəsinə,
Onu da, bunu da yad etmə əsla,
Xalqa bədguluqdan dilini saxla ***[“İqbalnamə”].***

Şair insanın yaxşılıq və ya pislik etməsini ailə tərbiyəsi ilə əlaqələndirir:

Evdən çıxan pislik, yaxşılıq yəqin,
Əslini göstərir ev yiyəsinin ***[“İqbalnamə”].***

Şair yaxşılıq və pisliyi müqayisəli verdiyi kimi, xeyirlə şərin də qoşa olduğunu, insanları özlərini şərdən qorumağı tövsiyə edir.

Xeyirlə şər izləyir hər bəşəri əzəldən,
Xeyir xeyir tapandır, şər də şəri əzəldən ***[“Sirlər xəzinəsi”].***

## Nizami yaradıcılığında ədalət.

Nizami Gəncəvinin tədris olunan əsərlərində irəli sürülən əsas əxlaqi keyfiyyətlərdən biri də ədalətdir. Ədalət, mərhəmət insanın kamilliyinin ən uca zirvəsini göstərən əxlaqi keyfiyyətidir. Ədalət hər kəsə layiq olduğunun haqqını vermək deməkdir. Ədalətin əksini zülm etmək kimi götürsək, ədalətli və ya zülmkar insan anlayışları yaranır. Ədalətli insan ətrafdakılara ziyan verməkdən çəkinir, istənilən situasiyada haqqı müdafiə edir.

Nizami “Sirlər xəzinəsi” əsərində hökmdarları ədalətli olmağa, xalqa qayğı göstərməyə çağırır. O, fikirlərini bəzən birbaşa deyil, hökmdarla xalqı üz-üzə qoymaqla, onları xalqın mühakiməsinə verməklə bildirir. “Qarı ilə Sultan

Səncərin hekayəti" ndə darğa tərəfindən zülmə məruz qalan qarı Sultan Səncərə şikayət edərək zülmə son qoymağı, xalqın qayğısına qalmağı tələb edir:

Adillik eşqindəsən, bəs hanı ədalətin?
Haçan sona yetəcək sitəmin, qəbahətin?
Qaydadır ki, sultandan xalqa güc, qüvvət gələr,
Bəs niyə səndən bizə daim həqarət gələr?...

Nizami "Ədalətli və insafli olmağa dair" II söhbətdə şahlara müraciət etməklə onları xalqla rəftarda ədalətli olmağı, zülmkar olmamağa çağırır. Ölkənin abad, əhalinin xoşbəxt olması idarəedənin adilliyindən asılıdır:

Çalış xəlq üçün qazan asudəlik, səadət,
Xəlqi döyən, incidən nə qazanıb? Xəcalət!...
Ədalət müjdəsilə cahanı şad eylə sən,
İşlər gör ki, iş olsun, yurdu abad eylə sən!
Ədalət təşnəsidir, inan bu gözəl diyar,
Ədl ilə iş görənlər əbədi özül tapar.

"Adil Nuşirəvan ilə vəzirin hekayəti"ndə bayquşların şahın zülmü haqqında olan söhbətindən nəticə çıxaran Nuşirəvan şah zülm etməkdən əl çəkir, tarixdə ədalətli şah kimi qalır:

Əli qələmli, adil bir şah gördülər onu,
Fərman verib ürəklə, kəsdi zülmün yolunu.
Boğdu cövrü, cəfanı, car çəkdi ədaləti,
Axır nəfəsinədək qorudu səadəti.
Zəmanədə nə qədər devrim - inqilab oldu,
Nuşirəvan ölsə də, onun haqq səsi qaldı.
Onun adı yazılmış sikkənin üzərində,
"Adil" sözü gördülər xoş günlərin birində.
Bəli, ondan dünyada parlaq xatirə qaldı,
Ədalətin zəngini kim ki, çaldı, uçaldı.

"Yeddi gözəl" əsərində Bəhram Gur 7 qəsrə çəkilib 7 ölkədən gətirilmiş gözəllərlə söhbətdə ikən ölkənin idarə olunmasını müvəqqəti olaraq vəzirə tapşırır. Müəyyən vaxtdan sonra ölkənin dağıldığını, xəzinənin boşaldığını görür. Səfər zamanı çobanın iti ayağından asdığını görən şah bunun səbəbi ilə maraqlanır. Çoban itin xəyanətilə bağlı əhvalatı ona danışır. Bu söhbətdən nəticə çıxaran

Bəhram vəzirin əməlləri ilə maraqlanır, dustaqları danışdırır. Vəziyyəti öyrəndikdən sonra vəziri edam etdirir və ölkədə ədaləti bərqərar edir:

Şah dedi: - Kim qalxsa bu cür göylərə,
Ruzgar yıxar onu bu minval yerə.
Xəyanətkar olar ellər bədnamı,
Pislərin pislikdir hər sərəncamı.
Zülm eyləyib əgər şur qaldırsa, bil,
Göndərər məzara onu hər adil.
Sanma ki, dayağı yox ədalətin,
Yer, göy qulluğunda durmuşdur mətin.
Kim salsa dünyada zülüm bağını
Deməli bağlar öz əl-ayağını.
Bəhram ədalətdə aldı yaxşı ad,
Etdi qurdla iti, çobanı tez yad.
Dəvətlə taxtü-tac verdi çobana,
Səadət, asayiş bəxş etdi ona.
Götürdü ölkədən bütün əngəli,
Kökündən qopardı zoru öz əli.

Ümumtəhsil məktəblərində N.Gəncəvinin "Sirlər xəzinəsi"ndən "Yaralı uşağın dastanı" və sinifdənxaric oxu kimi "Ovçu ilə itin və tülkünün hekayəti" (VI sinif), "Sirlər xəzinəsi"ndən "Sultan Səncər və qarı", sinifdənxaric oxu kimi "Zalım şahla düz danışan qocanın hekayəti" (VIII sinif), "N.Gəncəvinin həyat və yaradıcılığı" və "İskəndərnamə" poeması (X sinif) tədris olunur.

Nizaminin yaratdığı obrazlar ideal, eyni zamanda şairin hər kəsdə görmək istədiyi davranışlara malik insan obrazlarıdır. O, yaratdığı obrazlar vasitəsilə "Mənəvi cəhətdən kamil insan necə olmalıdır?" sualının cavabını oxucuya çatdırmağa çalışmış və nail olmuşdur.

Nizami Gəncəvinin yaradıcılığı istər mövzu, istərsə də məzmun baxımından o qədər zəngin və rəngarəngdir ki, təlim prosesində onu tam əhatə etmək qeyri mümkündür. Odur ki, şairin əsərlərindən parçalar həm təlim materialı, həm də sinifdənxaric oxu kimi, eləcə də onun əsərlərinə dərsdənkənar məşğələlərdə, tədbirlərdə müraciət edilə bilər.

Nizami yaradıcılığındakı əxlaqi tərbiyənin hər bir komponentinə dair

dərsdənkənar məşğələlər, sinifdənxaric oxu, eləcə də layihələrlə iş zamanı şagirdlərə mövzu vermək olar. Əxlaqi tərbiyəyə dair seçmələr üzərində şagirdləri axtarışa sövq etməklə onların ətraf aləmə, insanlara, eləcə də özünə münasibəti dəyişir. Yeniyetmə artıq bu münasibətlərə dəyər kimi baxır, yəni əxlaqi keyfiyyətlərin-ləyaqət, vətənpərvərlik, şərəf, ədalət, düzlük, sədaqət və s. hər birinin dəyər olduğunu dərk edir. Müəllim şagirdlərə hər bir dəyərlə bağlı təqdimat hazırlamağı tövsiyə edə bilər. Həmçinin müəyyən tədbirlərdə, məsələn, Qarabağ müharibəsi zamanı fədakarlıq göstərən əsgərlərimiz, Vətən uğrunda qurban gedən şəhidlərimiz, Zəfər tarixi ilə bağlı ordumuzun keçdiyi şanlı yol, eləcə də qazilərlə görüşlərdə Nizami yaradıcılığından nümunələr gətirməklə dahi şairin ideyalarını yaşatmış olur.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı, - 2013.

2. Əlimirzəyev X. Nizami Gəncəvinin insan konsepsiyası (monoqrafiya). Bakı: Gənclik, -2001, 354 s.

3. Gəncəvi N. “Sirlər xəzinəsi”. Bakı: “Lider” nəşriyyat, - 2004.

4. Gəncəvi N. “Yeddi gözəl”. Bakı: “Lider” nəşriyyat, - 2004.

5. Gəncəvi N. “Xosrov və Şirin”. Bakı: “Lider” nəşriyyat, - 2004.

6. Gəncəvi N. “Leyli və Məcnun”. Bakı: “Lider” nəşriyyat, - 2004.

7. Gəncəvi N. “İskəndərnamə. Şərəfnamə”. Bakı: “Lider” nəşriyyat, -2004.

8. Gəncəvi N. “İskəndərnamə. İqbalnamə”, “Lider” nəşriyyat, Bakı, - 2004.

9. Mikayılov Ş.A., Səmədov A.A., Məmmədov Ş.H., Rüstəmova S.Ə., Bəkirova A.M. Nizami Gəncəvinin həyat və yaradıcılığının ümumtəhsil məktəblərində tədrisi məsələləri. Müəllimlər üçün metodik vəsait. Bakı: “Maarif” nəşriyyatı, -1987, 167 s.

10. 10.Nizaminin hikmət və nəsihətləri. Naxçıvan: “Əcəmi” nəşriyyat, - 2013

## Nizami Gəncəvi əsərləri vasitəsilə məktəblilərin estetik tərbiyəsi

Xalqımızın iftixarı sayılan Nizami Gəncəvi yaradıcılığı dünya mədəniyyətinin solmaz, həmişə təravətli abidəsidir. Onun mənəvi zənginliklə aşılanan "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə" poemaları eyni zamanda etik-estetik ideallarla zəngindir. İrqindən, millətindən asılı olmayaraq hər kəsi mənalı yaşamağa, insan adını uca tutmağa səsləyir.

Elə bir ixtiyar olsaydı məndə,
Qoymazdım bəndəyə möhtac bir bəndə,

- deyəndə də insanlıq aləmini, xeyirxahlığı əzmilə mənalandırmağı ön plana çəkirdi. İnamla demək olar ki, Nizaminin etik-estetik aləmindəki söz incilərini bir yerə yığsaq möhtəşəm bir qala, ən uca zirvə yaranar. Təsadüfi deyildir ki, böyük ədib, filosof yeri gəldikcə tam əminliklə və böyük iftixarla deyirdi:

Sanmayın yad sözünü öz sözümə qatmısam,
Mən könlüm istiyəni yazmışam, yaratmışam.
Nə qədər şair var, söz var, şeir var,
Dünyada onlardan mənəm yadigar.

İnsaniliyin - insansevərliyin qayda-qanunlarını əks etdirən humanizm Nizaminin çox böyük qəlb genişliyi ilə yaratdığı əsərlərdə parlaq şəkildə nəzərə çarpır. İnsan adını uca tutmağı, insanlığa layiq ülvi keyfiyyətlərə yiyələnməyi, ömür yollarında hər cür çətinliyə sinə gərib qalib olmağı dönə-dönə tövsiyə edir:

İnsanın, yaxud hər hansı əşyanın ilkin görünən forması, zahiri siması həqiqi gözəlliyin qiymətləndirilməsi üçün əsas meyar ola bilməz.

Dahi şairin dünyada məşhur olan poemaları fəlsəfi, etik-estetik fikirlər çələngi kimi zövq oxşayır.

Nizaminin etik-estetik fikirlərinin həyatiliyi, qüdrətli təsir gücü bir də ondadır ki, o, incəsənəti, onun ayrı-ayrı janrlarını xüsusilə musiqi, təsviri sənətin əsl mahiyyətini çox gözəl mənimsəmiş, ən müqəddəs, ən ülvi hissləri oyatmaqda sənət əsərlərinin çox böyük rol oynadığını dönə-dönə qeyd etmişdir. Bu mənada Nizaminin bütün əsərləri, xüsusilə "İskəndərnamə" poeması

bədii-estetik fikirlər ensiklopediyası kimi misilsizdir, milli və bəşəri mədəniyyət aləminə aparır.

Böyük mütəfəkkirin əsərləri ilə yaxından tanış olduqca belə qənaətə gəlirsən ki, həqiqi incəsənət-poeziya, musiqi, təsviri sənət həyatı, həqiqəti əks etdirməli, idrak vasitəsinə çevrilməli, xalqın mənəvi duyğularının tərcümanı olmalı, yeri gələndə ən təsirli məlhəm kimi müalicə funksiyasını da yerinə yetirməlidir.

Mizrabi gah yavaş vurdu, gah bərk.
Səslər çıxarırdı, bərkdən, yavaşdan,
Sanki nərə çəkir öküz, ya aslan.
Səslərdə o qədər məlahət vardı
Ki heyvan eşitcək donub qalardı.
İnsan səslərindən heyvana qədər,
Sazdan çıxarırdı hər cürə səslər.
Belə ki, çaldığı o havalardan
Şadlanıb oynamaq istərdi insan...

Həmin nümunəyə diqqət yetirdikdə görürük ki, Nizami incəsənətin idrakı və tərbiyəvi əhəmiyyəti ilə bağlı iki mühüm cəhət üzərində xüsusi dayanmışdır.

Birinci, Azərbaycan xalqının qədim və zəngin musiqi mədəniyyətini göstərən musiqi alətlərindən saz, qanun, rud, ud, ərğənunun yaranması və onların qəlb oxşayan səsləri, geniş, cəlbedici ifa imkanları haqqında inandırıcı lövhələr yaratmışdır.

İkincisi, həmin alətlərlə çalınan milli musiqi nümunələrinin böyük qüdrətli, hətta təbib, loğman kimi müalicəedici təsirini parlaq lövhələrlə tərənnüm etmişdir:

Mahiyyət dolğunluğu, məna çalarları ilə müxtəlif qəbildən olan insanların ömür yollarını işıqlandırır, nura qərq edir. Eyni zamanda etik-estetik fikirlər antologiyası kimi kara gəlir:

Birinin şirinsə sözü söhbəti,
Başqa şey istəmə, bəsdi ülfəti.
Xoşxasiyyət olmaq istəyən adam,
Gültək xoş ətirlər saçmalı madam,

- deyən Nizami hikmətinin fəzilətləri əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə keçərək insanlıq aləmini zinətləndirir. Elə yaşa ki, öləndən sonra ölmə, sözünlə-söhbətinlə, işinlə-əməlinlə tanın, yadda qal, - deyir.

Sordu köhnə qızılmı, təzə sözmü yaxşıdır?
Söz sərrafı söylədi: söz dünyanın naxşıdır.
Həyalı söz danış, öyrənib səndən
Həyalı danışsın səni dinləyən.
Ağıllı bir işdir yumşaq danışmaq,
Kobudluq axmağa yaraşır ancaq,

- kəlamları ilə neçə əsrlərdir ki, insanları mənəvi saflığa səsləyir. Sözün məna yükünü-məna dəyərini qədir-qiymətdə saxlamağı vacib sayır.

Əxlaqi kamilliyin-etik mədəniyyətin əsas daşıyıcısı, göstəricisi kimi dəyərləndirdiyi sözlə ehtiyatla davranmağı, insanlıq aləmindəki yerini mənalandırmağı dönə-dönə diqqətə çatdırır.

Yazsaydım hər bilib, hər eşidəni,
Yalana çəkərdi sözün yüyəni.
Yazdığım sözlərə verməsəm zivər,
Yenilik verməzdi köhnə nəğmələr.
Qələmə gərəkdi öylə söz almaq,
Şüurdan, ağıldan olmasın uzaq.

Nizaminin dünyaya, insanlıq aləminə nur saçan, ömür yollarını işıqlandıran deyimləri dünya oxucularını, milli mənsubiyyətindən asılı olmayaraq bütün insanları heyrətləndirir. Onun “Xəmsə”sindəki hikmət inciləri zaman keçdikcə daha geniş vüsət alır, heyrət-heyranlıq yaradır. İnsan adını uca tutmağa, ayıq-sayıq olmağa səsləyir:

Mən könlüm istəyəni yazmışam, yaratmışam.
Nə qədər şair var, söz var, şeir var,
Dünyada onlardan mənəm yadigar.

İnsaniliyin - insansevərliyin qayda-qanunlarını əks etdirən humanizm Nizaminin çox böyük qəlb genişliyi ilə yaratdığı əsərlərdə parlaq şəkildə nəzərə çarpır. İnsan adını uca tutmağı, insanlığa layiq ülvi keyfiyyətlərə yiyələnməyi, ömür yollarında hər cür çətinliyə sinə gərib qalib olmağı dönə-dönə tövsiyə edir:

Neçin alçaqlara boyun əyirsən?
Oyuncaq olursan namərdlərə sən?
Nə üçün boynuna min yük alırsan?
Zalımın zülmündən razı qalırsan?
Qəlbi yumşaqlığı bir dəfə unut,
Çiynini dağ kimi ucalıqda tut!...
Acizlik ürəyi ağrıdır bilsən,
Bir alçaqlıq olar hər zülmə dözsən.

Dahilik rütbəsi ilə tanınan Nizami yaxşı bilirdi ki, yer üzünün əşrəfi, incisi sayılan insan hər şeyə qadirdir. Aydın məslək yolunda inamla irəliləməklə məqsədə çatar, ömrünü, həyatını cıraqban edər:

Təbiət quranda xilqətimizi,
Başqa səhifədə yazmışdır bizi.
Anlayıb düşünək hər şeyi gərək,
Hər sirri açmaqla hünər göstərək.
Yerləri, göyləri öyrənək bir-bir.
Qalmasın bizimçün açılmamış sirr.

Bu deyimlərlə də Nizami insanın gücünə-qüdrətinə, zəkasına, ali varlığına inanır, mütləqə inam himnini əzəmətlə səsləndirir. İnsaniliklə-xeyirxahlığı, ülviliklə-gözəlliyi vəhdətdə götürən, mahiyyət dolğunluğu ilə tərənnüm edən Nizaminin estetik idealı da müxtəlif sahələrə istiqamətlənərək zövq oxşayır. Təbiətin, təbabətin, incəsənətin estetikası, estetik dəyərləri qəlbləri riqqətə gətirən bir tərzdə nəzərə çatdırılır:

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür-çiçəkdir,

- deyən Nizami təbiətin gözəlliklərini tərənnüm etməyi vacib sayır. Bununla belə, zəka ülviliyini, incəsənət gözəlliyini mənalı yaşamağın barometri kimi dəyərləndirir.

Nizami ən dəyərli estetik sərvət, estetik kateqoriya olan gözəlliyin mahiyyətini açmaq üçün müxtəlif xarakterli misallar çəkmiş, belə bir qənaətə gəlmişdir ki, əsl gözəllik xeyirxahlıqla, səmimi, nəcib və humanist hisslərlə vəhdətdə götürülür, başa düşülür. Nizaminin etik-estetik fikirlərinin həyatiliyi, qüdrətli təsir gücü bir də ondadır ki, o, incəsənəti, onun ayrı-ayrı janrlarını,

xüsusilə musiqi, təsviri sənətin əsl mahiyyətini çox gözəl mənimsəmiş, ən müqəddəs, ən ülvi hissləri oyatmaqda sənət əsərlərinin çox böyük rol oynadığını dönə-dönə qeyd etmişdir. Bu mənada Nizaminin bütün əsərləri, xüsusilə "İskəndərnamə" poeması bədii-estetik fikirlər ensiklopediyası kimi misilsizdir, milli və bəşəri mədəniyyət aləminə aparır.

Böyük mütəfəkkirin əsərləri ilə yaxından tanış olduqca belə qənaətə gəlirsən ki, həqiqi incəsənət-poeziya, musiqi, təsviri sənət həyatı, həqiqəti əks etdirməli, idrak vasitəsinə çevrilməli, xalqın mənəvi duyğularının tərcümanı olmalı, yeri gələndə ən təsirli məlhəm kimi müalicə funksiyasını da yerinə yetirməlidir.

Təqdirəlayiq cəhətlərdən biri də budur ki, Nizami ayrı-ayrı əsərlərində xalqımızın qədim musiqi mədəniyyətinin tarixindən, inkişafından bəhs edən məsələlər üzərində də dayanmışdır. Onun əsərlərində mizrabla, kamanla, nəfəslə çalınan, habelə zərb alətlərinin ən qədim nümunələrindən söhbət açılır. Ud, rud, rübab, saz, çəng, qanun, kamança, ney, musiqar, şeypur, kərənay, nəfir, şahnəfir, kus, təbil, doxul, dəf, dairə, zəng, zindan, nağara və digər musiqi alətlərini yaradan və yüksək ifaçılıq məharəti göstərən sənətkarlardan, onların ifa etdiyi havaların estetik təsirindən bəhs edən misralar, poetik ümumiləşdirmələr zövq oxşayır.

Nizaminin "İskəndərnamə" poeması incəsənətin estetikasını, estetik təsirini açıb göstərməkdə çox qüdrətli didaktik vasitədir, - desək, daha doğru, daha əhatəli olar. Poemanın "İqbalnamə" bölməsinin "Əflatunun çalğı aləti qayırması" hissəsindən bir nümunəyə diqqət edək:

Əflatun onlardan üz döndərərək
Yox oldu saraydan Ənqa quşutək.
Gecəli-gündüzlü düşündü ustad,
Gizlində o, bir saz elədi icad.
Bir küpün içində gizləndi bir gün,
Axtardı səsini bu yeddi küpün.
Yaxşı olmasa da birinin səsi,
Küpdə xoş səslənər onun nəğməsi.
Bu qanun üzrə də o sahibhünər
Küpdə düzəldirdi yeni nəğmələr.

O, rəsəd sahibi küpə girərək
Çərxi, ulduzları seyr etdi tək-tək.
Eşidib burada o, nalə, fəryad,
Etdi bu ahənglə bir nəğmə icad.
Rudda bu ahəngi münasib yerdə,
Quru bağırsaqdan bağladı pərdə,
İçi boş qaba çəkərək dəri,
Düzəltdi, bağladı o, pərdələri.
Ceyran dərisinə çəkdi qara rəng,
Quru ud səslənib oldu xoşahəng.
Bir xeyli cəhd edib fikrinə uyğun,
Düzəltdi, nəhayət, o bir ərğəmun.
Telləri yaxşıca köklənmiş bu saz
Başladı verməyə ahəngdar avaz.
Zil və bəm nəğmələr hasil edərək,
Mizrabı gah yavaş vururdu, gah bərk.

Həmin nümunəyə diqqət yetirdikdə görürük ki, Nizami incəsənətin idrakı və tərbiyəvi əhəmiyyəti ilə bağlı iki mühüm cəhət üzərində xüsusi dayanmışdır.

Birincisi, Azərbaycan xalqının qədim və zəngin musiqi mədəniyyətini göstərən musiqi alətlərindən saz, qanun, rud, ud, ərğənunun yaranması və onların qəlb oxşayan səsləri, geniş, cəlbedici ifa imkanları haqqında inandırıcı lövhələr yaratmışdır.

İkincisi, həmin alətlərlə çalınan milli musiqi nümunələrinin böyük qüdrətli, hətta təbib, loğman kimi müalicəedici təsirini parlaq lövhələrlə tərənnüm etmişdir:

Bütün heyvanları yatırdıb sazla,
Sonra ayıldardı xoş bir avazla…
Ustad həmin sazı çaldığı zaman,
Edərdi xəstənin dərdinə dərman...
Müəyyən pərdədə bir hava çalır
Ki, bütün heyvanlar yuxuya dalır.
Başqa bir pərdədə çaldığı zaman
Yatanlar hamısı durur yuxudan

Bu misralar incəsənətin ən qüdrətli növü olan musiqinin fəlsəfi, mənəvi təsir qüvvəsi haqqında aydın təsəvvür yaradır. Musiqinin humanizmi, təbabəti, qüdrətli ruh, müalicə vasitəsi olması haqqında hələ XII əsrdə irəli sürülən və çox böyük həyati əhəmiyyət kəsb edən bu fikirlər, müddəalar Nizami estetikasının nikbinliyini, ümumbəşəri mahiyyət kəsb etməsini bir daha parlaq şəkildə nəzərə çatdırır. Nizami göstərirdi ki, musiqi həm də dəyanətlilik, düzlük və doğruluq vasitəsidir.

Əldə olan mənbələrin təhlili, ümumiləşdirilməsi belə bir fikir söyləməyə əsas verir ki, musiqinin həyata, bütün canlılar aləminə estetik təsirini Nizami qədər böyük uzaqgörənliklə, müxtəlif həyat hadisələri ilə bağlı təsirli, inandırıcı şəkildə təsvir və tərənnüm edən olmamışdır.

Nizami duhası-Nizami yaradıcılığı ilə əlaqədar deyilənlər, yazılanlarla tanış olduqca bir daha belə qənaətə gəlmək olur ki, o eyni zamanda etik-estetik fikirlər aləminin böyük memarıdır. Bu rütbəyə isə o geniş, hərtərəfli mütaliə vasitəsilə nail olmuş, xələflərinə üz tutaraq demişdir:

Hər kim öyrənməyi bilməyirsə ar,
Sudan dürr, daşdan da gövhər çıxarar.
Ancaq öyrənməyi ar bilən insan,
Məhrumdur dünyada bilik almaqdan.
Çox iti behinlər yatan oldular,
Axırda saxsı qab satan oldular.
Bilikli adamlar uzağı görər,
Cahilin zəhməti hədərdir -hədər!...

Necə böyük uzaqgörənliklə demisən ustad! Ululardan-ulu babamız!

**İsatifadə edilmiş ədəbiyyat**

1. Gəncəvi N. “İskəndərnamə”. Bakı: “Yazıçı” nəşriyyatı, 1982.

2. Qasımov M., Cəfərov C. Azərbaycanda estetik fikir tarixindən. Bakı: Azərnəşr, 1964.

3. Xəlilov V. Məktəblinin etik-estetik aləmi. Bakı: “Nərgiz” nəşriyyatı, 2011.

*Kitab “CN POLİGRAFİYA” Məhdud Məsuliyyətli Cəmiyyətində səhifələnmiş və çap olunmuşdur.*

______________________________________

Çapaimzalanıb: 01.12.2022
Format: 60x84 1/16. Həcmi: 6,0 ç.v. Tiraj: 965.
Sifariş *№ 45*.

AZ 1006, BAKI, Nərimanov rayonu, K. Rəhimov küçəsi 865,
bina 22c, mənzil 3
Tel./faks: (012)4652471
*e-mail: cn_poliqraf@mail.ru*